**Hər kəs ədalətli olacaq** www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 05 (6147) 6 fevral 2026-cı il | Qiyməti 40 qəpik

## "Zayed İnsan Qardaşlığı Mükafatı" İlham Əliyevə təqdim olundu

**Fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimi keçirilib.**

**Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

**Əvvəlcə Birləşmiş Ərəb Əmirliklərinin himni səsləndirildi.**

**"Zayed İnsan Qardaşlığı Mükafatı" ilə bağlı videoçarx nümayiş etdirildi.**

**Sonra Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam çıxış etdi.**

**Tədbirdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin, Qırğız Respublikasının Prezidenti Sadır Japarovun, Livan Respublikasının Prezidenti Cosef Aunun, Türkiyənin birinci xanımı Əminə Ərdoğanın və İordaniya Haşimilər Krallığının Kralı II Abdullahın "Zayed İnsan Qardaşlığı Mükafatı"nın laureatlarına təbrik videomüraciətləri nümayiş olundu.**



## Əli Əsədov iclas keçirdi, tapşırıqlar verdi

**30 yanvar tarixində Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2026-cı il yanvar ayının 5-də yerli televiziya kanallarına verdiyi geniş müsahibəsindən irəli gələn tapşırıqlar və 2025-ci ilin sosial-iqtisadi inkişaf göstəriciləri, İqtisadi Şuranın 2026-cı il üzrə Fəaliyyət Planı, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın 2025-ci il üzrə monitorinq və qiymətləndirmə nəticələrinə dair Hesabat, "Sahibkarlıq fəaliyyətinə manee və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi qrup"un təqdimatı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin 2025-ci il üzrə Fəaliyyət Hesabatı və 2026-cı il üçün Fəaliyyət Planı və digər aktual məsələlər ətraflı müzakirə olunub.**



Adalet.az xəbər verir ki, bu barədə Nazirlər Kabinetindən məlumat verilib. Gündəlikdə olan məsələlər üzrə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Natiq Əmirovun və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının məruzələri dinlənilib. İclasda təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və eləcə də ədliyyə naziri Fərid Əhmədov çıxış ediblər.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

## Azərbaycan Ukraynaya növbəti humanitar yardım göndərib



**Azərbaycandan Ukraynaya növbəti humanitar yardım göndərilib.**

Adalet.az xəbər verir ki, bu barədə Ukraynanın Azərbaycandakı səfiri Yuri Husyev sosial şəbəkə hesabında məlumat verib. Onun sözlərinə görə, humanitar yardıma 17 ədəd generator, 4 ədəd daşınabilən enerji sistemi və digər enerji avadanlıqları daxildir.

"Azərbaycana hökumətinə, müəssisələrinə, təşkilatlarına və bütün Azərbaycan xalqına Ukraynaya davamlı dəstəyə görə səmimi minnətdarlığı bildirirəm", - səfir qeyd edib.

Qeyd edək ki, Azərbaycan bundan əvvəl də Ukraynaya elektrik təchizatı ilə bağlı humanitar yardımlar göndərib.

## 1738 hektar ərazi minalardan təmizlənib




**Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən humanitar minatəmizləmə əməliyyatları ilə bağlı aylıq məlumat yayıb.**

ANAMA-dan Adalet.az-a verilən məlumata görə, azad olunan ərazilərdə yanvar ayı ərzində 37 tank əleyhinə mina, 337 piyada əleyhinə mina, 1356 partlamamış hərbi sursat (PHS) aşkarlanıb və zərərsizləşdirilib. Həmçinin 1738.3 hektar ərazi minalardan təmizlənib.

### *Dövlət sərhədini pozduqlarına görə 17 nəfər saxlanılıb*



**Yanvar ayı ərzində dövlət sərhədini pozduqlarına görə 17 nəfər saxlanılıb. Onların 6-sı Əlcəzair, 4-ü Azərbaycan, 4-ü İraq, 3-ü Pakistan vətəndaşı olub.**

Adalet.az xəbər verir ki, bu barədə DSX-nin aylıq hesabatında məlumat verilir. Bildirilir ki, qanunsuz miqrasiya ilə mübarizə tədbirləri nəticəsində saxtalaşdırılmış tarix möhürü və pasportla, özgəsinə məxsus sənədlə dövlət sərhədini keçməyə cəhd göstərən 3 nəfər saxlanılıb.

Sərhəd rejim qaydalarını pozduqlarına görə 117 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb.

***Əbülfət MƏDƏTOĞLU***
***madatoglua@mail.ru***



# KÖÇ

## Ömrün ağrılı anlarından fraqmentlər

*(İkinci yazı)*

**Adətdir, təzə yurda düşəndə öncə ətrafa göz gəzdirirsən. Həm mənzərəni, həm də qonşu olacaq adamları görübtanımaq marağı bir instikt olaraq səni məcbur edir buna. Və yavaş-yavaş başlayırsan tanışlığın əlifbasını öyrənməyə, amma...**

**Amma bu heç də asan olmur. Çünki nəyə əl uzadırsan, nəyə diqqət yetirirsən, mütləq səni köhnə yurda çəkir, sənə oranı xatırladır. Gah müqayisə edirsən, gah da qoyub gəldiklərin üçün təəssüflənirsən.**

**Bu mənada məni ən çox təəssüfləndirən həyatmın "Ədalət"lə bağlı olan ilk anıdır. Daha doğrusu, o anı yaşadığım ilk məkandır. Çünki Azərbaycan Ordusundan ehtiyata buraxılandan sonra ilk üz tutduğum yer "Azərbaycan" Nəşriyyatı oldu.**

**Bax:səh-8**

## *GÜNÜN LƏTİFƏSİ*



Vəli Xramçaylı babat vurubmuş. Küçədə bir çirkin qadınla rastlaşır.

Yanında olan şair Akif Əhmədgilə deyir:

*- Ə, qağa, bu nə çirkin qadındı?*

Qadın da iyrənirmiş kimi ona baxıb deyir:

*-Sən də sərxoşsan.*

Vəli gülərək:

*- Mənim sərxoşluğum sabah keçəcək, amma sənin çirkinliyin...*

# Dövlət başçısı: "Bu mükafatı almaq mənim üçün böyük şərəfdir"



**İlk növbədə, bu mükafata görə mən Hakimlər Komitəsinə təşəkkürümü bildirirəm. Bu mükafatı almaq mənim üçün böyük şərəfdir.**

Adalet.az xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində deyib.

# İlham Əliyev: "Sülh şəraitində yaşamağı öyrənirik"

**Biz (Ermənistan və Azərbaycan - red.) 30 ildən artıq müharibə şəraitində olduq. İndi isə 6 aydır ki, biz sülh şəraitində yaşayırıq və biz sülh şəraitində yaşamağı öyrənirik.**

Adalet.az xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində deyib.

Dövlətimizin başçısı qeyd edib: "Mən bunu əvvəl də söyləmişəm. Bu, xüsusi bir hissdir."

# İlham Əliyev Donald Trampa təşəkkür edib

**Vaşinqtonda Sammitdən sonra, ABŞ Prezidenti Donald Tramp tərəfindən təşkil olunmuş görüşdən etibarən biz (Azərbaycan və Ermənistan - red.) artıq əməkdaşlığı qururuq və uzunmüddətli münaqişəyə son qoyuruq.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində bildirib.

"Mən, həmçinin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa Azərbaycanla Ermənistan arasında sülhə verdiyi töhfəyə görə təşəkkürümü bildirmək istəyirəm", - deyə dövlət başçısı əlavə edib.

# Ərdoğan İlham Əliyevi təbrik etdi

**"Builki mükafatlara layiq görülən Azərbaycan Prezidenti cənab İlham Əliyev ilə Ermənistanın Baş naziri cənab Nikol Paşinyanı ürəkdən təbrik edirəm".**

Adalet.az xəbər verir ki, bu sözləri Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

"Davamlı sülhün bərqərar olması yolunda həm İlham Əliyev qardaşımın atdığı cəsur addımları, həm də cənab Paşinyanın ortaya qoyduğu qətiyyətli iradəni son dərəcə əhəmiyyətli hesab etdiyimi xüsusilə vurğulamaq istəyirəm.

Məqsədi, əhatə dairəsi, məzmunu və ruhu üzərində iki tərəfin də razılıq əldə etdiyi razılaşmanın qüvvəyə minməsi ilə Qafqazın gələcəyində yeni bir səhifənin açılacağına inanıram.

Türkiyə olaraq bölgəmizdə və dünyada əmin-amanlıq, sülh, rifah və sabitliyə yönələn bütün təşəbbüsləri səmimiyyətlə dəstəkləyirik. Qafqazda davamlı sülhün bərqərar olması üçün üzərimizə nə düşürsə etməyə, ədalətə əsaslanan dostluq körpülərinin qurulmasında fəal şəkildə çalışmağa, inşallah, davam edəcəyik.

Bu düşüncələrlə həm Azərbaycan Prezidenti cənab Əliyevi, həm də Ermənistanın Baş naziri cənab Paşinyanı bir daha təbrik edirəm", - deyə Türkiyəli lider bildirib.

# Milli Məclisdə kibercinayətkarlıqla bağlı iclas keçirildi

**Fevralın 3-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin videokonfrans formatında iclası keçirilib.**

Adalet.az xəbər verir ki, iclasa komitə sədri Arzu Nağıyev sədrlik edib.

O, gündəliyə "İnformasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən müəyyən cinayətlərlə mübarizədə və ağır cinayətlərə aid olan sübutların elektron formada mübadiləsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi-Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyası"nın təsdiq edilməsi haqqında qanun layihəsinin daxil edildiyini bildirib.

İclasda bildirilib ki, preambula, 9 fəsil və 68 maddədən ibarət olan Konvensiya informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlərlə mübarizədə dövlətlər arasında əməkdaşlığın gücləndirilməsini, ağır cinayətlər üzrə elektron sübutların toplanması, mübadiləsi və mühafizəsi üçün vahid hüquqi mexanizmin formalaşdırılmasını nəzərdə tutur. Sənəddə kibercinayətkarlıqla mübarizənin beynəlxalq hüquqi yardım, ekstradisiya və operativ qarşılıqlı əlaqə mexanizmləri çərçivəsində həyata keçirilməsi də əksini tapır.



Müzakirələrdə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid çıxış edərək Konvensiyanın təsdiqinin hüquqi dövlət quruculuğu, insan hüquqlarının müdafiəsi və milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması baxımından əhəmiyyətini qeyd ediblər. Bildirilib ki, sənəd müasir dövrdə kibercinayətkarlıqla bağlı müxtəlif halları əhatə edir.

İclasda komitə sədrinin müavini Qüdrət Həsənquliyev, komitə üzvləri Hikmət Məmmədov, Qaya Məmmədov, Gülşən Paşayeva və Rizvan Nəbiyev qanun layihəsi ilə bağlı fikir və təkliflərini səsləndiriblər.

Həmçinin iclasda iştirak edən Milli Kibertəhlükəsizlik Mərkəzinin nümayəndələri Orxan Abdulkərimli və Elvin Balacanov qaldırılan məsələlərə dair açıqlamalar veriblər.

Müzakirələrin yekununda qanun layihəsinin baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.

Onlayn formatda keçirilən iclasda komitə üzvləri Kamal Cəfərov, Azər Kərimli, Ramid Namazov, Səbinə Salmanova, Elman Məmmədov, Samir Vəliyev, Mahir Süleymanlı, Aqil Abbasov, Aydın Mirzəzadə, Erkin Qədirli və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycan və BƏƏ arasında hərbi əməkdaşlıq müzakirə olundu

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbər heyəti Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) işgüzar səfərdədir.**

Adalet.az xəbər verir ki, səfər çərçivəsində müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə BƏƏ-nin müdafiə işləri üzrə dövlət naziri Əlahəzrət Məhəmməd Bin Mübarək Əl-Fadhel Əl-Məzrui arasında ikitərəfli görüş keçirilib.

Görüşdə Azərbaycan-BƏƏ arasında hərbi sahədə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Birgə təlimlərin və qarşılıqlı səfərlərin ölkələrimiz arasında hərbi əlaqələrin genişlənməsinə töhfə verdiyi qeyd edilib.

Tərəflər, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində maraq doğuran məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

Həmçinin, müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev BƏƏ-nin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant İsa Səif bin Ablan əl-Məzrui ilə görüşüb.

Baş Qərargah rəisləri, hər iki ölkənin hərbi qulluqçularının iştirakı ilə keçirilən "Sülh Qalxanı - 2026" birgə təliminin təcrübə mübadiləsinin artırılması baxımından vacibliyini qeyd edib, eləcə də bir sıra digər məsələlər ətrafında danışıblar.




Daha sonra, Müdafiə Nazirliyinin rəhbər heyəti "Sülh Qalxanı - 2026" birgə əməliyyat-taktiki təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak edib.

Qeyd edək ki, fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan iki ölkənin Silahlı qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə Əbu-Dabidə keçirilən birgə əməliyyat-taktiki təlimini izləyiblər.

# *"Qazanılmış bu tarixi dəyərin əhəmiyyətini qiymətləndirməyi bacarmayanlar..."*

**"Bizim üçün uzun illər ərzində böyük probleme çevrilmiş, qürur məsələsi olan Qarabağ münaqişəsi tarixi bağlanmış məsələ kimi həll olundu. İdeologiyası terror, vandalizm və vəhşilik üzərində qurulan Ermənistanın, eləcə də onu xaricdən idarə edən və dəstəkləyən siyasi dayaqlarının məqsədli planları tarixə qovuşdu. Bu hadisə həm region üçün, həm də müasirləşən texnoloji inqilablar fonunda sürətlə inkişaf edən, sivil düşüncəyə inteqrasiya olunan dünya üçün son dərəcə önəmli bir məsələdir".**

Adalet.az xəbər verir ki, bunu "Yeni Xətt" siyasi tədqiqatlar mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

O, bildirib ki, Azərbaycan diplomatiyası bu prosesi təkcə regionda dayanıqlı sülhün bərqərar olması üçün deyil, həm də qlobal miqyasda məkrli və ədalətsiz planları həyata keçirməyə çalışan qüvvələrin çirkin niyyətlərinə son qoymaq məqsədilə uğurla reallaşdırdı:

"Nəticədə biz suverenliyimizi, azadlığımızı və ərazi bütövlüyümüzü bərpa etdik. Dünya isə bu prosesin həyata keçirilməsindən sonra yeni reallıqları qəbul etməyə məcbur qaldı və bunun fonunda yeni geosiyasi münasibətlərin formalaşması ortaya çıxdı.



Azərbaycan xalqı, Ordumuz və diplomatiyamızın birliyi sayəsində hərbi, diplomatik və strateji üstünlük əldə edərək tarixi həqiqətlərə qarşı çıxan, tarixi saxtalaşdırmağa çalışan, ədalətsiz və haqsız mövqeləri dəstəkləyən bu toplum düşüncəyə bütün bu addımları ilə ciddi bir siyasi şapalaq vurdu. Qazanılmış bu tarixi dəyərin əhəmiyyətini qiymətləndirməyi bacarmayanlar isə, yumşaq desək, siyasi avaralardır. Artıq bu çevrələrin mövqeləri mövcud siyasi reallıqlarla uzlaşmır və onların bugünkü reallıqlara uyğun davranış nümayiş etdirə bilməməsi açıq şəkildə görünür. Davranışlarını tənzimləyə bilməyərək səmərəsiz və dövlət əleyhinə yönəlmiş fəaliyyətlərin qarşısının alınması məqsədilə konkret addımlar atılır və bu addımlar Azərbaycan xalqı tərəfindən dəstəklənir".

**Vasif ƏLİHÜSEYN**

# DTX Rusiya-Ukrayna müharibəsində iştirak edən daha 4 nəfəri həbs etdi

**Rusiya və Ukrayna arasında davam edən hərbi əməliyyatlarda iştirak etmiş Azərbaycan Respublikasının vətəndaşları məsuliyyətə cəlb olunmuşlar.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin tərkibində ölkə hüdudlarından kənarda hərbi münaqişələrdə iştirak edən Azərbaycan Respublikası vətəndaşlarının müəyyən edilərək hüquqi məsuliyyətə cəlb olunmaları istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən əməliyyat-istintaq tədbirləri həyata keçirilir. Əldə olunmuş məlumatlara əsasən, ötən müddət ərzində Rusiya və Ukrayna arasında davam edən hərbi əməliyyatlarda xeyli sayda Azərbaycan Respublikası vətəndaşı iştirak edərək həlak olmuş, itkin düşmüş və ya yaralanmış,




bəzilərinin isə əsirlikdə saxlanıldıqları təsbit edilmişdir. Aparılmış araşdırmalarla Azərbaycan Respublikasının vətəndaşları - 1991-ci il təvəllüdlü Nəbiyev Real Eldəniz oğlu, 1993-cü il təvəllüdlü Hüseynov Faris Famil oğlu, 1994-cü il təvəllüdlü Məmmədov Ali Elnur oğlu və Mirhəşimli Murov Həsən oğlunun Rusiya və Ukrayna silahlı birləşmələrinin nəzarəti altında döyüş əməliyyatlarında iştirak etmələri sübuta yetirildiyindən, həmin şəxslər 2026-cı ilin yanvar ayında saxlanılaraq cinayət məsuliyyətinə cəlb edilmiş və barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

**Bir daha vətəndaşların diqqətinə çatdırılır ki, belə silahlı münaqişələrdə iştirak etmək Azərbaycan Respublikasında cinayət məsuliyyəti yaradır və bundan sonra da xarici dövlətlərin ərazisində müvafiq cinayət əməllərinə yol verən şəxslərin məsuliyyət məsələsi qanunauyğun şəkildə təmin ediləcəkdir.**

# «Azərbaycan xalqının ən böyük düşməni özəl televiziyalardır...»

**Efirlərimizdə ayaq açıb yeriyən sosial verilişlərdə artıq biabırbçılıq baş alıb gedir. Başqa kişiyə qoşulub evdən qaçan qadın uşaqlarından imtina edir, digər bir hamilə qadın övladının hansı kişidən olduğunu bilmir, DNT tələb edir, başqa birisi Bakıda yaşamaq iddiasına düşür və sair. Görünən odur ki, vəziyyət çox acınacaqlıdır.**

Mövzuyla bağlı Adalet.az-a danışan Sağlam Cəmiyyət Hərakatının rəhbəri, sosioloq Elçin Bayramlı bildirdi ki, özəl kanallardakı bu cür verilişlərdə mənəviyyatsızlıq, əxlaqsızlıq təbliğatı açıq şəkildə aparılır.

Onun sözlərinə görə, burda əsas məqsəd dünyanın ən əxlaqlı, mənəviyyatlı xalqı olan Azərbaycan xalqını mənəvi cəhətdən tam şəkildə çökdürməkdir:

"Məqsəd ailə institutunu dağıtmaq, zombiləşdirmək, əxlaqsızlaşdırmaq, bütün milli-mənəvi dəyrlərini məhv etməkdir. Bununla bağlı qlobal qüvvələrin çox sayda doktrinaları var, şərq, xüsusən də müsəlman ölkələrində mənəvi dəyərləri çökdürüb məhv etmək üçün bu istiqamətlə yüz



milyardlarla pullar ayrılır. Öz ətraflarında olan şəxslərə də bunun üçün qrant ayırırlar. Bu şəxslər qlobal mərkəzlərə xidmət edir, Azərbaycan xalqının mənəvi cəhətdən məhv edilməsi üçün əllərindən gələn hər şeyi edirlər".

Sosioloq deyib ki, Azərbaycan xalqının ən böyük düşməni özəl televiziyalardır:

"Bu günki mənəvi deqradasiyanın, mənəvi psixoloji problemlərin istisnasız olaraq hamısının səbəbkarı yalnız və yalnız özəl televiziyalardır. Bütün prosesləri bu televiziyalar vasitəsi ilə apardılar. İyrəncklikləri, murdarlıqları adiləşdirdilər, qadınları əxlaqsızlaşdırmaq, uşaqları tərbiyəsizləşdirmək, ailələri dağıtmaq, kriminaldan tutmuş, hər şeyi açıq şəkildə təbliğ etmək. Azadlıq, demokratiya deyərək açıq şəkildə bu fəaliyyəti göstərirlər".

E.Bayramlı bildirib ki, dövlət televiziyalarında belə hallar bir dəfə də olmur: "Bu kanallar yalnız vətənpərvərlik, milli-mənəvi dəyərlər, tariximiz, ədəbi-bədii verilişlər yayımlayırlar. Bu telekanallarda küçə uşaqlarına rast gəlməzsiniz.

Demək yalnız və yalnız özəl televiziyalar vasitəsi ilə bu təbliğatı aparırlar. Düzdü, sonradan da buna internet televiziyaları da əlavə olundu. Ona görə də həmişə təklif etmişəm ki, Azərbaycanda özəl televiziyalar ləğv edilməlidir və dövlət balansına keçirilməlidir. Başqa əlac yoxdur. Bu xalqın xilası üçün yol ancaq budur. Ümumiyyətlə, bütün media birbaşa dövlət nəzarətində olmalıdır. Bunun başqa yolu yoxdur".

**Vasif ƏLİHÜSEYN**

# "Bu yanaşma gələcəkdə digər tərəfdaş ölkələr üçün də..."

**"Avropa İttifaqı və Hindistan arasında sərbəst ticarət anlaşması üzrə sənəd imzalanıb. Bu razılaşma "bütün dövrlərin ən böyük razılaşması" kimi xarakterizə edilir. Bu razılaşma çərçivəsində əsasən malların sərhəddən keçidi zamanı tətbiq olunan gömrük rüsumlarının mərhələli şəkildə 90 %-dək azaldılması, gömrük prosedurlarının sadələşdirilməsi, texniki, sanitar və fitosanitar tələblərin uyğunlaşdırılması, eləcə də ticarətdə vaxt və xərclərin azaldılması nəzərdə tutulur".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, vergi məsələsinə gəldikdə, hər bir tərəf öz milli vergi siyasətini olduğu kimi saxlayır:




"Bu əksər istiqamətlərdə, xüsusilə, maşın-mexanika, tekstil, alkoqollu içkilər və farmasevtik məhsulların ixracında hər iki tərəf üçün bazar imkanlarını genişləndirəcək. Yəni sektorlar üzrə tariflər demək olar ki, tamamilə azaldılır. Bu da ticarət həcmini artıracaq və hər iki tərəfin şirkətlərinə daha sərbəst bazar imkanları verəcək. Bu sənəd təxminən 2 milyard insanı və qlobal ÜDM-nin 25%ni əhatə edən dünya səviyyəsində böyük iqtisasi bir inteqrasiya şəbəkəsinin qurulması məqsədini daşıyır. Bu razılaşma təxminən 20 illik danışıqlardan sonra, yəni çox uzunmüddətli prosesin sonunda gəlinən bir zirvə nöqtəsidir".

İqtisadçının sözlərinə görə, razılaşma həm də geosiyasi səbəblərdən vacib sayılır:

"Çünki ABŞ və Çin kimi ölkələrlə ticarət gərginliyi artdığı bir dövrdə Aİ və Hindistan bir-biri ilə daha yaxın iqtisadi əməkdaşlıq qurur. Burada ən diqqət cəlb edən məsələlərdən biri isə odur ki, bu razılaşma Avropa İttifaqının uzun illər tətbiq etdiyi yaşıl tələblər, ekoloji normalar, məhsul keyfiyyəti və qida təhlükəsizliyi üzrə yüksək standartlara yanaşmasında da müəyyən yumşalma yaradır.

Qlobal təchizat zəncirlərində risklərin artdığı bir dövrdə Aİ üçün artıq yalnız ideal standartlar deyil, bazarın fasiləsiz və sabit təmin olunması daha ön plana çıxır. Bu yanaşma gələcəkdə digər tərəfdaş ölkələr üçün də presedent yarada bilər. Hazırda bu razılaşma hələ rəsmi qüvvəyə minməyib. Bunun üçün Aİ Parlamentinin, Aİ Şurasının və Hindistanın milli qanunvericilərinin təsdiqi tələb olunur.Buna görə hüquqi baxımdan tam qüvvəyə minməsi ən tez 2027-ə doğru gözlənilir".

**Sübhan**

Səxavət Məmməd



# Totux-motux vətənpərvərlər dövrü

**İllər öncə Bakının rayonlarının birində 13-14 yaşında totux-motux bir uşaq vardı. Tez-tez Səfərbərlik Xidmətinə gedərdi ki, onu əsgər aparsınlar. Bu totux-motux uşaq bunu o qədər təkrar etdi ki, hətta hərbi-vətənpərvərlik tədbirlərinə onu dəvət edir, başqalarına misal çəkirdilər. O uşaq hətta zallarda camaatın qarşısında alovlu çıxışlar da edirdi. Ay keçdi, il dolandı, bu uşağın 18 yaşı tamam oldu. Ancaq həmin vaxt uşağı tapmadılar xidmətə göndərməyə. İllər sonra xaricdən Azərbaycana qayıdanda "qulaqlayıb" əsgərə apardılar.**

**44 günlük müharibədən əvvəl də, müharibə vaxtı da sosial şəbəkələri "yandıran", yeri-göyü dağıdan bir adam vardı. Müharibənin ortasında zəng etdi ki: "Qaqa, qardaşım oğlu əsgərlikdədir, onu arxa cəbhədə saxlamağa kömək edə bilərsən?". Dedim: "Yox, kimdən əskikdir ki?".**

**İndi sosial şəbəkələrdə bəzi jurnalistlərin, ekspertlərin yazıları, çıxışları qarşıma çıxır. Gözümün qabağına o totux-motux uşaqlar, sosial şəbəkəni dağıdan "vətənpərvərlər" gəlir. Ümumiyyətlə, əvvəllər özünə "vətənpərvər" deyən adamlardan qorxurdumsa, indi bu siyahıya addımbaşı "dövlətimi sevirəm", "dövlətimin yanındayam" deyənlər də əlavə olunub. Özünə "vətənpərvər" deyənlər yuxarıdakı totux-motuxlardısa, "dövlətin yanındayam" deyənlərin çoxu alverçidir. Ticarətçi yox ha, bildiyimiz alverçi! Ticarətçi böyük iş qurar, strateji düşünər, təkcə özünün deyil, özündən sonrakıların da həyatını sığortalamağa çalışar. Bu alverçilər isə situativ düşünənlərdir; onlar üçün bu gün var, sabah nə olar-olar. Əsas odur girməyə yer olsun.**

**İranla ABŞ arasında gərginlik var. Bunun adını "gərginlik" qoysaq da, əslində bu, bir psixoloji müharibədir. ABŞ İrana qarşı, İran isə ABŞ-nin regiondakı ortaqlarına qarşı bu müharibəni aparır. ABŞ İranı vuracaq, ya vurmayacaq - bunu yaşayıb görəcəyik. Amma Azərbaycanda bir çoxları sanki təkbaşına İrana, Rusiyaya qarşı mübarizə aparırmış kimi imic yaradıb. İranda rejim dəyişikliyi istəyirlər, oradakı azərbaycanlıların azad olmadığını deyirlər, "Rusiya işğalçıdır, parçalanmalıdır" deyə hayqırırlar. Bu adamlara sual verəndə ki - "ay danabaş" deyə bilməyəcəm, qanunlar təhqiri qadağan edir - ona görə də, ay başı standartlardan böyük, məgər ABŞ eyni işi görmür? İndi insan hüquqlarından dəm vuran Avropa ölkələri vaxtilə eyni əməlləri etmirdi? İndi kimsə elə hesab edəcək ki, mən İran və ya Rusiya sevdalısıyam, yaxud soruşacaqlar ki, "sən nə istəyirsən?". Mənim üçün İran da, Rusiya da, ABŞ də, Avropa İttifaqı da, İsrail də mahiyyətcə eynidir. Nə? Durub indi fahişələri kateqoriyalara ayıracam? Mən nə istəyirəm? Özün ol, güclən, güclü ol...**

**Baxırsan jurnalistdir, ən azından fikrini yazılı və ya şifahi ifadə edə bilir. Dünənə qədər "gül kimi" qadın-kişi münasibətlərindən, sevgidən, bakirəlikdən, "oğru dünyasından", masturbasiyadan-zaddan yazırdı, indi İran-ABŞ gərginliyindən vurub, Rusiya-Ukrayna müharibəsindən çıxır. Politoloq və ekspertlərimiz də həmçinin. Bəzən deyirlər ki, ölkədə çoxlu sayda politoloq, ekspert, jurnalist var. Vallah-billah, çox deyil, əksinə, azdır. Bu ölkədə ixtisaslaşmış mətbuat, jurnalist və ekspert nəinki azdır, yox dərəcəsindədir. Özünü İran və ya Rusiya mütəxəssisi kimi qələmə verənlərin hamısı şüarçılıqdan başqa bir iş görmür.**

**Hər kəsin yazdığına, danışdığına o yerə qədər hörmətlə yanaşıram ki, sadəcə fikrini ifadə etsin. Amma nə vaxt ki, ağıl verməyə, "mənim kimi düşünün" deməyə başlayır, o adamın ən yaxınım olsa belə, gözümdə bir qəpiklik dəyəri qalmır.**

**Bunları niyə yazıram? Bu yaxınlarda bir dostumla oturub Azərbaycanda, Gürcüstanda və Ermənistanda beyin mərkəzlərinin (think-tank) sayını, fəaliyyət istiqamətlərini və ortaya qoyduqları işləri araşdırdıq. Vəziyyət mən deyim gülməli, siz deyin ağlamalı... Hansısa beyin mərkəzinin nümayəndəsi deyəcək ki, "biz böyük işlər görürük, sadəcə ictimaiyyətə açıqlamırıq". Öz aləmlərində bir gizlilik, bir sirr pərdəsi yaradırlar. Guya dövlətə hansısa formada "iş" verirlər. Belə yerdə təhqir, söyüş nə gedərdi...**

**İran məsələsində Azərbaycan dövlətinin mövqeyinə baxıram: son dərəcə soyuqqanlı, ehtiyatlı və sakit siyasət yürüdülər. Bu o deməkdir ki, dövlət vəziyyəti anlayır, prosesin nə qədər ağır və zərərli ola biləcəyinin fərqindədir. Hesab edirəm ki, cəmiyyətin də soyuqqanlı təhlillərə, analizlərə ehtiyacı var. Şüarçılıq heç nə qazandırmayacaq!**

**Amma baxırsan ki, bəzi jurnalistlər, politoloqlar bekar qalan kimi Elçibəyi təhqir edir, aşağılayır, amma İran məsələsində elə Elçibəyin dili ilə danışırlar. Nə həyasız adamlarsınız!**

**O gün qarşıma bir video çıxıb; Xalq Cəbhəsinin tanınmış simaları debat edir. Ağızlarına gələni danışır, bir-birinə dişlərinin dibindən çıxanı "yapışdırırlar". Bu adamlar sonra da çıxıb deyirlər ki, "SSRİ-ni biz dağıtdıq", "İranı da dağıdacağıq". Əəə, bu ağılla, bu mədəniyyətlə, bu düşüklüklə sən SSRİ dağıda bilərdin?**

**Dünyanın ən mürəkkəb regionlarından birindəyik. Şimalımız Ukrayna ilə müharibədə, cənubumuz ABŞ ilə ölüm-dirim savaşında, cənub-qərbimiz Suriya bataqlığında... Bizimkilər isə oturub dövlət parçalayır, yeni dövlətlər qururlar. Əcəb edirsiniz! Topun yox, topxanan yox, ideologiyan yox, cəlbediciliyin yox, neft-qazdan başqa heç nəyin yoxdur; təşkilatlanmamısan, infrastrukturun yoxdur. Adama deməzlər ki, çarə bilirsənsə, öz başına çək? Dağıtdığın yerlərə nə transfer edəcəksən? Problem?**



**Rüstəm Hacıyev**

## İran hədəfdədir? Tramp nə etmək istəyir?...

*Amerikada həm daxili, həm də xarici vəziyyət getdikcə qızışmağa doğru gedir. Ölkə daxilində kütləvi küçə yürüşləri zorakılığa məruz qalır, Minnesotada prezident Trampa qarşı ittihamlar artmaqdadır. Donald Teamp həm daxili, həm də xarici mübaruzələr burulğanınları qarşısında çətinliklərlə üzləşməkdədir.*

*Amerikan telekanalarına ibansaq, ABŞ-ln İrana zərbə endirməsi an məsələsidir. Lakin, Kremlin informasiya məkanında olduğu kimi, Ağ Evində informasiya məkanı da, feyk xəbərlər paylaşmaqla vəziyyəti gərginləşdirməklə cəmiyyətin fikirlərini qarışdırmaqla məşğul ola bilərlər.*

*Prezident Dinald Tramp hələ ki, həm bəyənatları, həm də hərəkətləriylə İrana qarşı təyziqlərini gücləndirir. Rəsmi Vaşinqton İranın nüvə razlaşmasından imtina edıcəkləri və etirazçıları qətlə yetirməkdən geri çəkilməyəcəyi halda, İranaın obyektlərinə zərbələr etmək imkanlarını nəzərdən keçirir.*

*Ekspertlərin fikirincə, Donald Tramp "bulduzer diplomatiyasl" aparır. Belə ki, həm kimlərinsə üstünə gedə bilir, həm də geri çəkilə bilir. Rusiya-Ukrayna müharibəsində onun bu "diplomatiyası"nın dəfələrlə irəli getdiyinin-sonra isə vəziyyətdən asılı olaraq, geri çəkildiyinin şahidi olmuşuq. Gah Putinin "yaxşı oğlan" olduğunu bəyan edir, gah da, Putinin "pis oğlan" olduğunu, müharibəni bitirmık istəmədiyini bəyan edir.*

*"İranı nüvə proqramı üzrə razılaşmaya getməyə məcbur etmək olar. Onlar buna getməlidirlər, amma bilmirəm gedəcəklərmi? Onlar biznən danışıqlar aparırlar, özüdə ciddi danışıqlar aparırlar"-deyə amerikan lider bildirir.*

*Digər tıtəfdən isə, ABŞ artlq İran ətrafına ciddi hərbi qüvvə toplaylb və tiplamaqda davam edir.*

*Səudiyyə Ərəbistanında və Birləşmiş Ərəb Əmirlikləri ABŞ-ın İranla bağlı konkret planları barədə tam məlumata malik olmsmsları narahat edir. Onlar on illər əvvəl ABŞ-ın İraqa necə "xoşbəxtlik, firəvanlıq" gətirdiklərinin şahidi olublar. İraq ABŞ-ın gətirdiyi "xoşbəxtliyin" yolunda miyonlarla vətəndaşını itirdi, indidə cəfalət içində boğulur.*

*Yaxın Şərq ölkələri aydın şəkildə başa düşürlər ki, İran münaqişəsi yeni böyük müharibə ocağı yaradacaq. "Fox News" yazlr ki, "ABŞ hətta Yaxın Şərqdıki müttəfiqləri ilə də, İranla bağlı məqsədlərini və planlarlnı bölüşmür". Səudiyyə Ərıbistanı bəyan edib ki, müharibə başlayarsa, heç kimə hava məkanlarlndan istifadı etməyə imkan verməyəcək.*

*ABŞ prezidenti Səudiyyə Ərıbistanının bəyənatlna cavab olaraq bildirib ki, "bizim kimsənin köməyinə ehtitaclmız yoxdur. Hazırda İran istiqamətinə böyük dəniz donanması armadamız irəliləyir. Bu Venesuela istiqamətinə göndərdiyiniz hərbi dəniz qüvvələrindən dəfələrlə çoxdur. Əgər razılaşma əldə olunarsa, yaxşı olacaq, əldə olunmasa isə, onda nə olacağını görəcəyik".*

*ABŞ prezidenti yəqin bilir ki, İran Venesuela deyil. İran yüzilliklər ərzində coxsaylı müharibələr görmüş köklü tarixə məxsus bir dövlətdir. Yəni İranı bir neçə saata, hətta bir neçə aya, bəlkədə ilə ram etmək mümkün olmayacaq...*

*Allah özü günahsız insanları qandan-bəladan hifz edləsin, şeytan əməllərundən qorusun...*

## Müşfiq Abbasov: “O hadisədən sonra "cola" içməyə son qoydum”




**”Bakı şəhər prokurorluğunda işləyəndə Xırdalanda qəribə bir hadisə olmuşdu. Belə ki, həmin ərazidə yerləşən ”Cola” şirkətlərindən birinin zavodunda çənlərdən biri partlamışdı. Bu çəndə içkinin tərkibinə vurulan qaz yerləşirdi. Tənzimləmə mexanizmi işə düşmədiyinə görə çəndə təzyiq çoxalmış və necə partlamışdısa çən 2 km-dən çox havada uçaraq Bakı-Sumqayıt yolunun üstündən keçib yaşayış evlərindən birinə çırpılmışdı. Yaxşı ki, xəsarət filan yox idi”.**

Adalet.az xəbər verir ki, bunu hüquqşunas Müşfiq Abbasov deyib. O, bildirib ki, işlə tanış olmaq üçün zavodun ərazisinə daxil olanda dəhşətə gəlib:

”Gördüyüm mənzərə məni dəhşətə gətirdi. Hər yer çirkab, ”cola”nın plasmas qablarının yuyulduğu su çəninin içərisi biabırçılıq idi. Təsəvvür edin suyun rəngi palçıqdan heç fərqlənmir. Zavodun divarları dibində qaçan siçanlar ”cola” qablarının üstündən keçib gedir. Həmin günədək bəzən mən də cola içirdim. Amma həmin gün gördüyüm mənzərə ”cola”ya birdəfəlik son qoymağıma gətirib çıxardı. İndi bəzən oğlum məndən gizli cola sifariş verir. Bu mətni yazıram ki oğlum da oxusun və siz də uşaqlarınıza göndərin. Onlara izah edin ki, içdikləri colanın içərisində siçan qığına qədər var. İndi özünüz baxın”.

**Eldar**

# "Paşinyan Saakaşvilinin səhvini təkrarlamadı..."

**”Mixail Saakaşvilinin səhvi demokratiya deyib, hakimiyyəti Rusiyanın adamına təhvil verməsi idi. Demokratik prinsiplərin tətbiqi regional xüsusiyyətlər, tarixi təcrübə və cəmiyyətin siyasi mədəniyyəti nəzərə alınmaqla həyata keçirildikdə daha uğurlu nəticə verir. Əks halda, bu prinsiplərin mexaniki şəkildə ixracı müxtəlif problemlərə, hətta xalqların daha ağır vəziyyətlə üzləşməsinə səbəb olur. ”Ərəb baharı” adlanan proseslər bunun bariz nümunəsidir: bu etiraz dalğası heç bir ərəb ölkəsində dayanıqlı demokratiya formalaşdıra bilmədi”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O, deyib ki, ölkənin yerləşdiyi coğrafiya və ictimai mentalitet mütləq şəkildə nəzərə alınmalıdır:

”Cənubi Qafqazda bu baxımdan Gürcüstan nümunəsi xüsusilə diqqətçəkəndir. Mixail Saakaşvilinin ən böyük



səhvi hakimiyyəti ”demokratiya” prinsipi adı altında Rusiyaya bağlı oliqarx Bidzina İvanişviliyə təhvil verməsi oldu. Prinsip etibarilə Saakaşvili demokratik ənənələrə uyğun addım atdı və hesab edirdi ki, Gürcüstana demokratiyanı gətirib, hakimiyyəti dinc yolla ötürməklə ölkənin inkişafına töhfə verəcək. Lakin proseslər tam əks istiqamətdə inkişaf etdi. Çünki gürcü cəmiyyəti demokratik ənənələri hələ tam mənimsəməmişdi və Rusiya Gürcüstanda demokratik proseslərin dərinləşməsini qəbul etmirdi. Nəticədə bu gün Saakaşvili hakimiyyəti demokratik yolla təhvil verdiyi ”Gürcü Arzusu” partiyası tərəfindən həbs edilib. Gürcüstan isə demokratik dəyərlərdən uzaqlaşaraq Qərblə münasibətləri ciddi şəkildə zəiflədib”.

Onun sözlərinə görə, hazırda ölkə Rusiya ilə münasibətləri inkişaf etdirir:

”Gürcüstan limanları Rusiyanın kölgə donanmasına xidmət edir, iki ölkə arasında iqtisadi əlaqələr genişlənir. Eyni zamanda, vətəndaş cəmiyyəti institutlarının və siyasi partiyaların fəaliyyəti hökumət tərəfindən getdikcə daha çox məhdudlaşdırılır”.

M.Əsədullazadə bildirib ki, Ermənistan nümunəsinə baxdıqda isə oxşar risklər müşahidə olunur:

”Əgər Nikol Paşinyan seçkilərdə uduzarsa və demokratik ənənələrdən uzaq olan erməni cəmiyyəti Robert Köçəryan və ya Rusiyaya bağlı digər siyasi fiqurlara səs verərsə, Paşinyanın hakimiyyəti ”azad seçki” adı ilə təhvil verməsi ölkənin növbəti mərhələdə müstəqilliyini itirərək Rusiyanın forpostuna çevrilməsi ilə nəticələnə bilər.

Region xalqları hələ də demokratik prosesləri sistemli şəkildə mənimsəməyib. Bu baxımdan Paşinyan Saakaşvilinin səhvini təkrarlamadı. Rusiyanın göndərdiyi Samvel Karapetyanı həbs edərək onun siyasi fəaliyyətinin qarşısını aldı. Əgər Saakaşvili vaxtında Rusiyanın göndərdiyi oliqarx Bidzina İvanişvilinin fəaliyyətinə imkan verməsəydi, Gürcüstanda demokratik ənənələrin inkişafı daha real olardı.Qeyd edim ki,Cənubi Qafqaz üçün demokratiya idarəolunan və təhlükəsizlik amillərini nəzərə alan model əsasında formalaşdırılmalıdır. Rusiya və İranın regiondakı destruktiv siyasi fəaliyyətinə yol verilməməli, demokratik institutlar xarici təsirdən qorunmalıdır”.

**Sübhan**

# «Böyük Britaniya Çinlə iqtisadi əməkdaşlıqdan faydalanmaq istəyir...»

**”Böyük Britaniyanın Baş naziri Kir Starmer Çinə rəsmi səfəri çərçivəsində Pekində bu ölkənin lideri Si Cinpinlə görüşüb. İki lider arasındakı görüş 40 dəqiqə çəkib. Bu, Böyük Britaniya baş nazirinin son səkkiz il ərzində Çinə ilk rəsmi səfəridir. Pekində iki ölkə arasında münasibətlərin inkişafı və beynəlxalq məsələlər müzakirə olunub.”The Guardian” nəşrində yayımlanan məqalədə Donald Trampın prezidentliyi dönəmində Böyük Britaniyanın ABŞ ilə münasibətlərdə sualların yarandığı şəraitdə Londonun alternativ istiqamətlərə önəm verdiyi vurğulanıb”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, Kir Starmer Pekinə yola düşərkən təyyarədə verdiyi açıqlamada, iki ölkə arasındakı münasibətlərə aydınlıq gətirmək istədiyini deyib:



”Bu o deməkdir ki, Londonla Pekin arasında münasibətlərdə bir qisim suallar var. Elə Kir Starmerin özü əvvəlki açıqlamalarında Çin Xalq Respublikasını Böyük Britaniyanın milli təhlükəsizliyi üçün ”real təhdid” adlandırmışdı. Baş nazir London ilə Pekin arasında sabit və davamlı münasibətlərin olmamasını tənqid etmişdi. Buna baxmayaraq, Böyük Britaniya Çinlə iqtisadi əməkdaşlıqdan faydalanmaq istəyir. Halbuki, Böyük Britaniya Çinin əsas 10 ticarət tərəfdaşı arasında yer almır. Çünki, Pekin Londonu Vaşinqtonun satelliti kimi dəyərləndirir. Təsadüfi deyil ki, Kir Starmerin Çinə səfərini Böyük Britaniyada tənqid edənlər də az deyil.

Mühafizəkarlar Partiyasının üzvləri Çinin Böyük Britaniyada xəfiyyə şəbəkəsi qurduğunu və xəfiyyələrin hətta Böyük Britaniya parlamentinə nüfuz etdiklərini vurğulayaraq, belə şəraitdə baş nazirin Pekinə səfərini doğru hesab etməyiblər”.

E.Şahinoğlu deyib ki, Kir Starmer bu ittihamlara cavab olaraq Pekindəki görüşlərdə Çində insan haqları mövzusuna da diqqət yetirəcəyini bildirib: ”Misal üçün Starmer deyib ki, Honkonqda həbs olunan media maqnatı Cimmi Layın azad olunmasına çalışacaq. Demokratiya tərəfdarı kimi tanınan 78 yaşlı Cimmi Lay Honkonqda milli təhlükəsizlik ittihamları ilə mühakimə olunub. Kir Starmerin bir səfərlə iki ölkə arasındakı suallara aydınlıq gətirəcəyini söyləmək çətindir. London Vaşinqtonla münasibətlərdə yaranan suallara rəğmən, Çini ABŞ-yə dəyişməyəcək. Buna baxmayaraq, Starmerin söylədiyi kimi, Böyük Britaniya - Çin münasibətlərə aydınlıq gətirməyə ehtiyac var”.

**Vasif ƏLİHÜSEYN**

# Ədalət Verdiyev: “İranın məqsədi başqa iştirakçı dövlətləri də...”

**”Çinin iki çox məqsədli esminesi İran və Rusiya ilə birgə təlimlərdə iştirak etmək üçün Oman dənizi istiqamətində hərəkət edir. İranın əsas məqsədi bu təlimlər ilə başqa iştirakçı ölkələri də münaqişəyə cəlb etməkdən ibarətdir. Rusiya və Çin isə İrana görə ABŞ ilə savaşmaq niyyətində deyil”.**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib.

O, bildirib ki, təlimlər müttəfiqlik münasibətlərini nümayiş etdirir, amma real olaraq ABŞ-ni narahat etmir:



”İran Türkiyə, Qətər və Azərbaycan tərəfindən verilən təkliflərə diqqətlə yanaşmalıdır, bu təlimlərdən də imtina etməlidir, başqalarını da özü ilə cəhənnəmə yoldaş olaraq sürükləməli deyil. İran mollasının bu dünyada kimsəyə xeyiri dəyməyib. Yəqin ki, o biri dünyada da belə olacaq. ABŞ Suriya ərazisindən İraq Kurdustanına, yəni İrana daha yaxın ərazilərə zirehli texnika və quru qoşunları cəmləşdirir. Bununla da ABŞ İrana havadan, dənizdən və qurudan paralel şəkildə hücum etmək planlarını aşkar şəkildə nümayiş etdirir. Gərginlik artır, İran hələlik geri addım atmır. Tehran əhalisinin 10 faizi üçün sığınacaq hazırlanıb. 83 metro stansiyası bundan artığını yerləşdirə bilməz. Ümumilikdə Təhdid Dövrü davam edir. ABŞ müharibəyə hazırlıq mərhələsini başa çatdırmaq üzrədir. İrana hücum mülki əhalini hədəf almamaq şərtilə, qısa müddətdə, amma hər istiqamətdən yüksək intensivliklə və dəqiq zərbələrlə bir neçə gün davam edəcəyi gözlənilir. İlk zərbə dalğası dənizdən Tomoqavk raketləri ilə başlayacaq, HHM vasitələri sıradan çıxarılandan sonra qırıcılar hava məkanında sərbəst şəkildə vəzifələrini yerinə yetirəcəklər. Bu mərhələdə İran geri addım atmağa məcbur olacaq”.

**Vasif**



*Məzahir ƏHMƏDOĞLU*

# GƏNCLİYİMİZ – PROBLEMSİZ GƏLƏCƏYİMİZ...

**Bir neçə il bundan əvvəl ictimaiyyətin diqqəti çox ciddi məsələyə yönəldildi. Televiziya və mətbuat yeniyetmələrin, orta məktəb şagirdlərinin bir çox hallarda ,hətta dərs zamanı internet klublarında və digər məkanlarda vaxt keçirmələrini məktəb-şagird-valideyn müstəvisində çözməyə cəhd göstərdi.O vaxtlar hər evdə , hər yerdə internet olmurdu.Daha sonra bu məqsədlə telereydlər təşkil edildi, polisin də köməyinə ehtiyac duyuldu, müəyyən məhdudiyyətlər və qadağalar qoyuldu. Bakı şəhərindəki vəziyyət xüsusi nəzarətə götürüldü, pedaqoji kollektivlər hərəkətə gətirildi.Bir müddət sonra isə bu mövzu aktuallığını itirdi. Artan internet xidməti və böyüklü-uşaqlı əllərdəki telefonlar xüsusilə yeniyetmə və gəncləri dərsdən , idmandan, kitabdan, qəzetdən-yaxşı nə var hər şeydən uzaqlaşdırmağa başladı.**

**Yeniyetmə və gənclərin təlim-tərbiyəsində, dünyagörüşlərinin formalaşmasında məktəbin rolu və gördüyü işlər təbii ki bu istiqamətdə bütün tələbatı ödəyə bilməzdi. Bu məsələ cəmiyyətin ən həssas çevrəsinin müntəzəm diqqətində qalmalıdır.Yəni, mövsümü xarakter daşımamalıdır.**

**Mən əvvəllər də bu mövzuya üz tutmuşdum.Oxşar situasiyalara müxtəlif yönlərdən müqayisələr və açıqlamalar gətirməklə səbəbləri axtarmağa cəhd etmişdim.Demişdim ki, bu gün cəmiyyətdə müəyyən nigarançılıq doğuran və ya doğurmalı olan məsələlərdən biri də gəncliyin arzulanan fəallıqda görünməməsidir. Yəni, istər orta məktəblərdə, universitetlərdə, istərsə də çoxsaylı işçisi olan kollektivlərdə uşaq və gənclər təşkilatlarının mütəşəkkiliyi müəyyən formallıq çərçivəsindədir. Təbiətsevərliyə, diyarşünaslıq bilgilərinə , kitab müzakirələrinə, disputlara, müxtəlif təntənəli gün və bayramların gerçək iştirakçılılığına coşğu və entuziazm istənilən səviyyədə deyil. Pərakəndəlik və ayrı-ayrı tədbirlərin uğurları ümumi istiqamətlərdə bütünləşə bilmir.**

**Deyək ki, SSRİ -nin süqutu ilə yanaşı, pioner və komsomol təşkilatları,eləcə də o dövrlərdə müəyyən funksiyalara malik analoji qurumlar da ləğv edildi.Ancaq həmin təşkilatların bazasında başqa adlarla yeniləri yarandı axı.Onların formalaşmasına, cəmiyyətdəki aktivliyinə onillərmi gərəkdir?**

**Burada nə etsən də dönüb geriyə baxmaq zərurəti yaranır.Yəni, o vaxtlar ideoloji baxımdan qeyri-müəyyən istiqamətin formalaşmasına rəğmən, ümumi bir təntənə , birlik, vətənpərvərlik, lap elə beynəlmiləlçilik prosesi qurultaylarsız və bayramlarsız da qəbul edilib anlaşılırdı. Elə bu təşkilatıarın öz daxilində bir coşqu, bir mütəşəkkillik yaşanırdı. Pioner, komsomol düşərgələrinin, inşaat dəstələrinin nə ziyanı olurdu? Həm də ədalət naminə deməliyik ki, bu birlik , bu vətənpərvərlik isterik faşizm ideyalarından çox-çox uzaq və həm də səmimi idi. Elə bu birliyi və hərəkətliliyi yaradan , formalaşdıran da həmin o gəncliyə, onun tərbiyəsinə yönəldilmiş dövr ideologiyasının iç qatlarındakı müəyyən işıqlı cəhətlər idi.Yəni, bir çox məqamları çıxmaq şərtilə başdan-başa mənfur deyildi. Bu, mürəkkəb ideoloji mexanizmin işıq gələn tərəfi idi. Dövrün çərçivəli ideoloji təbliği, öyrədilməsi ilə yanaşı, gəncliyə əldə edə biləcəyi istənilən ədəbiyyatı oxumaq imkanı da verilmişdi. Gəncliyin əlindən elmi və bədii kitablar düşmürdü.Əksəriyyətin oxuyub öyrənmək , dünyanı dərk etmək istəyi vardı.İndi informasiya mənbələrinin bu qədər açıq və üzdə olduğu zamanda həmin ənənələrin də alt-üst olması ağrılı məsələdir. Demirəm yenidən pioner şeypurları səslənsin, komsomol iclasları keçirilsin. Bütün bunlar bir daha heç xatırlanmayacaq da. Bunların əvəzinə daha üstün və faydalı təlim metodları , funksional tədbir ideyaları, formaları mövcuddur.Ancaq bütün bu məsələlərə eyni ciddiliklə yanaşılırmı? Bir baxın, müasir gəncliyin əsas hissəsi daha çox hansı istiqamətlərə meyillidir?**

**İndi biz ayrı bir ölkəyik. Müstəqil Azərbaycanın müstəqil cəmiyyəti və siyasəti inkişaf etməkdədir. Bəs bu cəmiyyətdə gəncliyimizin mövqeyi nədən ibarətdir? Bu sualı təbii ki, bütün çalarları ilə qavramaq, araşdırmaq çox da asan məsələ deyil. Ancaq üst qatda dayanan bəzi mətləblər var.Bugün Azərabaycan gəncliyinin cəmiyyətin inkişaf yollarında arzuladığımız monolitliyini görüb duymaq mümkündürmü?**

**Vətənpərvərlik, Vətənin, xalqın yolunda şəhid olmaq kimi ali məqamlar, əlbəttə bəşəri keyfiyyətlərdir. Ancaq həyatımız təkcə bundan da ibarət deyil. Məqam yetişəndə bu ,hər bir vətəndaşın qəlbində özünəməxsus oyanış yaradır. Qarabağın azad edilməsində gənclərimizin Ali Baş Komandanın rəhbərliyi ilə göstərdikləri şücaətlər , fantastik döyüş anları xalqımızın birlik və xarakter simvolunu əks etdirdi. Bütün dünyaya öz sözünü deyə bilən belə bir xalqın, belə bir dövlətin gəncləri həyatımızn digər sahələrində də özünü layiqincə göstərməlidir. Unutmayaq ki, müharibə istisna haldır.Bu mənada əlaqədar təşkilat və qurumlar gəncləri həyata təkcə hərbi vətənpərvərlik mövzuları ilə deyil, cəmiyyət üçün hər sahədə faydalı vətəndaş olmağa yönəltməyin yollarını daha mükəmməl forma və metodlarla müəyyənləşdirməlidirlər. İnsan kapitalı amili hər zaman aktual olaraq qalır.**

***P.S.** ... Xüsusi ilə uşaqları, yeniyetmə gəncləri daha çox elə məktəblərdə öyrətmək lazımdır; fənləri də, vətənpərvərliyi də, idmanın, sağlamlığın üstünlüklərini də, insanlığı, dostluğu, bəşəri xüsusiyyətləri də ... Repetitorlar uşaqlara yalnız öz fənlərini valideynlərdən aldıqları pul müqabilində öyrədirlər. Bu, təhsili davam etdirmək üçün müəyyən qədər yetərli olsa da, əsl vətəndaşlıq məktəb və valideyn tandemi ilə formalaşmalıdır. Üstəgəl gənclər təşkilatları, kitabxanalar, muzey və sərgilər, özfəaliyyət dərnəkləri, xüsusi önəm daşıyan disput və görüşlər...*

***Formallıqdan uzaq olmaqla!***

# Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının 2026-cı il üzrə ilk iclası keçirilib

**Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının 2026-cı il üzrə ilk iclası keçirilib.**



Adalet.az xəbər verir ki, Müşahidə Şurasının sədri Dağbəyi İsmayılovun rəhbərliyi ilə keçirilən görüşdə Müşahidə Şurasının üzvləri Vüqar Əliyev, Şəfəq Mehrəliyeva, Sevil Mikayılova, Elçin Şıxlı, Agentliyin İcraçı direktoru Əhməd İsmayılov və İcraçı direktorun müavini Natiq Məmmədli iştirak ediblər.

İclasın gündəliyinə əsasən Medianın İnkişafı Agentliyinin Aparat rəhbəri Rəqsanə Kərimova tərəfindən Agentliyin 2025-ci il üzrə fəaliyyətinə dair hesabat təqdim olunub. Hesabatda media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin və kommunikasiyaya məsul şəxslərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, cəmiyyətin media savadlılığının artırılması istiqamətində həyata keçirilən tədbirlər, həmçinin Agentlik tərəfindən media sahəsində beynəlxalq əlaqələrin qurulması və inkişafı ilə bağlı görülən işlər, təşkil edilən beynəlxalq tədbirlər barədə ətraflı məlumat verilib. Şura üzvləri tərəfindən nizamnaməyə uyğun olaraq icra edilən layihələrin əhatə dairəsinin daha da genişləndirilməsi üçün yeni təkliflər irəli sürülüb, Agentliyin qarşıdakı dövrdə fəaliyyətinin təşkili üçün prioritet istiqamətlər müəyyənləşdirilib.

Daha sonra Agentliyin Maliyyə və təminat departamentinin direktoru Orxan Hümbətzadə qurumun Nizamnaməsinə uyğun olaraq, bütün fəaliyyət istiqamətləri əhatə edilməklə cari il üçün maliyyə planlaşdırması barədə ətraflı məlumat verib, Şura üzvləri tərəfindən 2026-cı il üçün nəzərdə tutulmuş büdcə çərçivəsində vəsaitlərin bölgüsü məqsədəuyğun və qənaətbəxş hesab edilib.

Bununla yanaşı, müzakirələr zamanı media sahəsinin davamlı inkişafını təmin edəcək strateji layihələrin icrası, innovativ yanaşmaların təşviqi və mövcud resurslardan səmərəli istifadə imkanları geniş müzakirə olunub, bu istiqamətlər üzrə fikir mübadiləsi aparılıb.

# "Türkiyənin ABŞ və İran arasında vasitəçilik missiyası müsbət nəticə verə bilər"

**"Türkiyə İran və ABŞ arasında vasitəçilik missiyasını həyata keçirə bilər. Ötən gün Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ Prezidenti Donald Trampla telefon danışığı aparıb. Demək olar ki, Ankara artıq vasitəçiliyə başlayır. Artıq İranın xarici işlər naziri Abbas Araqçinin Türkiyəyə səfəri gözlənilir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloqun sözlərinə görə, bu təmaslar Ankaranın prosesdə aktiv rol almaq niyyətindən xəbər verir: "Hazırda ABŞ və İran öz mövqelərində qalır, tərəflərin geri çəkilmək niyyəti yoxdur. Mövcud vəziyyət bir növ Donald Tramp və Əli Xameneinin şəxsi nüfuz mübarizəsinə çevrilib. Görünür, İran Prezidenti Məsud Pezeşkian Rəcəb Tayyib Ərdoğanla əlaqə saxlayaraq Vaşinqtonla vasitəçilik etməsini xahiş edib. Türkiyənin əsas şərti ondan ibarətdir ki, birinci mərhələdə nüvə proqramı ilə bağlı razılıq əldə olunsun, növbəti mərhələdə isə raket proqramı və digər mübahisəli məsələlər üzrə danışıqlara başlanılsın. Ankara hesab edir ki, mərhələli yanaşma böhranın idarəolunan müstəvidə saxlanılmasına imkan verə bilər".



M.Əsədullazadə deyib ki, Türkiyənin ABŞ və İran arasında vasitəçilik missiyası müsbət nəticə verə bilər:

"İranın xarici işlər nazirinin Türkiyədə aparacağı danışıqlar Tehran ətrafında gedən proseslərə ciddi təsir göstərəcək. Artıq Türkiyə regionda açar ölkə statusunu möhkəmləndirib və İranın mövcud vəziyyətdən çıxmasında həlledici rol oynaya bilər. Əgər İran rəsmiləri məsələlərə praqmatik yanaşarsa, böhran danışıqlar yolu ilə həll edilə bilər. ABŞ-nin əsas tələbi İran rejiminin açılım siyasətinə getməsi və regional ambisiyalarından imtina etməsidir.

Vaşinqtonun strateji planı İranda rejim dəyişikliyini hədəfləsə də, İran hakimiyyəti daxili struktur islahatlarına və davranış dəyişikliyinə gedərsə, hərbi qarşıdurma ən azı təxirə salına bilər".

**Vasif**

# "Düşünürəm ki, kənar maneələr olmazsa, bu informasiya sistemi..."

**"Üç gün əvvəl "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə təsdiq edildi. Açığı, 2-3 gündür ki, oxumağa vaxt tapmırdım. Amma bu gün sona qədər diqqətlə oxudum. Sənəd həcmcə böyükdür, məzmunca isə olduqca stratejidir. Düşünürəm ki, kənar maneələr və təzyiqlər olmazsa, bu sənəd, daha doğrusu bu informasiya sistemi dövlət maliyyə idarəçiliyinin arxitekturasının dəyişə bilər. O ki, qaldı bu sistemin əsas məqamlarına. Qısa desəm, dövlət büdcəsi, dövlət borcu, xəzinədarlıq, investisiya layihələri, inzibati cərimələr, rüsumlar, dövlət müəssisələri, mühasibat uçotu və bu sistemlə əlaqəli nə varsa, hamısı vahid rəqəmsal platformada toplanır".**



Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, sistemdə məlumatlar real vaxt rejimində izlənilir, təhlil edilir və proqnozlaşdırılır:

"Büdcə xərcləri üzrə nəzarət mexanizmi güclənir, "sonradan yoxlama" əvəzinə "icra zamanı monitorinq" yanaşması tətbiq olunur. Eyni zamanda güzəştlərin, azadolmaların, subsidiyaların büdcəyə real təsiri ölçülə bilən olur. Dövlət müəssisələri üzrə maliyyə intizamı və şəffaflıq sistemli şəkildə artırılır. Həmçinin, elektron müqavilə, elektron mühasibat, elektron rüsum və mədaxil mexanizmləri kölgəni daraldır, hesabatlılığı genişləndirir. Məsələnin ən vacib tərəfi isə budur ki, bu Əsasnamə maliyyə dayanıqlığı, şəffaflıq, hesabatlılıq və dövlət vəsaitinə nəzarət baxımından uzun müddətdir danışılan, amma bəzi hissələri parçalı şəkildə tətbiq edilən yanaşmaları vahid sistemə birləşdirir. Əlqərəz, kənar müdaxilələrsiz və texniki-institusional baxımdan düzgün icra edilərsə, bu sistem dövlət maliyyəsinin idarə olunmasında qaydaları dəyişə bilər (kosmetik yox, köklü) . Hansı ki, indiki mərhələdə ölkə üçün məhz belə bir dönüş nöqtəsinə ehtiyac var".

**Ömər**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Usta Zeynal və...

**Allah Mirzə Cəlilə rəhmət eləsin! Onun gözəl hekayələri çoxdur. Və bu gözəl hekayələrdən biri də "Usta Zeynaldır". Bu Usta Zeynal çox yazıq və fağır bir adamdı. Heç kimlə işi yoxdu və başını aşağı salıb öz işini görür. Amma necə? Bax elə əsas məsələ də budur. Dünyanın hər yerindən danışır, dağı arana aparır, aranı da dağa! Zalım oğlu heç bir danışan adama aman vermir.**

**Elə hey üyüdüb tökür. Başı söhbətdən açılanda baxıb görür ki, hörgü üçün hazırlanmış palçıq qupquru quruyub və işə yaramır. Yəni Usta Zeynalın əlindən danışmaqdan başqa bir iş gəlmir. Ona görə də usta kimi o, çörəkpulu da qazana bilmir. Elə indi də elə ustalar var ki, Usta Zeynaldan betərdir və onun ölənlərinə rəhmət oxutdururlar. Çünki Usta Zeynalın əlindən bir iş gəlməsə də, amma yalançı deyildi. İndiki ustaların həm əllərindən bir iş gəlmir, həm də yalançıdırlar. İş başlayır, görürsən ki, bir ay yoxa çıxdılar. Soruşursan ki, niyə gəlib işini görmürsən? Deyir ki, əmim rəhmətə gedib. Yenə gözə dəymir. Bu dəfə də "dayım ölüb", - deyir. Bir həftə yenə "itir". Zarıyır ki, qayınanam dünyasını dəyişib.**

**Bədbəxt oğlu, sənin nəslində adam qalmadı ki, hamısı qırıldı. Görür ki, yalanının üstü açılır, bu dəfə "xozeyni" inandırmaq üçün Allaha, Qurana and içir. "Xozeyni" də deyir ki, Allah da, Quran da yalan danışana qənim olsun! Bax onda o yalançı ustanın sifəti xoruz pipiyi kimi qıpqırmızı olur. Gördükləri iş də bir şeyə yaramır. Mən çox ustalar tanıyıram və siz də az usta tanımırsınız. Yüzünün arasında iki-üçü dürüst ola bilər, qalanları yalançı və bir işə yaramayanlardı. Bəlkə, düz demirəm, dostlar! İşə başlayan kimi qiymət "oxuyur"lar.**

**Müəyyən söhbətdən sonra ortaq bir qiymətlə razılaşırsan və axıra yaxın yenə başqa bir qiymət deyir və səndən əlavə pul istəyir. Bax onda cin adamın təpəsindən vurur. Onu başa salırsan və deyirsən ki, adam sözünün yiyəsi olar. Əvvəl necə danışmışdıq, o qiyməti də al, çıx get! Bax onda yenə Usta Zeynalın nəvəsi susur.**

**Pulu alıb gedir. Bəzi ustalar deyir ki, biz "xozeyinə" iki dəfə qiymət "oxuyuruq". Bir dəfə işin əvvəlində, bir dəfə də işin sonunda! Tutar qatıq, tutmaz ayran! O qədər hərifləddiyimiz adamlar olub. Bax, belə ustalara nə deyəsən? Bu ustalara baxanda Allah Usta Zeynala rəhmət eləsin. O, gül kimi kişi idi, nə qiymət "oxuyur"du, nə də "xozeyni" aldadırdı.**

**Yoxsa, indiki ustalar...**

## "Trampın sözlərinə görə, Hindistan bundan sonra Rusiyadan neft almayacaq..."

**"Nəhayət Vaşinqtonla Dehli arasında razılaşma əldə olundu. Bu razılaşma ticarət və enerji sahəsini əhatə edir. Razılaşmaya əsasən, ABŞ qarşılıqlı rüsumları 25 faizdən 18 faizə endirəcək. Bu haqda ABŞ Prezidenti Donald Tramp "Truth Social" hesabında məlumat verib. Tramp Hindistanın baş naziri Narendra Modi ilə telefonla danışdığını və razılaşma əldə etdiyini yazıb. İki lider ticarət razılaşmasıyla yanaşı Rusiya-Ukrayna müharibəsi barədə də fikir mübadiləsi aparıblar".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. Onun sözlərinə görə, bu mövzu Tramp üçün ona görə vacibdir ki, Ağ Ev sahibi Hindistanın Rusiyadan ucuz neft almasını istəmir: "Donald Trampın sözlərinə görə, Hindistan bundan sonra Rusiyadan neft almayacaq və daha çox nefti ABŞ-dən, mümkün variant kimi isə Venesueladan alacaq. Əgər Hindistan bu vədini yerinə yetirərsə, bu Rusiyanın problemlərini daha da artıracaq. ABŞ Prezidentinin sözlərinə görə, Dehlinin Rusiyadan neft almama qərarı hər həftə minlərlə insanın öldüyü Ukraynada müharibənin başa çatmasına kömək edəcək. Tramp həmçinin bildirib ki, Modi ilə razılaşmaya əsasən, tərəflər gələcəkdə ABŞ-yə qarşı tətbiq olunan tarif və qeyri-tarif maneələrinin "sıfıra" endirilməsi istiqamətində də addımlar atacaqlar. Tramp Dehlinin Vaşinqtonun daha bir istəyini yerinə yetirdiyini yazıb. Onun sözlərinə görə, Hindistan ABŞ-dən energetika, texnologiya, kənd təsərrüfatı məhsulları, kömür və digər mallar da daxil olmaqla ümumilikdə 500 milyard dollardan artıq həcmdə alış etməyi öhdəsinə götürüb.Vaşinqtonla Dehli arasında ticarət mövzusunda danışıqlar Tramp Prezident seçildiyi dönəmdən davam edirdi. Dehli Vaşinqtondan əvvəl Brüsellə ticarət razılaşması əldə etdi". E.Şahinoğlu deyib ki, Hindistan iqtisadiyyatını inkişaf etdirmək, ixracı artırmaq məqsədilə Çindən geri qalmamağa çalışır: "Bu arada, Hindistan hökumətinin 2026-2027-ci illər üçün büdcədə hərbi xərcləri 85.5 milyard dollar nəzərdə tutması da müşahidəçilərin diqqətindən yayınmayıb. Hindistan bu xərclər çərçivəsində hərbi texnika istehsalının və sərhədlərin qorunmasına daha çox diqqət ayırmağı planlaşdırır. Görünür, Hindistan hərbi xərcləri artırmaq qərarı qonşusu Çinin artan hərbi gücü ilə əlaqəlidir. Hindistan bu çərçivədə həm özünün hərbi-sənaye kompleksini genişləndirmək, həm də ABŞ və Avropa ölkələrindən hərbi texnika alışını genişləndirməyi planlaşdırır. Vaşinqtonla Dehli arasında əldə olunan ticarət razılaşması iki ölkə arasında hərbi-texniki əməkdaşlığa da təkan verə bilər".

**Vasif ƏLİHÜSEYN**

## *Altı aydır ki, ət yemirik...*



**Son bir neçə ildə ölkəmizdə dana, qoyun və quzu ətinin qiyməti bir neçə dəfə artıb.Çox uzağa getməyək, elə bir il bundan qabaq dana ətinin bir kilosu 15 manat idi. Və təbii ki, onu da çox adam ala bilərdi.**

Amma indi dana ətinin bir kilosu 17 manat 50 qəpik, quzu əti isə 22 manatdır.Qiymətlər bahalaşdıqca ətin alıcıları da azalır.Bir qəssab xeyir ki, əvvələr hər gün 120-130 kiloqram çəkisi olan dana əti satırdım.Ancaq indi o çəkidə dananı kəsirəm heç 50 kilo ət sata bilmirəm.

Bir dananın ətini 3-4 günə satıram. Çünki alıcılar çox azalıb.Camaatda vallah, pul yoxdu. Bir ailə tanıyıram , altı aydır ki, evlərində ət bişmir.Qabaqlar gəlib, məndən nisyə ət alırdılar.Borcu qaytarmadıqlarına görə tay utandıqlarından gəlmirlər.

Əvvəlki borcların veriblər ey! Sadəcə indi utanıb , nisyə ət almırlar. Düz altı aydır onların evində ət bişirilmir. O günü öyrənmişəm ki, həmin adam imkanlı bir qohumu var, 10 kilo ət alıb onlara verib. Həmin güdən onların evində toy- bayramdır. İmkanlı qohumu deyib ki, qəm eləməyin, hər ay sizin evə ət göndərəcəyəm! Kaş, bütün imkanlı adamlar belə mərhəmətli olaydılar. Bax onda çox adam çətinlik çəkməz, həmişə qazanı qaynayar və balaları doyunca yemək yeyərdilər!!!

## *Bazarlarda satılan yağ...*



**Bu gün biz daha təbii və ekoloji cəhətdən sağlam qidalar axtarırıq, onu da tapmaq o qədər də asan deyil. Belə məhsullardan biri də kərə yağıdır. El dilində demiş olsaq, nehrə yağı! Amma hansı bazara gedirsən deyirlər ki, guya onlar kərə yağı satırlar.**

Evə gətirib, ondan yemək hazırlayırsan və görürsən ki, kərə yağın tamın vermir və üstəlik də başqa bir xoşagəlməz qoxu olur. Qida üzrə ekspert Adil Məmmədov deyir ki, bazarlarda və marketlərdə satılan kərə yağı adı satılan məhsulların əksəriyyəti saxta məhsullardır. Birincisi, həmin yağların sertifikatı olmalıdır. Bununla yanaşı, kərə yağı ilə başqa yağlar rənginə və qoxusuna görə bilinir.

Sadəcə olaraq , onu ayırmağı hər adam bacarmır. Amma buna baxmayaraq, insanların əksəriyyəti yağı alarkən çətinliklə üzləşirlər. Ən yaxşı nəzarət satıcıların vicdanıdır. Əgər vicdan yoxsa, həmin satıcının üstündə yüz nəzarətçi olsa, belə yenə o, istədiyin edəcək. Yəni kərə yağı əvəzinə saxta yolla hazırlanmış məhsul satacaq!!!

## *Mənzil təmir edənlərdən şikayət*

**Yeni mənzil alan hər bir insan istər- istəməz əsaslı təmir işləri aparır. Buna görə də, heç kimi qınamaq da olamaz. Çünki bu onun hala haqqıdır. Təbii ki, ev təmir edilləndə mənzil sahibi mövcud qanunlara əməl etməyə borcludur.**

Yeni mənzil təmir edilərkən vaxt rejiminə riayət edilməlidir.Yəni həftənin birinci günündən beşinci günə kimi, səhər



saat doqquzdan , axşam saat yeddiyə, səkkizə kimi təmir işlərini aparmaq mümkündür. Qanun belə deyir ,ha! Şənbə və bazar günləri isə səs-küy yaradan işlər görməklə sakinləri narahat etmək olmaz. Buna görə, İnzibati Xətalar Məcəlləsində və Mənzil Haqqında Qanunda təmir işləri görən insanların məsuliyyəti nəzərdə tutulub. Ona görə də birmənalı olaraq təmir işləri aparan sakinlər bu qanuna əməl etməlidir! Çox təəssüf ki, qanunu pozan sakin də var, təmir işlərinə maneçilik yaradan adamlar da! Məsələn, bir evini təmir etdirərkən döşəməyə lak vurur, qonşu ondan şikayət edir ki, lakın qoxusu məni narahat edir. Evin qapısı, pəncərəsi bağlı olduğu halda, bu qoxu onun evinə necə gedir? Vallah, bu, bəhanədən və paxıllıqdan başqa bir şey deyil.

Bu, Krılovun " Qurd və quzu" hekayəsini yadımıza salır. Bax, belə evinizi təmir edəndə qanuna əməl edən və paxıl adamların dedi- qoxusuna məhəl qoymayın!!!

## *Köhnə liftlər...*



**İnsanların ən çox əziyyət çəkdiyi xidmət sahələrindən bir liftdir. Xüsusilə də yüksək mərtəbələrdə yaşayanlar lift olmayanda, daha doğrusu, lift işləmiyəndə daha çox əziyyət çəkirlər. Düzdür, yeni tikilmiş çox mərtəbəli binalarda liftlər daha müasir və yenidir.**

Amma bəzən görürsən ki, o liftlər də istismar zamanı sıradan çıxır və bəzən qəza yaranır. Təbii ki, bununda obyektiv və subyektiv səbəbləri var. Gərək hər sakin mövcud qaydalara , təlimatlara əməl eləsin.Bəzən görürsən ki, liftə nəzərdə tutulduğundan artıq sakin minir. Bu da həmin liftin tez sıradan çıxmasına, hətta qəzaya səbəb olur.

Bununla yanaşı ötən əsrin 80- ci illərində tikilmiş binaların liftləri daha təhlükəlidir.

Çünki onların çox istismar müddətini artıq çoxdan başa vurub. Ancaq buna baxmayaraq, yenə ondan istifadə edilir.Belə də olanda o liftlər tez xarab olur.

Bir çox hallarda isə liftə minəndə sakinlər mövcud qaydalar əməl etmir, üç nəfər adam əvəzinə , beşi minir. Nəticədə həmin lift ağır yükə tab gətirməyərək yarıyolda qalır. Hələ bu azmış kimi, elə vaxt olur ki, sakinlər bu liftlərdə ağır əşyalar da aparırlar.

Lakin lift pulun vermək vaxtı gələndə bu borcu ödəməkdən boyun qaçırırlar. Ümumiyyətlə, Bakıda ötən əsrin 80- ci illərdə inşa olunmuş binaların hamısında köhnə liftlər yenilənməlidir! Təəssüf ki, aidiyyəti qurum bunu eləmir, müxtəlif bəhanələr bundan yayınırlar. Bu da son nəticədə liftdən istifadə edən sakinlərin çətinliklə üzləşməsinə və narahatlığına gətirib çıxarır!!!

## *Bir məşhur akademik deyir ki...*



**Müəllifin öz kitabını harda və necə satması heç vaxt qəbahət sayılmayıb və bu gün də qəbahət deyildir.**

Mən bir şair tanıyırdım, kitablarını metro qatarlarında satırdı. Vaqonları bir- bir gəzir, gözləri mobil telefonların ekranlarında olan gənclərə deyirdi ki, telefondan əl çəkməyən cavanlar, bir az da başınızı qaldırıb , mənə baxın, kitabı görün , sizə ondan yaxın dost ola bilməz.

Amma gənclərin heç biri ona məhəl qoymur,heç gözlərinin ucu ilə kitaba baxmırdı. Yenə yaşlı nəslin nümayəndələri ondan kitab alırdılar. Bu yaxınlarda məşhur bir akademik deyib ki, yazıçı, şair öz kitabını küçədə satmamalıdır.Niyə qardaş? İndi çox adam kitab mağazalarına getmir, amma küçədə gedəndə kitab satışını görüb, ayaq saxlayır və ürəyi istədiyi kitabı alır!

**Əsas məsələ odur ki, kimin ürəyi necə istəyir kitabının satışını təşkil edir! Bunun , nəyi pisdi, ay hörmətli akademik???**

**Emil FAİQOĞLU**



# CƏMİYYƏTİN ƏN ÇOX İNANDIĞI VƏ GÜVƏNDİYİ DOĞMA AZƏRBAYCAN POLİSİ

**Respublikamız müstəqillik qazandıqdan sonra bir çox sahələrdə olduğu kimi polisin də fəaliyyətinə xüsusi münasibət göstərilir. Əsas səbəb ondan ibarətdir ki, ictimai asayişin qorunması və cinayətkarlığa qarşı mübarizədə öz fəallığı ilə həmişə diqqət mərkəzində olan Azərbaycan polisi cəmiyyətin ən çox inanıb etibar etdiyi mükəmməl dövlət strukturu kimi indi yeni bir mərhələdədir. Xalqına və dövlətinə sədaqətlə xidmət anlayışı Azərbaycan polisinin həyat amalına çevrilib. Əbəs yerə deyil ki, Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov bütün görüş və çıxışlarında polisin xalqa və dövlətə arxalandığını vurğulayır. Dövlətçiliyə və xalqa xidmətində fədakarlıq nümunəsi göstərən doğma polisimiz ictimaiyyətin rəğbətini məhz bu istiqamətdə əldə etdiyi nailiyyətlərlə möhkəmləndirir.**



Bəli, məhz bu baxımdan Azərbaycan polisi yarandığı ilk günlərdən uzun illər boyu keşməkeşli yol keçərək müasir səviyyəyə çatmışdır. Bir zamanlar ulu öndər Heydər Əliyevin Azərbaycan polisinin gələcəyi barədə söylədiyi inamlı fikirlər özünü ən yaxşı cəhətlərdən doğrultmuşdur. Elə bu səbəbdəndir ki, Azərbaycan Respublikasının Prezidenti , Ali Baş Komandan İlham Əliyev bir sıra çıxışlarında Azərbaycan polisinin fəaliyyətini yüksək qiymətləndirmişdir.

Azərbaycan polisi bugün hörmətli nazirimiz , general polkovnik Vilayət Eyvazovun rəhbərliyi altında cinayətkarlarlığa qarşı mübarizə və asayişin qorunması istiqamətində daha ciddi nəticələr uğrunda mübarizə aparır. Bunun nəticəsidir ki, paytaxt Bakıda,eləcə də respublikanın bir sıra şəhər və rayonlarında profilaktik və əməliyyat-axtarış istiqamətli tədbirlərin effektliyi yüksəlmiş , qazanılan uğurlarda real əksini tapmışdır.

Göyçay Rayon Polis Şöbəsində də belədir.İctimai asayişin qorunması və cinayətkarlığa qarşı mübarizədə öz fəallığı ilə həmişə diqqət mərkəzində olan Göyçay polisi çoxistiqamətli fəaliyyət baxımından yeni uğurlar sorağındadır. Dövlətçiliyə və xalqa sədaqətində fədakarlıq nümunəsi göstərən şəxsi heyət üzvləri ictimaiyyətin rəğbətini məhz bu istiqamətdə əldə etdiyi nəticələrlə müəyyənləşdirməkdədir.

Təbii ki, uğurların qazanılmasında şöbənin rəisi, polkovnik Müqalib Abdıyevin çoxillik təcrübəsini xüsusi vurğulamaq lazım gəlir. Polis rəisi cinayətkarlığa qarşı mübarizədə rayonun digər hüquq-mühafizə orqanları ilə əlbir fəaliyyətin əhəmiyyətini vacib fakt olaraq dəyərləndirir. Bütün bunlar rayonda peşəkarcasına həll edilir və arzulanan mühitin saflığına xidmət göstərir.

Məqsədə doğru, yeni cinayətkarlığa qarşı mübarizə işində hər zaman düzgün istiqamət götürülməsi əhali arasında inam və etibarı yüksəltmişdir. Müasir metodların tətbiqi, vətəndaşların müraciətlərinə, ərizə və şikayətlərinə operativ və normal münasibət göstərilməsi indi rayonda hər kəsi razı salan məsələlərdir.

. Göyçay Rayon Polis Şöbəsinin rəisi polkovnik Müqalib Abdıyevin söylədiyi kimi ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı , müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan demokratik , dünyəvi islahatlar dönməz xarakter almış, ictimai-siyasi sabitlik nəticəsində respublikada olduğu kimi Daxili İşlər Nazirliyinin Göyçay RPŞ-nin şəxsi heyəti də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin daxili və xarici siyasətinə sadiq qalaraq , Azərbaycan Respublikasının qanunları, ölkə Prezidentinin fərman, sərəncam və tapşırıqlarından irəli gələn tələbləri, Dövlət Proqramlarından və Milli Fəaliyyət



planlarından irəli gələn vəzifələri , eləcə də Daxili İşlər Nazirliyinin kollegiya qərarlarını , əmr və göstərişlərini rəhbər tutaraq , cinayətkarlığa qarşı mübarizədə və ictimai təhlükəsizliyin təmin edilməsində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmış , əməliyyat şəraiti bütövlükdə nəzarətdə saxlanılmışdır.

Cinayətkarlığa qarşı mübarizə istiqamətində görülən işlər davamlı olaraq Göyçay RPŞ-nin əməliyyat müşavirələrində müzakirə edilib qiymətləndirilmiş, bir çox nəticələr əldə edilmişdir. Bu mənada 2025-ci ilin yekunlarının bəzi statistik nəticələrinə diqqət yetirsək, daha aydın təsəvvür yarada bilərik.

İl ərzində 208 cinayət hadisəsi qeydə alınmış , cinayətlərin açılması 93,5 faiz təşkil etmişdir. Hesabat dövründə baş vermiş cinayət hadisələrindən 112-si qeyri-aşkar şəraitdə törədilmiş və cinayətlərin açılması 91.6 faiz təmin edilmişdir.

Baş vermiş cinayət hadisələrindən 20 fakt ağır və xüsusilə ağır cinayətlərdir.Bu cinayətlərin açılması 91.7 faiz olmuşdur. Şəxsiyyət əleyhinə cinayətlərin açılması 95.7 faizdir.

Ötən bir il ərzində rayonda 44 nəfərdən ibarət olmaqla 20 cinayətkar qrup müəyyən edilərək zərərsizləşdirilmişdir.

Göyçay Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən əhalidə qanunsuz saxlanılan 41 ədəd silah götürülmüşdür..

2025-ci ildə təqsirləndirilərək barələrində axtarış elan edilmiş 72 nəfər şəxs olmuş , onlardan 68 nəfəri tutulmuşdur.

Ötən bir il ərzində Göyçay RPŞ-nin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində 71 cinayət faktı qeydə alınmışdır.Həmin cinayət faktları əsasında 59 nəfər saxlanılmış, onlardan 16 nəfəri həbs edilmiş, 43 nəfəri isə polisin nəzarəti altına verilmişdir. Müvafiq dövr ərzində narkotik vasitələrin qanunsuz əkilib-becərilməsiylə bağlı 7 fakt, həmçinin 15 fakt satış , 56 fakt saxlama məqsədilə cinayətlər aşkar edilərək qeydə alınmışdır. Eyni zamanda yabanı halda bitmiş 2 ton 50 kq olmaqla 5300 ədəd çətənə kolu aşkar edilərək məhv edilmişdir.

Şöbə əməkdaşları yüksək peşəkarlıq nümunəsi göstərirlər.Narkomaniya əleyhinə aparılan mübarizədə ən uğurlu əməliyyatlarından biri də 2025-ci ilin avqust ayının 13-də baş tutmuşdur. Göyçay Rayon Polis Şöbəsinin cinayət axtarışı bölməsinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat tədbirləri nəticəsində satış məqsədilə külli miqdarda narkotik vasitələrini qanunsuz olaraq üzərlərində saxlanılmasında, daşınmasında, satılmasında və istifadə



edilməsində şübhəli olduğundan 1990-cı il təvəllüdlü Məmmədzadə Nuranə Əlif qızı , 1971-ci il təvəllüdlü Quliyev Vəli İbrahim oğlu və 1963-cü il təvəllüdlü Mehralıyev Yaşasın Vəli oğlu Göyçay rayonu Bığır kəndi ərazisində saxlanılmış, onlardan ümumilikdə 9 kq 500 qram marixuana və 2280 ,0 qram narkotik vasitə olan tiryək aşkar edilərək götürülmüşdür.

Bu mənada 2025-ci ilin avqust ayında baş vermiş quldurluq cinayətinin qısa müddət ərzində açılması da yüksək peşəkarlığın nəticəsidir.Göyçay şəhərində yerləşən quşçuluq sexinə daxil olan şəxsin orada dəmir dolabda olan 23.300 manat pulu və 2.200 manat dəyərində qızıl-zinət əşyalarının quldurluq yolu ilə ələ keçirilməsi faktı ilə bağlı Göyçay Rayon Polis Şöbəsinin cinayət axtarışı bölməsinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat axtarış tədbirləri nəticəsində hadisəni törədənin əvvəllər məhkum olunmuş 1985-ci il təvəllüdlü, Göyçay şəhəri H.Əliyev prospekti ev 185, mənzil 28-də yaşayan Əsgərov Ceyhun Elxan oğlu olması müəyyən edilmişdir. C.Əsgərov hadisəni törətdikdən sonra Rusiya Federasiyasına qaçmış,aparılmış əməliyyat profilaktiki tədbirlər nəticəsində cinayətkar respublikaya gətirilmiş, aidiyyatı üzrə istintaq bölməsinə təhvil verilmiş, barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Cinayətkarlığa qarşı mübarizədə ümumi uğurların qazanılmasında rayon polis şöbəsi rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi Məhərrəməli Muradov, təşkilatı inspeksiya qrupunun baş inspektoru Nahid Rəhimov, cinayət axtarış bölməsinin baş əməliyyat müvəkkili Kamil Alahverdiyev, əməliyyat müvəkkili Nadir Cahangirov, ictimai təhlükəsizlik bölməsinin sahə polis nəfəri Elçin Nəbiyev, post-patrul xidməti bölüyünün manqa komandirləri Muxtar İsayev, Tural Kərimov və başqaları xüsusi fəallıq göstərir, rəhbərlik tərəfindən müxtəlif formalarda mükafatlandırılırlar.

**Göründüyü kimi vətəndaşların qəbulu ərizə və şikayətlərə həssaslıqla yanaşılması yerlərdə aparılan görüş və söhbətlər polisi xalqla daha da yaxınlaşdıran, qarşılıqlı hörmət və inam yaradan gözəl xüsusiyyətlərdir. Göyçay Rayon Polis Şöbəsinin bu istiqamətlərdəki fəaliyyətindən aldığımız təəssüratlar da belə münasibətlərin xüsusi önəm daşıdığını bir daha təsdiqləyir. Bütün bunların nəticəsi olaraq təbii ki, cinayətkarlığla qarşı mübarizədə daha çox uğurlar əldə etmək mümkündür. Bu uğurlu tendensiya Göyçay polisinin fəaliyyətində elə 2026-cı ilin ilk aylarından özünü göstərməkdədir.**

**Məzahir ƏHMƏDOĞLU**

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# KÖÇ

## Ömrün ağrılı anlarından fraqmentlər

*(İkinci yazı)*

Adətdir, təzə yurda düşəndə öncə ətrafa göz gəzdirirsən. Həm mənzərəni, həm də qonşu olacaq adamları görüb-tanımaq marağı bir instikt olaraq səni məcbur edir buna. Və yavaş-yavaş başlayırsan tanışlığın əlifbasını öyrənməyə, amma...

Amma bu heç də asan olmur. Çünki nəyə əl uzadırsan, nəyə diqqət yetirirsən, mütləq səni köhnə yurda çəkir, sənə oranı xatırladır. Gah müqayisə edirsən, gah da qoyub gəldiklərin üçün təəssüflənirsən. Bu mənada məni ən çox təəssüfləndirən həyatmın



”Ədalət”lə bağlı olan ilk anıdır. Daha doğrusu, o anı yaşadığım ilk məkandır. Çünki Azərbaycan Ordusundan ehtiyata buraxılandan sonra ilk üz tutduğum yer ”Azərbaycan” Nəşriyyatı oldu. İlk qarşılaşdığım isə tələbəlikdən tanıdığım, ”Ədalət” qəzetinin baş redaktoru Aqil Abbas  oldu. Elə Nəşriyyatın ikinci mərtəbəsində qarşılaşmanın ilk anındaca iş tapdım. Aqil müəllim məni ”Ədalət”in cəbhə müxbiri vəzifəsinə götürdü...

1980-ci ildən bağlı olduğum bu Nəşriyyatla həyatımın ikinci Nəşriyyatlı günləri başladı. Və daxilən əmin oldum ki, həyat qələmi yerə qoymağa məcbur edəndə elə bu Nəşriyyatda ”Ədalət”lə, ”Ədalətçilər”lə sağollaşıb gedəcəm. Haqlarını halal etmələrini istəyəcəm. Amma...

Amma bu arzum da ürəyimdə qaldı. Köç imkan vermədi bu arzumu çin etməyə. Ona görə də son bir həftədir ki, ”Azərbaycan” Nəşriyyatının qarşısından, Mətbuat prospektindən keçəndə özümdən asılı olmadan içimdən bir sızıltı keçir. Çünki 1980-ci ildə də ”Azərbaycan” Nəşriyyatının 6-cı mərtəbəsindəki ”Təşviqatçı” jurnalından Qarabağ hadisələrinə görə ayrılıb getmişdim doğulduğum ünvana. İndi də Nəşriyyatın həmin mərtəbəsindəki ”Ədalət”lə birlikdə köçürdüm Nəşriyyatdan. Düzünü deyim ki, köçmürdüm, köçürürdülər. Məsləhət belə olmuşdu. Mən də, məsləhətə qulaq asanlar hamısı da iynələrini sancmışdılar yaxalarına. Yəqin ki, ”Dərziyə köç dedilər, iynəsini sancdı yaxasına” məsəli yadınızdadır...

Bəli, təzə yurdda gözüm ilk öncə Nəşriyyatda hələ də mənim yolumu gözləyən dibçəklərə yer axtarmaq oldu. Amma otaq nə qədər səliqəli olsa da, təkcə mənə aid deyildi. İndi biz 6 nəfər bir çətirin altındaydıq. Və burda dibçəkləri ancaq xatırlamaq mümkündür. Elə mən də o xatirələrin ağrısını canımdan çıxarmaq üçün hələ isinmədiyim otaqdan küçəyə çıxıram. Özü də könüllü yox, içimdə çatmayan havanın, tıncıxan ürəyimin səsinə qulaq asıb. Çıxıram və:

*Xoş gəldin, demədi, susdu bu ünvan,*
*Sanki adımı da silib yadından.*
*Qaldım bu ünvandan biraz bədgüman*
*-*
*Məni nədən silib o, həyatından?!*

*Çözüb ilməsini xatirələrin,*
*Dolaşdım bu nimdaş dalanı, tini.*
*Məni bu küçəyə gətirənlərin -*
*Köhnə qoxusunu alana kimi!..*

*Ulduz çiçəklədi kirpiklərimdə,*
*Titrədi ruhumun həssas telləri...*
*Suala çevrildi bildiklərim də*
*Əsdikcə içimdən şaxta yelləri.*

*Gördüm üzə gülən heç nə yox burda,*
*Doğranıb ağaclar, sökülüb səki.*
*Qərib tək qayıtdım bu təzə yurda,*
*Bir də qəribliyim olmasın təki!..*

Bəli, bu təzə yurd əslində Bakını tanıdığım gündən bildiyim bir ərazidə yerləşir. Şəhəri tanıyanların dilində desəm, paytaxtın ”gözü”dür. Bulvarın ”qulağının dibi”dir. Muğam Mərkəzi də burdadır, Xalça Muzeyi də burdadır, Filarmoniya da burdadır, Funikulyor da burdadır, hətta Bəhram Gur da. Amma ”Azərbaycan” Nəşriyyatı yoxdur burda. O mühit, o aura, o həmkarlıq, o tanış simalar, o ərklər, o zarafatlar, o xatirələr qalıb Yasamal Qəbiristanlığının yanında. Mən yaşanan həmin o hisslərin təsiri altında Sizə yeni ünvanın da koordinatlarını vermək istəyirəm. İşdi birdən axtararsınız, yolunuz düşər, onda...

*Şəhərin*
*Dənizlə öpüşən yerində*
*”Azneft” dairəsində...*
*Böyük*
*Məmməd Arazın*
*Dünyalar sığışan*
*Hücrəsində*
*Bir küncdə*
*Yer tapıldı*
*Mənə də ...*

*...Şəhərin bu nöqtəsində*
*Məmməd Araz ruhunun*
*İstisində*
*Bilmirəm nədənsə*
*Hələ də*
*Bir ”Şikəstə” keçir*
*Könlümdən,*
*Şikəstə!..*

*Mən aşiq gözümdə nəm,*
*Səsimdə, sözümdə nəm...*
*Hamı eyni ovqatda -*
*Mən isə özümnənəm...*

*Şəhərin dənizlə öpüşən yerində -*
*Yəni, sizə nişan verdiyim*
*Ən kövrək*
*Xatirələr mərkəzində -*
*Bir tumurcuq büzüşüb -*
*Ürəyimdə -*
*Özü də lap dərində!*

İçimdəki köç ovqatı o qədər özünə yer edib ki, başqa heç nə düşünə bilmirəm. Məni qınamayın, hələ bu yazının birinci hissəsində vurğulamışdım ki, həyatımda mənimçün ən ağrılı söz ”Köç”dür. Bu köçün yozumunu da vermişdim. İndi atüstü bir də xatırladım. Köç məni doğulduğum yurddan da, pənah gətirdiyim Füzuli şəhərindən də, üz tutduğum Beyləqandan da, paytaxtda sığındığım ünvanlardan da müxtəlif formalarda qoparıb. Bunun ən acı forması silah gücünə qaçqınlıq olub.

Amma neyniyim ki, köç  özü ən zəhləm gedən sözə, işarəyə çevrilib mənimçün. Hardansa qopub ayrılmağıma bünövrə olub. İndi də illərlə nəfəsimlə, xatirələrimlə, təbiətin bir guşəsinə çevirdiyim dibçəklərlə sığınacağım olan, dərdimi, ağrımı, sevincimi bölüşdüyüm ovuc içi  boyda bir otaqdan da köçdüm. Amma inanın, mən hələ ordayam. Qopub Məmməd Arazın ruhu mütləq hakim olan yeni ünvana gələ bilməmişəm. Bu, mənim anlayışsız, sayğısız olmağım deyil. Əksinə, bu, böyük bir şərəfdir. Sadəcə olaraq isindiyin bir ocaq hər kəsə öz canı qədər, öz köynəyi qədər yaxındır axı. Mən də o yaxınlığın uzaqlığını yaşamağa alışmalıyam. Əgər alışa bilsəm. Elə bu məqamda da düşünürəm ki:

*Bitirirəm bu ömrü*
*Xatirələr fonunda.*
*Bu da belə bir yazı -*
*Qədər imiş, sonunda.*

## *Umud Mirzəyevin 65 illik yubileyinə həsr olunmuş tədbir keçirilib*

**Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti, Əməkdar mədəniyyət işçisi, ictimai xadim, şair-publisist Umud Mirzəyevin (Rəhimoğlu) 65 illik yubileyi münasibətilə Azərbaycan Yazıçılar Birliyində (AYB) tədbir keçirilib.**

Tədbirdə tanınmış qələm adamları, siyasi-ictimai xadimlər iştirak ediblər.

AYB-nin sədr müavini, **Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid** açılış nitqində Umud Mirzəyevin bir ziyalı kimi ölkə üçün əhəmiyyətli işlər gördüyünü vurğulayıb: ”Umud Mirzəyevin yaratdığı təşkilat Azərbaycan hüdudlarından kənarda da ölkəmiz üçün vacib və əsaslı fəaliyyət göstərir. Onun bu təşkilatı yaratması və rəhbərlik etməsi Umud müəllimin ziyalı mövqeyinin nə qədər əhəmiyyətli olduğunu göstərir”.

**AYB-nin sədri, Xalq yazıçısı Anar** bildirib ki, Umud Mirzəyev təkcə ədəbiyyat sahəsində deyil, eyni zamanda, ədəbiyyatdan kənarda da mühüm fəaliyyətlər göstərib: ”Umud Mirzəyev Azərbaycanın ölkə xaricində tanınması üçün də ciddi işlər görüb. O, yalnız ədəbiyyat və publisistika ilə kifayətlənməyib”.

**AYB-nin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev** Umud Mirzəyevin həm də səmimi dost olduğunu qeyd edib: ”Artıq iyirmi ildən çoxdur ki, dostluq edirik. Umud həm qələm adamı, həm də dost kimi yaxşı mənada seçilən insanlardandır. Təsadüfi deyil ki, ədəbiyyata gəldiyi ilk gündən seçilən imzalardan biri olub”.

**Deputat Fazil Mustafa** Umud Mirzəyevin fəaliyyətini yüksək qiymətləndirib: ”Bəzi adamlar sadəcə yazmaqla kifayətlənirlər. Amma Umud Mirzəyev yazmaqla yanaşı, paralel şəkildə ölkə xaricində də insanların diqqətini Azərbaycana cəlb edib”.



**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva** ölkənin bir çox ziyalısını bir araya topladığına görə yubilyara təşəkkür edib: ”Belə tədbirlərin keçirilməsi həm ədəbiyyatımız, həm də mədəniyyətimiz üçün çox önəmlidir. Gözəl haldır ki, Umud müəllim üçün bu qədər ziyalı insan bir araya toplaşaraq onu təbrik edir”.

Tədbirdə həmçinin AYB-nin katibləri Elçin Hüseynbəyli və Səlim Babullaoğlu, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, iqtisad elmləri doktoru, professor Ziyad Səmədzadə, ”Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov, Atatürk Mərkəzinin direktoru, filologiya elmləri doktoru, professor Nizami Cəfərov, AMEA Dilçilik İnstitutunun baş direktoru, professor Nadir Məmmədli, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini, tarix elmləri doktoru, sabiq səfir Eynulla Mədətli, qələm adamları Ağacəfər Həsənli, Zakir Fəxri, Murad Köhnəqala, ədəbi tənqidçi Əsəd Cahangir və digər tanınmış ədəbiyyat və ictimaiyyət nümayəndələri iştirak ediblər. Çıxış edənlər yubilyarın yaradıcılıq yolu, həyat fəaliyyəti və Azərbaycanın ədəbi-mədəni inkişafına verdiyi töhfələrdən danışıblar.

Tədbir çərçivəsində şair-publisist Xəqani Qayıblının və tanınmış şairlər Xanəmir Telmanoğlu və İbrahim İlyaslının redaktorluğu ilə bir qrup yazıçı tərəfindən hazırlanaraq nəşr edilən ”Avrasiya Press” nəşrinin ”Avrasiya portreti - Umud Mirzəyev 65” adlı xüsusi buraxılışı təqdim olunub. Həmçinin yazıçı-jurnalist Gülşən Behbudun Umud Mirzəyevin həyat və fəaliyyətindən bəhs edən, onun 65 illik yubileyinə həsr olunmuş ”Təmənnasız missiya” adlı kitabı tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, Umud Rəhim oğlu Mirzəyev 1 fevral 1961-ci ildə Azərbaycan Respublikasının Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndində anadan olub. 1982-1987-ci illərdə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunun poeziya şöbəsində təhsil alıb. 1988-ci ildə Azərbaycan Yazıçılar İttifaqının mətbu orqanı olan ”Ədəbiyyat və incəsənət” qəzetində əmək fəaliyyətinə başlayıb, 1989-1993-cü illərdə isə həmin qəzetin ”Elm, publisistika və məktublar” şöbəsinə rəhbərlik edib. 1992-ci ildə yaradılan və hazırda BMT-nin İqtisadi və Sosial Şurasının ən yüksək statuslu üzvü olan Beynəlxalq Avrasiya Mətbuat Fondunun qurucusu və prezidentidir. Onun şeirləri və publisistik yazıları yerli və respublika əhəmiyyətli mətbuatda dərc olunub, eyni zamanda rus, ingilis və türk dillərində müxtəlif ölkələrdə yayımlanıb.

**Umud Mirzəyev 2012-2016-cı illərdə Beynəlxalq Mətbuat İnstitutunun (BMI) İdarə Heyətinin, 2013-2016-cı illərdə isə Nobel Sülh Mükafatı laureatı olan Beynəlxalq Sülh Bürosunun Ali Şurasının üzvü və qurumun 18 Qərbi Asiya ölkəsi üzrə nümayəndəsi olub. 2009-2016-cı illərdə Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasına sədrlik edib. 2010-2022-ci illərdə Azərbaycan Mətbuat Şurasının sədr müavini, hazırda isə Şuranın İdarə Heyətinin üzvü, Azərbaycan Yazıçılar Birliyinin üzvü və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) yanında İctimai Şuranın sədridir.**

**Tədbirin iştirakçısı:**
**Ə.MƏDƏTOĞLU**

# Ümud yüklü qatar və uğur platforması

## Umud Rəhimoğlunun 65 yaşı üzərinə

(Oçerk)



*Vaqif BƏHMƏNLİ*

**Proloq**

**İstədim sınayım, bir vaxtlar bədii ədəbiyyatla jurnalistika arasında keçid-körpü kimi təsnif olunan oçerk janrının dili ilə indi hansısa çağdaş mövzunu oxucuya çatdırmaq imkanı qalır, yoxsa elə bir imkan tükənib?!**

**Suala cavab tapmaq niyyəti ilə masamın üzərindəki noutbuku azca yana sürüşdürüb bir topa ağ vərəqi (A4-ü) əlimin altına qoydum və ötən əsrin jurnalistlərinin vərdişinə uyğun qaydada diyircəkli qələmə sarıldım...**

**1.**

Məmləkətin ürəyi Bakı şəhərindən başlayan yollar vətənin müxtəlif istiqamətlərinə qan damarları misalında şaxələnir. Yaxud əksinə, ellərdən-obalardan baş alıb gələn yollar nəhayətdə qan damarları misalında Azərbaycanın ürəyi Bakı şəhərində birləşir, yollar yollara qovuşur.

Yolların adları da var, onlar səmtinə görə dəyişir - Şamaxı yolu, Quba yolu, Gəncə yolu, Astara yolu... Hətta, balaca bir şəhərə iki yol qalxır; Şuşanın Zəfər yolu...

Tarixin şəhadətinə görə bir zamanlar Böyük ipək yolu da bu cənnət ölkənin tən ortasından keçib gedirmiş...

Zatən, Azərbaycan elə mərhəmətli, pilə kimi yumşaq təbiətə malik bir diyardır ki, onun səthini qızıl tor kimi bürüyən yolların cəmini İpək yolu adlandırsaq, fikrimcə kimsə bizi qınamaz...

Dünyanın yollarına qovuşmayan yol kimə və nəyə gərək? Görünür möhtəşəm genişliyə can atması səbəbindən yollar mənsub olduqları coğrafiyanın hüdudlarına sığmır, qanadlı xəyala, əngin zəkaya malik insanın ayaq izlərindən yaranıblar deyə, elə hey sərhədləri yarıb keçirlər!

Hər necə olur-olsun səni, məni, onu, hamını mənzil başına çatdırmaq yolların alın yazısıdır.

Yollar nəhayətsiz sonsuzluğa məhkumdur! Və onlar qədimlərdəki kimi yalnız torpaq üstünə sərilən quru yollar deyil - indi hava yolu, dəniz yolu, dəmir yolları var. Onu insan yaradıb, sonda yollara sahib olan da insandır.

Yol.. İnsan... Obrazlı dşüncənə vaxtdan bəri təlqin edir ki, elə insan da özündən başlayib özündə bitən yoldur! Buna dair yüzlərlə tutarlı örnək var. Və belə çıxır ki, ədiblərin insana yol rakursundan baxmaq cəhdləri gələcəkdə də davam edəcək...

İnsan yoldur; doğulmağı, boy atmağı, gəncliyi, qocalığı, taleyi ilə...

İnsan yoldur; yaşantıları, düşüncələri, xatirələri ilə...

İnsan, ən əsası, əməlləri ilə yoldur!

Nə yazıq ki, ulu yollar yolsuz bəndələrdən də xali deyil.

Və yolun yol olduğu gedənindən-gələnindən bilinər...

**2.**

Ömrü yola dönən adamı düşünüb, çəkib apardığı əməl yükü ilə insanlaşan yolu xəyal edirəm. Doğmalar, həmkarlar arasında dərhal yadıma düşənlərdən biri, bəlkə də birincisi Umud Rəhimoğlu olur.

Umud Rəhimoğlu - yol adam... Bu halal təyinat mübahisə açmaq üçün iynənin ucu qədər güman yeri qoymur.

Sizi əmin edirəm ki, onun keçib getdiyi və ya dönüb qayıtdığı yolları cəmləsək, onlar ekivator xətti boyunca Yer kürəsinin belinə bir neçə dəfə dolanar və bu hərəkət trayektoriyası uzaq səfərlər yolçusu Magellanın özünü belə heyrətə salar.

Umud Rəhimoğlunun bitib-tükənməyən səfərlər silsiləsi, böyük yol romanı onu yaxından-uzaqdan tanıyan hər kəsə bəllidir. Amma, bu səfərlərin aşırı turist həvəsi, səyahət intuziazmı ilə heç bir əlaqəsi yoxdur. Tarixdə çoxlu salnaməçi səyyahlar olub, onları da qətiyyən ziyarətçi turistlərin sırasına yazmaq olmaz, onlar gəzib dolaşdıqları yolları tarixləşdiriblər, axı onlar vətənin hansısa ciddi bir tapşırığını yerinə yetirmək üçün ölkələrdən ölkələrə adlayıb, uzaq-uzaq yollara çıxıblar.

Şair-publisist Gülşən Behbud Umud Rəhimoğlunun keçib gəldiyi həyat, fəaliyyət və yaradıcılıq yolunu dolğun şəkildə canlandıran kitabını haqlı olaraq "Təmənnasız missiya" adlandırıb. Umud Mirzəyev həqiqətən də missiya üçün doğulmuş nadir şəxsiyyətlərdəndir. Missiya təmənnasız olanda isə o yükü çəkib aparanın dəyəri ən azı iki qat artır.

Yol onu çağırır. Yolların sədasına hay verməmək olmaz. Onun səfərlərə tək yollanmağı zahiri səciyyə daşıyır. Bir insan ki, doğma və yad ölkələrə sənin, mənim... istəklərimizin hansısa bir hissəsinin, hansı şəkildəsə reallaşması üçün yollanırsa, deməli axır mahiyyətdə sən də, mən də onunlayıq, onun yanındayıq.

Sanki, çoxdan əzbərimdə qalan bu misralar da özgə bir söz adamının deyil, məhz onun qələmindən çıxıb, qəlbindən süzülüb.

*Olarmı gəzməsəm sirli aləmi,*
*Olarmı doyunca köhlən sıxmasam.*
*Üfüqlər qol açıb çağırır məni -*
*Yaşaya bilmərəm,*
*yola çıxmasam.*

*Bir bax, döşə qalxan, yüksələn, yenən -*
*yollardı, dolaşır belədən-belə.*
*Sən elə bir kəlmə - "yaxşı yol"- denən,*
*Sən elə sadəcə uğurlar dilə!*

*Yolların tozudu saçımın dəni*
*Gərək yola çıxıb küləyə verəm.*
*Əgər qorxudursa tənhalıq səni*
*Onda birgə gedək mən gedən yerə*

**3.**

Bəlkə, burda da bir rəmzi məna, işarət var ki, onun doğulduğu Aşağı Əbdülrəhmanlı kəndi Horadiz - Füzuli yolunun üstündə binə tutub. Bu yolu ötüb Horadizə çatmaq o vaxtın nəzəriylə dünyaya qovuşmaq deməkdi; çünki Araz qırağındakı o balaca, qaynar hərəkətli qəsəbədə dəmir yol vağzalı vardı.

Vağzal indi də durur, nə yazıq ki, otuz il pozuq qrafiklə, hərdənbir gələn qatarlar oldu, amma yoluna davam eləyəni olmadı - Zəngəzur, Naxçıvan ümid dolu gözünü illər boyu yollara dikib Bakıdan yola çıxan, gəlib orlardan ötməli olan qatarların həsrətini çəkdi, indi də çəkir.

Nəsə, mövzudan aralı düşməyək, daha doğrusu yolumuzu kəsə gedək...

1961-ci il fevral ayının 1-də, bax, bu Aşağı Əbdülrəhmanlı kəndində dünyanın dolanbac yoluna,



öz taleyinin heç də hamar olmayan yoluna bir çocuq doğuldu. Təbii, qətiyyən kimsənin ağlına gəlməzdi ki, böyük bir rayonun ağsaqqalı Rəhim dayının ocağında Xanım ananın dünyaya gətirdiyi bu uşaq yollarla əkizdir, sanki, o, yollar eşqinə doğulmuşdu... O yollara yoldaş, yollar ona qardaş olacaqdı!

Umud bəy həm də ona görə "nadir nüsxələrdəndi" ki, onun "dünyaya səyahəti" doğulduğu gündən başlayır. Sözün ərk mənasında; məşhur tamaşada deyildiyi kimi - "Kərəmov yeriyər!"

Ata, ana və Umud daxil ailə 8 nəfərdən ibarət idi - dörd qardaş, iki bacı. Mən heç araşdırma aparmadım ki, Umud ailənin neçənci uşağıdır. Bəlli olan, daha doğrusu mənim özümü inandırdığım həqiqət belədir ki, o, dünyanın yeddinci möcüzəsi olmasa da sadə, ləyaqətli ailənin 8-ci möcüzəsi olmağı bacardı!

1968-ci ildə balacanı orta məktəbin birinci sinfinə qoydular. O zamanlar uşaqlar dərsə yeddi yaşdan başlayırdılar. Həyat yoldaşı, Umudla təqribən eyni illərdə eyni məktəbdə oxuyan Xalidə xanım tərəddüd etmədən təsdiqləyir ki, Umud ən nümunəvi şagird, məktəbin gözü idi. Dərslərini əla oxuyurdu. Hələ bu harasıdır, Füzuli rayonunda çıxan "Araz" qəzetində onun xırda məqalələri, qəlbi kimi kövrək şeirləri işıq üzü görməyə başlamışdı. Bu göstərici orta məktəbdə oxuyan mindəbir şagirdə qismət olardı, ya olmazdı!

Sonralar Umud bəy mənə danışırdı ki, "Araz" qəzeti bu rayondan çıxan qüdrətli nasir, dramaturq, Xalq yazıçısı İlyas Əfəndiyev, şair və yazıçılar - Çingiz Əlioğlu, Mətləb Misir, Əşrəf Veysəlli, Oruc Səda, Nemət Veysəlli, Seyran Səxavət, Vaqif Bəhmənli, Şükür Şənol, Oqtay Ərgünəş, Çingiz Ənvəroğlu, Mahmud Qacar, Əbülfət Mədətoğlu, Faiq Şükürbəyli, Məcnun Namazəliyev, Xanlar Əhmədov, Kərəm Hətəmov, Vaqif Mehdiyev, Süleyman Qaradağlı, Sabir Arazlı, Sabir Rüstəmov, Vəzir Hacıyev, Oqtay Ərgünəş, Vahid Əlifoğlu, Mayıs Kazımov, Mehman, Zahid Kazımov qardaşları... kimi onun da doğma ocaq bildiyi ünvan olub.

Əslində elə də dərindən fərqinə varmamışam, görüşlərimiz zamanı ən çox xatırlayıb ya qürur duyduğumuz, ya qəhərləndiyimiz anlar daha çox Füzulidə keçən günlərimizlə bağlıdır, indi də elədir.

Hələ bax, Umud gözlərini geniş açıb:

**-Vaqif müəllim, yadındadı "Araz" qəzetinin redaksiyası, - soruşur, - oval şəkilli, oyma daşlı giriş qapısı əsil sənət əsəri idi. Heyif ki, vəziyyətimiz heç yaxşı olmadı, 30 il sərasər insanlar zillət çəkdilər, özümüz o qapıda, bu qapıda, yarıac, yarıtox... İllər boyu havamız, suyumuzla, süfrəmizin artıq-urtuğu ilə yallanan erməni vandallar təbiəti, havası, memarlıq quruluşu, coğrafi relyefi heyrətamiz olan Füzulinin daşını-daş üstə qoymadılar. Heç elə bil burda şəhər yox imiş. İşğaldan azad olunan günlərdə Ali Baş Komandan, Prezident İlham Əliyev törədilən fəlakəti bütün dünyanın gözü qarşısında ağır ittihamla qınadı, dedi ki, bax indi biz Füzuli şəhərini işğaldan azad etmişik, fikir verin, burada bircə dənə də olsun salamat qalmış bina tapmırıq ki, qələbə bayrağımızı oradan asaq.**

Umud müəllim özünə xas tərzdə nəzərlərini yerə zilləyib, bir az susur və sözünün mabədini gətirir:

**-Bax, indi sənnən danışıram, redaksiya binasının qoxusunu sanki yenidən duyuram, mətbəənin qurğusun, rəng qoxusu bütün otaqları bürüyürdü. Qəribədi, şəhər darmadağın olmuşdu, digəl, redaksiyanın oval tağbəndli giriş qapısı hansı möcüzənin sayəsindəsə dik duruyşunu qoruyub saxlayırdı.**

Sonra o, valideynləri ilə gəlib məhz bu gözəl şəhərin quş südü, can dərmanı satılan gur, haylı-haraylı bazarından ayın-oyun aldıqlarını, ilk dəfə bu şəhərdə kinoteatrda filmlərə (əsasən hind filmlərinə) baxdığını, qədimi mədəniyyət evində konsertlər gördüyünü, "Şəlalə" restoranında dadından doyulmayan "qulyaş" yediyini, "Ərgünəş" ədəbiyyat birliyinin toplantısından ya əvvəl, ya sonra təzə mədəniyyət sarayının sırasındakı ikimərtəbəli, ağzınacan nəşrlərlə tıxalı-təpili kitab evinə girib bədii əsərlər aldığını sakit və kövrək səslə nağıl eləyir. Deyir, normal həcmdə, amma ki, o vaxtın pulu ilə qəpik-quruşa satılan şeir, hekayə kitablarını kəndə çatanacan elə avtobusda oxuyub başa vurumuş.

Bu yalnız Umud Mirzəyevin keçdiyi həyat yoludurmu? Belə təfərrüat Füzulidən çıxan əli qələmli yaradıcı insanların əksəriyyətinə aid edilə bilər; kiminə az, kiminə çox.

**4.**

Bir dəfə də dostum ərklə qolumdan yapışıb, sanki dediyinin tam həqiqət olduğuna inanmağımın təmənnasıyla, həm də bir az magik səslə dedi ki, qardaş, inan mənə, bizim dədə-baba evimizə, eləcə də Bakı şəhərində yaşadığımız mənzilimizə heç zaman haram tikə, bizim olmayan bir qara qəpik girməyib. Nəsillikcə nəyimiz olubsa, hamısı zəhmətlə başa gəlib. İndi baxıram, insanların əhəmiyyətli bir hissəsinin qazanc yolu qaranlıqdı, davranışlar, münasibətlər çox mürəkkəbləşib. Öyrəli türklərin bir lətifəsini eşitdim, xeyli güldüm və xeyli də halımıza acıdım. Bir gənc müxbir ağsaqqal kişidən soruşur:

**-Baba, kaç övladın var?**

**-Dörd tane...**

**-Nə iş yapıyorlar övlatların?**

**-Biri mühəndisdi, biri memardı, biri imam...**

**-Bəs dördüncüsü?**

**-O, quldurdu, oğrudu...**

**-Elə nanəcibi niyə məhlədə saxlayırsan, qov getsin!**

**-Necə qovum, axı evə əkməyi, pulu-paranı gətirən odur...**

O, altdan-altdan gülümsünür, türk şakasını özünəxas ciddi çağırışla tamamlayır:

**- İndi neyləyək, gülək, yoxsa ağlayaq? Tək onu bilirəm ki, müdrik xalqımız, gözəl millətimiz, cənnət misalında vətənimiz var. Hər bir insanın borcudur ki, bu vətənin adına layiq olsun, şərəflə yaşasın!**

Atalar düz deyib, insan quş kimidi, bir gün burdadı, bir gün orda. Üstəlik, bir yol söhbəti də var və bu yol müstəqim mənada deyil, dostumuzun obrazının ekvalenti rolunda çıxış edir.

Tale yaşa baxmır - Umud heç ağıla gəlməyən bir ölkəyə, Monqolustana əsgər gedəndə cəmi 18 yaşı vardı. O, Monqolustan ki, tarixi və əfsanəvi Çingiz xanın vətənidi, Türk dünyasının da laqeyd olmadığı, müştərək izlər saxlayan Orxon abidələri də indi cəmicümlətanı 3 milyon əhalisi (!), 1,5 milyon kvadratkilometrdən çox ərazisi (!!) olan Monqolustandadır. Umud belə bir ölkədə əsgərlik çəkdi. Təsadüfənmi? Yeri gəlmişkən, akademik Nizami Cəfərov da Rəhimoğludan bəhs edən məqaləsində "Monqolustanda əsgərlik qismətinə" həssas və eyhamlı yanaşıb. Bəlkə ulu bir ruhun cazibəsi hələ sümüyü bərkiməyən bu gənci qanadlarına qaldırıb Orxon abidələrinin tarixi məkanına qəstən aparmışdı?

**(ardı 11-ci səhifədə)**

# DÜZ YAŞAYAN KİŞİ

## Umud Rəhimoğlunun yubiley yaşına

**Onda hələ nə müharibə var idi, nə qaçqınçılıq, nə də ümumiyyətlə, bu barədə iynə ucu boyda da olsun təsəvvür...**

Adamlar öz güzəranları ilə, gündəlik qayğıları ilə başlarını qatır, işi ilə, gücü ilə məşğul olur və həyata tamam fərqli bir prizmadan baxırdılar. Çünki adamların başını onda siyasət xarab eləməmişdi... Çünki onda adamların çörəyi siyasətdən çıxmırdı... Çünki onda adamlar dünyanın bəlkə də birinci super dövlətinin - imperiyasının vətəndaşları idilər... Çünki onda imperiyanın vətəndaşı olanlar nə iş yeri qayğısı çəkirdilər, nə də bu imperiyanın hansısa bir bucağında gedib yaşamaqdan ehtiyatlanırdılar. Hələ mən gəzməyi, görməyi demirəm... Amma bütün bunların cəmi bir azadlıq anının, bir azadlıq yazısının, bir azadlıq qismətinin yerini verə bilməzdi...

Bax elə həmin o azadlıq havasına, azadlıq mücadiləsinə doğru gedən yol barədə olsa-olsa tək-tək adamlarda bir ip ucu var idi. Böyük əksəriyyəti isə yalnız kitablardan, nağıllardan, söhbətlərdən o böyük azadlığın özünün və yolunun barəsində az-maz xəbərdar olurdular... bütün bunlara isə hamı bir az nağılvari yanaşıb, xəyalpərvərlik hesab edirdi. Lakin...

Onda insanların oxumağa, mütaliəyə qəribə bir münasibəti kök salmışdı. Həmin o kökün rişələri yayılmışdı hər tərəfə. Etiraf edək ki, onda yazılanlar indikindən çox-çox sanballı və dəyərli idi. Çünki onda yazılanları həm yazanlar, həm də oxuyanlar məsuliyyətlə ortalığa qoyurdular. Təəssüf ki, bu gün bu ölçü aradan götürülüb... Nə isə...

Deməli, onda mən orta məktəbin sonuncu sinfində oxuyurdum və ayda bir dəfə Füzuli rayonunda çap olunan ”Araz” qəzetinin nəzdindəki ”Ərgünəş” ədəbi birliyinin məclislərinə qatılırdım. O məclislərin iştirakçıları arasında Azərbaycanın tanınan söz, qələm adamları buğumbuğum böyüyür, ilbəil ədəbi mühitə özünün imzasını tanıdıb sevdirirdi. Bunların arasında mərhum Sabir Rüstəmov, Vəzir Hacıyev, Vahid Əlifoğlu, eləcə də Mətləb Misir, Mahmud Qacar, Oruc Səda və başqaları da var idi. Elə həmin o, ədəbi birliyin növbəti məclislərinin birində balacaboy, amma üz-gözündən bir ağsaqqallıq tökülən, arıq bir uşaqla da qarşılaşdım. Bu oğlan Füzuli rayonunun Aşağı Əbdülrəhmanlı kəndindən gəlirdi məclisə. Dinməzcə oturur, ona növbə çatanda bir az sıxıla-sıxıla, bir az da həyəcanla şeiri oxuyur, iştirakçıların münasibətini eşitdikcə qan-tərə batırdı və hər dəfə mən düşünürdüm ki, bəzən haqsız olan tənqidlər onu bezdirəcək və növbəti məclislərə gəlməyəcək. Lakin...

Dövlət universitetində oxuyurdum. Yay tətili zamanı birinci kurs tələbələrinin qəbul imtahanlarının keçirilməsi ərəfəsində universitetdə növbətçi saxlayırdılar. Biz daha çox sənəd qəbulu edilən yerdə dayanıb növbələri nizamlayırdıq. Mən növbədən çıxıb gedərkən universitetin qarşısındakı oturacaqda əyləşmiş iki nəfər diqqətimi çəkdi. Ayaq saxladım, bu, o idi. Həmin o balaca, cılız oğlan. Və beləcə onunla ikinci dəfə qarşılaşdım. Həyatımın onunla bağlı olan ikinci məqamı beləcə yaddaşıma köçdü. O, Umud Rəhimoğlu idi. İnsan həyatı məqamlarla, hadisələrlə, gəzib gördükləri ilə daha maraqlı, daha rəngarəng olur. Bu mənada mənim yaşadığım həyat payımda çoxlu fərqli məqamlar olub. O məqamlardan Umud Rəhimoğlu ilə bağlı olanları bir silsiləyə çevirsəm elə azı bir əlli məqam təşkil edər. Bu da orta hesabla azı ilə bir məqam deməkdi. 60-ı çoxdan yola salmışam. Yaşı deyirəm. Ardımca gələn Umud Rəhimoğlu da bir neçə gün öncə 65-in qapısını açdı. Bilmirəm, o açdığı qapıdan içəri keçib üzü geri boylananda orda gördüklərinin içərisində mən də var idim, yoxsa yox. Amma şəxsən mənim həyatımda Umud Rəhimoğlu adlı bir dostun, bir eloğlunun xüsusi yeri var. Bu yerin ən başlıca meyarı, ən başlıca xarakterik cəhəti odur ki, mən Umudun adını çəkəndə, adını eşidəndə heç bir narahatlıq hissi keçirmirəm. Çünki bu adın sahibi özünü yetərincə təsdiq edib, istər cəmiyyətdə, istər el-obada, istər ictimai-siyasi arenada, istər ədəbi mühitdə...

Qarlı-şaxtalı bir qış gecəsi idi. Moskvanın Puşkin metrosunun ətrafında var-gəl edirdim. Şaxta adamı kəssə də gecələdiyim mehmanxanaya getməyə heç həvəsim yox idi. Çünki Qarabağ savaşının ilk ilində düşmənlərin atdıqları əldəqayırma mərmi qardaşımın gözlərini yandırmışdı. Həmin mərminin partlayışı onun bir gözünü əlindən almışdı, ikinci gözünü xilas etmək üçün mən də qardaşımı Moskvaya aparmışdım. Metronun ətrafında gəzişdiyim gecənin səhəri onu əməliyyat edəcəkdilər. Həkim çox da inamlı deyildi. Bu da məni əməlli-başlı ümidsizləşdirmişdi. Bu qərib şəhərdə getməyə, dərdimi bölüşməyə, fikrimi yayındırmağa doğma bir adam axtarırdım, tanış bir insanla qarşılaşmağı arzulayırdım. Birdən...

Qarşımdan bir oğlan gəlib keçdi. Əlində hörmə zənbil, onun içərisində də kənardan aydınca görünən ərzaqlar... bu yeriş mənə yaman tanış gəldi. Ağ saçlarının üzərinə qonan ağappaq qar dənələri onu 100 yaşlı bir kişiyə çevirmişdi. Özüm də hiss etmədən ona doğru yeriyib bircə kəlmə dedim.

- Umud!

Çevrilib geri baxdı. Bu qərib şəhərdə qucaqlaşdıq. Bu, onunla qarşılaşdığım və yaddaşıma həkk olunmuş üçüncü bir məqam idi. Həmin gecəni o məni tək qoymadı. Özü ilə birlikdə təhsil aldığı və sonuncu kursunda olduğu Moskvanın və bütövlükdə keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərindən biri olan Ədəbiyyat İnstitutunun yataqxanasına apardı. Burada imzasını tanıyıb üzlərini ilk dəfə gördüyüm çoxlu qələm adamı ilə tanış oldum. O gecəni necə keçirdimsə səhərin açılmasından xəbərim olmadı. Bu mənim Moskvada keçən 50 günlük ömrümün bəlkə də ən maraqlısı, ən yaddaqalanı oldu. Onu mənə Umud Rəhimoğlu bağışladı.



... Üz-üzə oturmuşuq. Özümüzdən, işimizdən, ailəmizdən danışırıq. Təbii ki, bu təkcə həmsöhbət olmaq üçün yox, həm də içimizdəki yorğunluğu bir az kənara atmaq üçün, bir az qayğısız anlar yaşamaq üçün etdiyimiz bir dərdləşmədi. Umud danışır, mən isə onunla bağlı daha bir məqamı xatırlayıram. Umud Rəhimoğlu o vaxtın ən oxunaqlı qəzetlərindən biri olan ”Ədəbiyyat və İncəsənət” qəzetində işləyirdi. Ara-sıra görüşürük. Hər görüşümüzdə də bircə kəlməni bütün zamanlarda söylədiyi səmimiyyətlə təkrar edirdi:

- Yazı-pozun olanda çəkinmə. Nəyə gücün çatır həmişə qulluğundayam.

Təbii ki, bu münasibətin özü mənim üçün hər şeydən qiymətlidi. Bu kifayət edir ki, mən onunla görüşlərimizin arxasında böyük bir səmimiyyətin dayandığına tam əmin olum...

Umud söhbət eləyir. Onun dediklərinin bir qismini mən artıq çoxdan bilirəm. Bilirəm ki, o, 1992-ci ildə yaratdığı BAMF-nın nüfuzunu artıq bütün dünyaya çatdıra bilir. İndi bu qeyri-hökumət təşkilatı Dünya Bankının, Amerikanın Dövlət Departamentinin, Avropa Komissiyasının, Beynəlxalq Mətbuat İnstitutunun, Beynəlxalq Jurnalistlər Federasiyasının yaxından tanıdığı, əməkdaşlıq etdiyi bir oturuşmuş qurumdu və onun rəhbərliyi ilə bu təşkilatda 100 nəfərdən artıq insan çalışır. Özü də bu təşkilat bir çox istiqamətlərdə fəaliyyət göstərir. Fəaliyyətlərinə görə, artıq BAMF dünyadan bir çox layihələrin gerçəkləşməsinə öz töhfələrini verə bilib. Xüsusilə ilk dövrlərdə bu təşkilatın Füzulidən - Qazağın düşmənlə həmsərhəd olan sonuncu kəndinə qədər böyük bir ərazinin demək olar ki, özünün ilk regional ofisi vasitəsi ilə əlaqələndirmişdir və burada həyata keçirtdiyi layihələrin nəticələri beynəlxalq təşkilatlar tərəfindən də birmənalı qarşılanırdı... Mən onu da bilirəm ki, Umud Rəhimoğlunun rəhbərlik etdiyi bu təşkilat həm də nəşriyyat sahəsində də xeyli işlər görə bilib. Təkcə əlifba dəyişikliyi ilə əlaqədar olaraq, ölkə prezidentinin imzaladığı sərancam əsasında nəşr edilən kitabların böyük bir qismini də BAMF oxuculara çatdırıb. Üst-üstə bu kitabların tirajının milyondan artıq olduğu indi bir həqiqətdir. Hətta Umud Rəhimoğlunun doğulduğu Füzuli rayonunun şəhidlərinin xatirəsinə Mahmud Qacarın yazıb tərtib etdiyi ”Füzuli şəhidləri” kitabının da hazırlanmasında, təqdimatında xidmətlərinin şahidi olmuşam. Ümumiyyətlə, bu gün Umud Rəhimoğlu bir söz adamı kimi müstəqilliyimizin 20 illiyinə töhfə olacaq ”Şəhidlər xiyabanı” ensiklopediyasını tamamlayıb oxuculara çatdırıb. O, xüsusi bir arzu ilə vurğulayır ki, bu kitab bizim şəhidlərimizə yaxşı bir abidə olacaqdır.

Bəli, Umud Rəhimoğlunun əvvəllər də etdiyimiz söhbətlərində, elə son görüşümüzdə də verdiyi bir çox bilgilər cəmiyyətə də bəlli olduğundan mən onları təkrar etmirəm. Çünki məqsədim Umud Rəhimoğlunun fəaliyyətini araşdırmaq, şərh etmək deyil, sadəcə mən istəyirəm ki, böyük sözdən ictimai fəaliyyətə səmt götürmüş və burada da kifayət qədər özünü təsdiq edə bilmiş dostum Umudun 65 yaşı ilə bağlı gözümün önündən, yaddaşımdan gəlib-keçənləri kağıza köçürüm. Amma nə qədər çalışıramsa onların hamısını sıralaya bilmirəm. Üstəlik də gündəlik qəzetlərdə onunla bağlı dərc edilən yazılar məni bir az fərqli yazı yazmağa, fərqli münasibət bildirməyə məcbur edirdi. Bax bu məqamda bir xatirə yaddaşımda təzələnir. Bu xatirə həmin vaxtlarda baş nazirin müavini vəzifəsində çalışan, gözəl yazıçı və ziyalımız Elçin Əfəndiyevin Umud Rəhimoğluna göndərdiyi təbrik teleqramı ilə bağlı idi. Elçin müəllim bu teleqramda Umud Rəhimoğlunu bir yaradıcı, qurucu ziyalımız kimi dəyərləndirmiş, ona bütün fəaliyyətində uğurlar diləmişdi. Bu isə mənim içimdən bir sualı qanadlandırdı:

- Umud Rəhimoğlu, bəlkə bu 65 yaşda imzanızı yox, ictimai fəaliyyətinizi izləyən oxucularınıza yaradıcılığınızdan ərməğan edəsiniz.

- Qardaş, mən sözdən, qələmdən uzaq düşməmişəm. İnşallah, günlərin birində oxucular yenə Umud Rəhimoğlu imzası ilə qarşılaşacaqlar. Hələlik, bu 65 yaşın çox ilini ictimai fəaliyyətə həsr etmişəm. Çünki bu daha çox vacib, daha çox gərəklidi. İçimdə olan söz mənimlə yol yoldaşıdı. Onu günlərin birində kağıza, kitaba çevirəcəm.

Bəli, bu gün ictimaiyyətin yaxşı tanıdığı və bir çox nüfuzlu təşkilatların üzvü olan əməkdar mədəniyyət işçisi, Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti, ictimai xadim, şair-publisist Umud Rəhimoğlu 65 yaşın təbriklərini qəbul edir. Bu təbriklər ölkənin hər yerindən və sərhədlərin o biri üzündən də gəlir. Bu onu göstərir ki, onun mənə pıçıldadığı bir sirr həqiqətdir. Umud Rəhimoğlu mənə dedi ki, MƏN 65 YAŞI DÜZ YAŞADIM!

Bəli, biz də səni təbrik edirik. İnanırıq ki, bundan sonrakı illərini də düz yaşayacaqsan.

***P.S.** Artıq fevralın ilk günlərindən başlayaraq Azərbaycan mediasında Umud Rəhimoğlu günləri yaşanır. Üç gün öncə Mətbuat Şurasında, dünən isə AYB-nin Natəvan Klubunda Umud Rəhimoğlu ilə bağlı möhtəşəm tədbirlər keçirildi. Bir daha şahidi oldum ki, ölkənin sayılıb-seçilən ziyalılarının qatıldığı bu tədbirlərdə hər kəs Umud Rəhimoğlunun düz yaşadığını söylədi. Deməli, mən yanılmamışam. Umud Rəhimoğlu ömrünü düz yaşayan kişilərdəndir.*

**Əbülfət MƏDƏTOĞLU**

---

## *“Bakıda Mirzə Cəlilin əzəmətli heykəli qoyulmalıdır...”*



**”Mirzə Cəlil müasir Azərbaycan nəsrinin bünövrəsini qoymuş böyük yazıçı, mütəfəkkir və maarifçidir. Təəssüflə qeyd etmək lazımdır ki, onun istedadı, zəhməti və xalqa xidməti nə Birinci Respublika dönəmində, nə də sonralar layiq olduğu qiyməti aldı. Onun hekayə janrında yazdığı nəsr əsərləri, ölməz ”Ölülər” dramı ədəbiyyatımızın klassik nümunələrindəndir. Həyatını riskə qoyaraq, min bir müsibətlə yaratdığı ”Molla Nəsrəddin” jurnalının Azərbaycan maarifçiliyində rolu, dini xurafata və mövhumata qarşı apardığı ölüm-dirim mübarizəsi kifayət edər ki, bu dahi şəxsiyyətin adı və ziyalı vətənpərvər obrazı daim xalqımızın yaddaşında yaşasın”.**

Adalet.az xəbər verir ki, bunu yazıçı Səfər Alışarlı deyib.

O, bildirib ki, əlbəttə, Bakıda Mirzə Cəlilin əzəmətli heykəli qoyulmalıdır:

”Müəyyən vəsait çatışmazlığı üzündən dövlət bunu edə bilmirsə, naxçıvanlı iş adamları bu vəsaiti öz aralarında toplayıb heykəli ərsəyə gətirə bilərlər. Bu iş təkcə vəsait deyil, həm də qeyrət tələb edən bir işdir. Fəxri xiyabanda qranitləşmiş yazıçı-şair dəbdəbəsilə müqayisədə Mirzə Cəlilin qəbrüstü abidəsi çox təvazökar görünür. Ancaq bizi qəbir dəbdəbəsindən çox xalqımıza layiq olan klassik mədəni irsə münasibət narahat etməlidir”.

Yazıçı deyib ki, Mirzə Cəlilin ədəbi, publisistik yaradıcılığında bircə dənə də olsun namussuz cümlə tapmaq mümkün deyil:

”Qranitlərin isə əksəriyyətinin altı mənəvi üfunətlə doludur. Bəlkə bu qısqanclıq Mirzə Cəlilin adını bu gün də unutdurur?! Qrafoman davamçılar Mirzə Cəlili unutdurmaq üçün onu kollaboranistlikdə, xalqa qarşı qərəzlilikdə, hətta plagiatda ittiham etməkdən çəkinmədilər. Onların hamısının birlikdə Azərbaycan ədəbiyyatına xidməti bir tək ”Poçt qutusu”, ”Usta Zeynal”, ”Danabaş kəndinin əhvalatları” qədər deyil. Ancaq məqsəd Mirzə Cəlili bir ədəbi, mənəvi bayraq olaraq ləkələmək, nüfuzdan salmaqla çağdaş gündəmin konkret ünvanlı ictimai mənafelərini irəli itələmək idi. Orada ədəbiyyatdan başqa nə desən vardı”.

**Vasif ƏLİHÜSEYN**

# Ümud yüklü qatar və uğur platforması

## Umud Rəhimoğlunun 65 yaşı üzərinə

(əvvəli 9-cu səhifədə)

Bəlkə orada gənc bir insanın canına-qanına işləyən fövqəladə təpər və fərqli hissiyyat sonralar Umudu Qarabağın tarixi abidələri, mənəviyatı, mədəni irsi, zəngin düşüncəli insanları haqqında çoxsaylı yazılar yazmağa, qədim kəhrizlərin gözünü açmağa, dədə-baba məzarlarını bərpa etməyə ruhlandırmışdı?! Bəlkə gənc şair aşağıdakı bu misraları qələmə almaq üçün gedib Monqolustanın uzaq sərhədlərinə düşmüşdü?..

*Mənim kipriklərim sərhəd dirəyi,*
*Ətalət gözümə yol tapmaz yatam!*
*Sinəmin altında əsgər ürəyi,*
*Özüm sülh arzulu bir kainatam!*

**5.**

Umud müəllimin ömürnaməsindən, əlbəttə, şərti olaraq deyirəm, daha bir yol ayrılır, o yol gənc şairi çiyninə götürüb, ədəbiyyat, mədəniyyət ocaqları alovlanan Bakı şəhərinə gətirir. Bəlkə heç o özü də xatırlamaz; yəqin ki, yaradıcılığın böyük yoluna qədəm qoyan qardaşımızı Aşağı Əbdürrəhmanlı kəndindən atası Rəhim kişi özünün Qaz-53 markalı yük maşının kabinəsinə əyləşdirib Horadizə gətirmiş, Naxçıvan-Bakı qatarıyla böyük şəhərə - paytaxta yola salmışdı.

Əsgərlikdən vətənə yenicə dönən Umud Mirzəyevin 1982-ci ildə az bir müddətdə Sumqayıt şəhərinin İstilik Elektrik Mərkəzində çalışmağı onun 65 illik ömür yolunda təbii ki, xırda ştrixdir. Lakin, biz onu da bu yolun balaca qollarından biri sayaq. Ən azı oçerk qəhrəmanının portretinin bütövlüyü üçün bu, düzgün seçimdir. Ümumiyyətlə götürsək, həm gəncliyində, həm də indiki yaşında Sumqayıt şəhəri Umud müəllim üçün hər zaman doğma məkan olub. Görünür bu onunla bağlıdır ki, şəhər yarandığı gündən, ötən əsrin 40-50-ci illərindən üzübəri kənd insanlarının sığındığı, zəhmət meydanına qoşulduğu, yaşadığı yerdir. Onun da bu şəhərdə özü, qohumları yaşayırdı. İndinin özündə Umud Rəhimoğlu hansı insaniyyətlə Qarabağa can atır, eləcə də Sumqayıtda insanlarla təmasa tələsir, xeyirdən, şərdən qalmır. Sumqayıtlılar Umudu özlərininki sayırlar.

Hə, axı biz qısa dayanacaqdan sonra gənc Umud Mirzəyevi ali filoloji təhsil almaq üçün daha böyük şəhərə, Sovet imperiyasının paytaxtı Moskvaya yola salmışdıq. Umud Mirzəyev müsahibələrində bu fakta dönə-dönə toxunub. Məlum olan budur ki, gənc şairin şeirləri dövrün görkəmli sənət adamlarının diqqətini çəkib; Xalq şairi Fikrət Qocanın, Xalq yazıçısı Elçinin, şair, nasir Seyran Səxavətin xeyir-duasıyla və "Litinstitut"da seçim turunda əsərləri bəyənilib uğurlu imtahandan sonra tələbə həyatı başlayıb.

Umud hələ tələbə ikən qüdrətli söz ustadı Elçin onun şeirlər kitabının Moskvada, Ümumittifaq oxucu auditoriyası üçün nəşrinə belə bir maraqlı rəy vermişdi: "Umud Mirzəyev öz nəslinin ən istedadlı və böyük ümid verən azərbaycanlı şairlərindən biridir. Onun şeirlərində çoxlu təravət, işıq çalarları var. Onlar qeyri-adi və orijinaldır. U.Mirzəyevin seçdiyi mövzulara nəzər salanda görünür ki, onu müasir dövrün problemləri, ürəkdən sevdiyi doğma torpağının tarixi dərindən düşündürür və narahat edir.

Şairin şeirləri yaddaqalan obrazlarla, parlaq metaforlarla zəngindir, lakin onların əsas dəyəri narahat, axtarışda olan düşüncədədir. U.Mirzəyev mürəkkəb müasir dövrü poetik baxımından dərk etməyə çalışır. Bütün bunlar ümid etməyə əsas verir ki, zaman keçdikcə gənc şairin səsi daha da möhkəmlənəcək və tam dolğunluq qazanacaq."

Hamımızın əzizi, heç birimizin yoxluğuna inanmadığımız Elçin müəllimin aşağı-yuxarı 40 il öncə ürək genişliyi, gənc yaradıcı insana qayğıkeşliyi ilə seçilən bu rəyi sonralar hər mənada özünü doğrultdu. Umud Mirzəyev Ədəbiyyat İnstitutunun hörmət-izzətlə başa vurub vətənə qayıtdı. 1987-93-cü illərdə onun "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunan yazıları, "Ulduz", "Azərbaycan" jurnallarında, almanatlardakı poetik və publisistik çıxışları istedadlı qələm sahibinin addımlarını möhkəmlətdi!

Mən bu yazını qələmə alarkən Umud Rəhimoğlunun şeir silsiləsini nəzərdən keçirməyi də zəruri saydım və həqiqətən o şeirlərdən süzülən "hərarət, təravət və işıq çalarları" şeirdən yaxşı başı çıxan 50 ilin şairini, yəni məni tərpətdi. Bu yöndə onun "Ulu sevgilər,ulu ürəklər", "Doğulan körpəylə doğuluruq biz", "Qoca qərib", "Özümə oxşayan şeirlər yazım", "Hamımız bir adamıq" və s. xüsusilə təsirlidir. O dövrdə Umudun şair niyyəti çox ciddi və siqlətli idi. O poetik yolun ən ətin reallaşan məqamına yetmək üçün həyəcanlanır, çaba göstərirdi. Yazırdı:

*Qayıdıb, hər yoldan qayıdıb -*
*Qayıdım gecənin sevgilərindən,*
*Qayıdım gündüzün qış yuxusundan,*
*Qayıdım sürtülmüş cığırdan, izdən,*
*Qayıdım ütülmüş sığallı sözdən -*
*Qayıdım atamın oğlu kimi mən*
*Özümə oxşayan şeirlər yazım,*
*Yazım, misralarım torpaq rəngində -*
*Atama oxşasın!*

*Və sonra*
*Anamın ağappaq telləri rəngdə,*
*Anamın heç zaman sığal görməyən*
*Çörəyə oxşayan əlləri rəngdə*
*Şeirlər yazım.*

*Üzümə, gözümə çıxan şeirlər,*
*Sevdiyim gözəlin gözütək duru,*
*Ürəkdən üərəyə axan şeirlər,*
*Özümə oxşayan şeirlər yazım!*

Umud Rəhimoğlunun bu şeiri müxtəlif baxış nöqtələrindən (mövzu, poetik qayə, bədii-estetik məziyyət) müfəssəl təhlilə layiqdir. Mən bu yükü araşdırmaçıların öhdəsinə buraxıram. Sadəcə ümumi şəkildə onu deyirəm ki, bu və əlimin altında olan digər şeirlərdə ötən əsrin 80-90-cı illərində yaranan milli poeziyamızın enerjisi, poetik qüdrəti ləyaqətlə ehtiva olunur.

**(Oçerk)**

**6.**

Bəs yaxşı, Umud Rəhimoğlu ümumən ədəbiyyatımıza gətirdiyi fərdi poetik-publisistik ovqatdan niyə gen düşüb, bunu bir özü bilir, bir Allahı bilir.

İndiki halda Xalq yazıçısı Elçinin xeyir-dua rəyindəki "onu müasir dövrün problemləri, ürəkdən sevdiyi doğma torpağın tarixi dərindən düşündürür və narahat edir" cümləsi üzərində yenidən dayanıram. Çünki Umud Rəhimoğlu Mirzəyevin 1992-ci ildən sonrakı həyatının mahiyyətini, onun "poeziyaya soyuqluğunun" səbəbini Elçin müəllimin bu cümləsi qədər heç bir dəyərləndirmə ifadə edə bilməz. Umud Mirzəyev poeziyadan elə bir məqamda qopdu ki, vətənin tifağı dağılırdı, özül daşları qopub tökülürdü.




Tökülən o daşlar sən idin, mən idim - daşlar daş deyildi, vətəndaşlar idi. Vətənə təmənnasız xidmətin forması, şəkli o qədər də əhəmiyyət daşımır. Uçan divarların altına çiyin vermək məqamı yetişmişdi. Açığı, belə uçurunun qarşısında dayanmağa çoxluğun həvəsi yox idi. Söz... söz isə aciz və çarəsiz görünürdü!

Əslində Umud bəy qəti qərarını hələ Moskvada olarkən vermişdi, bəlkə bundan da əvvəl Vətənin, Xalqın ən zəruri ehtiyaclarına qarşılıq vermək, doğma torpağın bir parçası olmaq təşnəliyi ona qanla ötürülmüşdü. 1988-ci ildə ana qohumları, irəliki deportasiya hadisələrində bir neçə nəsil əvvəl yaşamış əqrabalar Zəngəzurun allı-güllü ellərindən, obalarından zorla, hədə-qorxuyla, qətliamlarla qovulub çıxarılmışdılar.Qarabağın müqəddəs torpaqları, onun yüz dəfə, min dəfə gəzib dolaşdığı ellər, obalar erməni cəlladlarının tapdağı altında qan ağlayırdı.

İl... 1992.. Qara Yanvarda axıdılan qanın istisi hələ soyumamışdı. Onun təvəllüd tapdığı fevral ayı Xocalı soyqırımını günbəgün yaxınlaşdırırdı, Şuşa şahlıq taxtından düşmüşdü, düşmən Füzulini işğal edib Beyləqan aralığına yerləşmişdi.

Azərbaycanın boğulan səsini dünyaya çatdırmaq qaçqın və köçkünləri aclıqdan, yuvasızlıqdan qorumaq qədər fövqəladə vəzifə idi.

Umud Mirzəyev Moskvada birgə oxuduğu dostlarını, qələm yoldaşlarını -çağırdı, dəvət etdi... demirəm, onları harayladı! Məhz belə bir xaosda meydana atılan Beynəlxalq Avrasiya Mətbuat Fondu Umud Mirzəyevin şah əsəri, yaradıcılığının zirvəsidir!

**7.**

Oçerk janrının tələblərinə uyğun olaraq bu yazının ikinci, ən əsas hissəsinin inşa eləməyə başlamalı, ardıcıllıqla BAMF-ın öncə Umud Mirzəyevin düşüncəsində, Vətən sevgisi tarlasında göyərən, Azərbaycan həqiqətlərini bütün dünyaya bəyan etmək səlahiyyəti qazanan təşkilatın fəaliyyəti barədə ən azı yığcam tarixi, publisistik xronologiya yaratmalıyam.Təşkilat barədə alınan qısa konspekt həm də Umud Mirzəyevin tərcümeyi-halı, yaxud bu bioqrafiyanın ən əhəmiyyətli hissəsi deməkdir.

O xronologiyada yazılmalıdır ki, təsisçisi jurnalistlər, müxtəlif dövlətlərin nümayəndələri olan, baş ofisi Bakıda yerləşən BAMF-ın əsas vəzifəsi hərbi münaqişələrin baş verdiyi rayonlardan obyektiv informasiyanın toplanması, yayılması, tarixi, siyasi baxımdan öyrənilməsi və təhlili olmuşdur. Burada dədə-baba yurdumuz Qarabağ uğrunda ölüm-dirim mübarizəsinə dair informasiyalar ön planda idi - həmişə, otuz il ərzində belə oldu...

80-90-cı illərdə xarici jurnalistləri, deputatları, yaradıcı ziyalıları səfərbər etmək, onlari təmas xətti deyilən, əslində erməni quldurlarının silah-sursatlarla möhkəmləndirdiyi həyat üçün hər dəqiqə təhlükəli əraziyə aparmaq o qədər də asan məsələ deyildi. Toplanmış informasiyanı həm yerli, həm xarici mediada yerləşdirmək heç də havayı başa gəlmirdi.

Yazmalıyam ki, BAMF-ın təsir imkanlarını genişləndirmək üçün Umud Mirzəyev beynəlxalq statusun təmin olunmasına xüsusi diqqət yetirmiş, ciddi səy göstərmişdi.

Nəticələri sıralamalıyam , yazmalıyam ki BAMF Qaçqınlar və Sığınacaq Axtaranlar üzrə Avropa Şurasının, Beynəlxalq Sülh Bürosunun, Beynəlxalq Mətbuat İnstitutunun üzvüdür. Təşkilat Azərbaycanda fəaliyyət göstərən bütün mətbuat qurumlarında, QHT birliklərində ən yüksək səviyyədə təmsil olunur.

Yazmalıyam ki, bu gün merdia və vətəndaş cəmiyyətinin inkişafı, qaçqınların və məcburi köçkünlərin problemləri, sülhməramlı aksiyalar və münaqişələrin həlli, insanın inkişafı, nəhayət təhsil - ayrıntılarıyla beş istiqamətdə qətiyyətlə fəaliyyət göstərən qurum məhz Umud müəllimin, onun rəhbərlik etdiyi işçi korpusun gərgin və intellektual əməyi sayəsində BMT-nin İqtisadi Sosial Şurasının əsas məşvərətçi statusuna sahib olmuşdur.

Yazmalıyam ki, təşkilatın dəstəyi ilə həm birinci, həm də ikinci Qarabağ müharibəsi zamanı yüzlərlə xarici jurnalist döyüş bölgələrinə səfərlər edib. Dünyaca məşhur Əl-Cəzirə media quruluşu bölgədəki həqiqətləri əks etdirən 5 filmdən ibarət sənədli telexronikanı dünya ictimayətinə çatdırıb.

BAMF 2000-ci ilin əvvəlindən BMT-nin inkişaf proqramının dəstəyi ilə mina təhlükəsizliyi üzrə mübarizə proqramına qoşulub, ANAMA-nın əsas partnyorlarından biridir.

BAMF hər il beynəlxalq tələblərə uyğun hesabatlar hazırlayıb yayır. Həmin sənədlərin təkcə bir ilinə aid toplusunu gözdən keçirmək yetər ki görülən işin necə böyük miqyasa malik olduğunu təsəvvür edək.

Hər ay, hər həftə yenilənən ideyalar, daha bol ümidlər, daha ciddi uğurlar...

Məncə bütün bunlar məxsusi, ayrı bir oçerkin mövzusudur.

### *Epiloq*

**Biz kənd uşaqlarıyıq, o üzdən vağzalları çox sevirik. Axı qapalı mühitlərtən çıxıb dünyaya can atanları yola salan da, qarşılayan da vağzallardır. Uzun fasilədən sonra, yaxın macallarda güzarım Bakı dəmir yolu vağzalına düşmüşdü. İlahi, buralar nə qədər dəyişib, səliqə-səhman, müasir memarlıq, yeni avadanlıqlar, yüksək xidmət, geyim-kecimi xoş təəssürat oyadan yerli və əcnəbi insanlar... Adam buralardan ayrılmaq istəmir.**

**Bu da platformalar... abadlaşan, lakin təməl quruluşunu dəyişməyən platformalar ... sükutu dinləyirəm... Amma, nədənsə mənə elə gəlir ki, diktor son məlumatları elan edir: "Qatarı qarşılayan vətəndaşlar, 65-ci reys üzrə Qarabağdan gələn sürət qatarı ikinci platformaya qəbul olunur!"**

**65-ci reys varsa, demək - 70, 80, 90-cı... resylər də var!**

**Bizim Bakı şəhərində isə ümid, arzu və qalibiyyət yüklü o sürət qatarlarını qarşılayan platformaların sayı dörddür...**

**Bax, mənim köhnə stildə demək istədiyim yeni xəbər budur, bilmirəm yazı oçerk janrının tələblərinə cavab verir, ya yox?!**



ETİBAR ƏBİLOV

# KÜSÜLÜ QALMAYIN...

HEKAYƏ

**Bu gün bir dostum öldü.**

**Küsülü idik.Özü də küsülülüyümüz adi şıltaqlıqdan olmuşdu.Arada belə küsülülüyümüz olurdu: 1 gün, 3, 5 gün, uzağı 1 ay. Sonra barışardıq.Küsülü qala bilmirdik. Küsəndə də bilirdik ki, uzağı 1 aya barışacağıq.**

**Bu dəfə barışmağa imkanımız olmadı. Ölümü qəfil olub.Ürəyi tutub və bir an içərisində hər şey bitib... Biz ölümün haqq olduğunu, bir gün bu dünyadan köçəcəyimizi bilirik. Amma, ölümün nə qədər yaxında olduğu fikrini öz həyatımıza aid edə bilmirik. Bu haqda heç fikirləşmirik də. Fikirləşəndə də, fikrimizi bu ağır gerçəklikdən tez yayındırırıq. Bir də əcələ nəzarət eləmək mümkünsüzdür axı... Belə olacağını nə biləydim?... Nə qədər ağır olsa da, artıq olan olub. Dostum məndən küsülü getdi...**

**...Onunla bağlı bir xatirə yadıma düşür. Bir dəfə, növbəti küsülülüyümüzdən sonra barışanda və bu barışığımızı çay süfrəsi arxasında qeyd edəndə, dostum mənə:**

**-Mən səndən küsülü ölsəm, bu küsülülüyə görə ruhum, o dünyada əzab çəkər- demişdi.**

**Mən dostumu yaxşı tanıyırdım... Dostum da,mən də insan ruhunun ölməzliyinə həmişə inanmışıq. Dostumun ruhunun bu küsülülüyə görə əzab çəkdiyini mən artıq ruhən hiss edirəm.**

**Elə mən də, nə qədər ömrüm var,qalan bütün ömrümü bu yersiz şıltaqlığımın, səbəbsiz küsülülüyümün,bu səbəbdən də dostumun məndən küsülü olaraq öldüyünün əzabını çəkəcəyəm.**

**19 yanvar 2026,**
**Neftçala**

## Alimlər hafizəni yaxşılaşdıran təbii vasitələr aşkarladı



**Britaniyalı alimlər müəyyən ediblər ki, paçuli, qreypfrut və kardamonun efir yağlarının inhalasiyası sağlam insanlarda yaddaş və diqqəti yaxşılaşdırır.**

Adalet.az xəbər verir ki, tədqiqatın nəticələri "Human Psychopharmacology (HPP): Clinical and Experimental" jurnalında dərc olunub.

Eksperi mentdə 90 könüllü iştirak edib və onlar üç qrupa bölünüblər: birinci qrup efir yağlarının kombinə olunmuş qoxusu olan məkanda koqnitiv tapşırıqları yerinə yetirib, ikinci qrup yaddaşa müsbət təsiri ilə tanınan adaçayı qoxusu olan mühitdə testdən keçib. Üçüncü qrup isə təmizlənmiş hava olan otaqda sınaqdan keçirilib.

İştirakçılar qoxuların tədqiqatın bir hissəsi olduğunu bilməyiblər. Nəticələr göstərib ki, üçüncü qrupun iştirakçıları işçi yaddaşın idarə olunması, sözlərin yadda saxlanması və mürəkkəb hesablamalar baxımından daha yaxşı nəticələr əldə ediblər.

Test başa çatdıqdan sonra iştirakçılar həmçinin daha aşağı yorğunluq səviyyəsi hiss etdiklərini bildiriblər. Yaxın infraqırmızı spektroskopiya üsulu ilə aparılan beyin qan axını ölçmələri beynin metabolik aktivliyinin artdığını göstərib və bu təsir təkcə adaçayının təsirini üstələyib.

**Qarışığın tərkibinə paçuli, neroli, qreypfrut, kardamon, ladan, nard, rozmarin və limonotu efir yağları daxil olub. Qeyd edilir ki, bu yağların hər biri əvvəllər diqqətin artması və ya emosional vəziyyətin dəyişməsi ilə əlaqələndirilib, lakin məhz onların kombinasiyası ən ifadəli təsiri verib.**

# Kövşən iyi və ya kənd yaddaşının poetikasına baxış



*Tural ADIŞİRİN*
*AMEA-nın Şəki Regional Elmi Mərkəzinin "Ədəbi-mədəni mühit və folklor" şöbəsinin elmi işçisi*

**XX-XXI yüzil Azərbaycan poeziyasında kənd mövzusu yalnız etnoqrafik və ya nostaljik təzahür kimi deyil, həm də milli-mənəvi kimliyin poetik ifadə forması kimi çıxış edir. "80-ci illər ədəbi nəsli"nin ən parlaq nümayənlərindən biri olan Qoca Xalid yaradıcılığı bu kontekstdə xüsusilə diqqətəlayiqdir. Onun şeirlərində kənd, torpaq, təbiət və yaddaş motivləri bədii dekorasiya funksiyası daşımır; əksinə, poetik düşüncənin mərkəzi ideya-emosional oxunu təşkil edir.**

Qoca Xalid poeziyasında "kövşən iyi" anlayışı əsas poetik simvollardan biridir. Kövşən iyi onun poetik dünyasında üç əsas semantik qat yaradır: zəhmət və torpaq yaddaşı, təbiilik və səmimiyyət, süni şəhər estetikası ilə qarşıdurma.

***"Mənim şeirlərim ətrinə görə -***
***Heç kəsin şeirilə dəyişik düşməz."***

Bu misralarda şair öz poeziyasını fərqləndirən əsas keyfiyyəti formal yenilikdə yox, mənəvi mənbədə görür. "Ətir" burada metaforik anlayışdır; lakin bu ətir süni deyil, torpaqdan gələndir. Şair açıq şəkildə müasir poeziyada artan süni estetikaya etiraz edir:

***Düşmən sevincini duydum uzaqdan,***
***Bezdim dinləməkdən dost gileyini...***
***Süni ətirlərin artdığı vaxtda***
***Sevən olacaqmı kövşən iyini??***
***Kövşən iyi gəlir şeirlərimdən.***

Bu bənd demək olar fəlsəfi kulminasiyadır. Süni ətirlərlə kövşən iyinin qarşılaşdırılması ontoloji seçim məsələsidir: təbiilikmi, yoxsa saxta parıltımı? Şair oxucuya sual verir, lakin cavab vermir - bu, akademik baxımdan açıq fəlsəfi diskurs yaratmaq üsuludur.

Qoca Xalidin şeirlərində daha bir diqqətçəkici detal təbiətin antropomorfik poetikasının qurulmasıdır. Onun şeirlərində təbiət insaniləşdirilir: çınar susur, külək pıçıldayır, bildirçinlər giley edir, çöllər yatır. Bu antropomorfizm şairin dünyagörüşündə insan-təbiət vəhdətinin ifadəsidir.

***Unutmuram bütün ağrı-acını;***
***Nə olsun ki girən yoxdu qoluma??***
***Külək özü sığallayır saçımı,***
***Günəş özü nur çiləyir yoluma...***

Üçüncü və dördüncü misralarda insandan təbiətə keçid var. Burada təbiət ünsürlərinin antropomorfizasiyasını müşahidə edirik. Külək "sığallayan", günəş isə "nur çiləyən" subyekt kimi təqdim edilir. Bu semantik keçid təsadüfi xarakter daşımır; əksinə, sosial boşluğun təbii harmoniya ilə əvəzlənməsi prosesini əks etdirir..Bu antropomorfizasiya yalnız bədii effekt yaratmaq məqsədi daşımır, insanla təbiət arasında simvolik empatiya münasibəti qurur. Və yaxud "Kim deyir ki qaya kardır, dərə key " - misrasında təbiətin "eşidən" və "duyğulu" varlıq kimi təqdimatı xalq poeziyası və folklor düşüncə tərzi ilə səsləşir. Şair təbiəti insandan ayırmır; əksinə, insanın psixoloji vəziyyəti təbiətin halı ilə paralel verilir.

Qoca Xalid poeziyasında mühüm tematik xəttlərdən biri şəhər-kənd qarşıdurmasıdır. Şəhər - şöhrət, imtahan, imkan və təzyiq məkanıdır; kənd isə - bahar, torpaq, yaddaş və azadlıq deməkdir.

***Bir də geri qayıdarmı ötən an?***
***Güllər bir də öz şaxını əyərmi?***
***Alnıaçıq qurtardığım imtahan***
***İtirdiyim bir bahara dəyərmi?!***

Bu sual poetik subyektin əsas faciəsini açır: ictimai uğur naminə mənəvi itki. Şair bu problemi həm didaktik mövqedən, həm də daxili tərəddüd və emosional ağrı ilə təqdim edir. Bu isə onun şeirlərinin psixoloji dərinliyini artırır.

***Dostlar da cürbəcür işə qoşulub,***
***Köçdülər, köçəri quşa qoşulub...***
***Mən isə doqqazda daşa qoşulub***
***İlişib qalmışam kənddə-kəsəkdə.***

Şairi "İlişib qalmışam kənddə-kəsəkdə" misrasını taleyin poetik qəbul forması kimi başa düşmək olar. Bu şeirdə şair öz taleyini ironik, lakin acı bir dillə qəbul edir. "İlişib qalmaq" ifadəsi həm fiziki, həm də sosial-mənəvi durğunluğu ifadə edir. Dostlar köçür, imkanlar dəyişir, lakin poetik subyekt torpaqdan qopa bilmir. Burada kənd artıq yalnız məkan



kimi nəzərə çarpmır - taleyə çevrilmiş məkan kimi diqqətçəkicidir..

***Bürüyür qəlbimi həm də bir həsəd.?***
***Bəlkə də bu dərdi çoxusu çəkir;***
***Şairin şəklini şəhərdə ? qəzet,***
***Kənddəsə ? arxlardan axan su çəkir.***

Bu şeir kənd-şəhər qarşıdurması, şöhrət-sadəlik dilemması və daxili mənəvi parçalanma motivlərini özündə cəmləyən lirik-psixoloji xarakterli ən gözəl şeirlərindən biridir. Şeir mahiyyət etibarilə belə bir sual qoyur: Şöhrət üçün köklərdən qopmaq olarmı? Lirik qəhrəman nə şəhəri tam qəbul edə bilir, nə də kəndi tərk edə bilir. Bu isə onu mənəvi limbo vəziyyətində saxlayır. Deməli, şeir seçimdən çox, ikiliyin faciəsini ifadə edir. Burada kənd yalnız məkan deyil, milli kimliyin və yaddaşın rəmzidir; şəhər isə müasirliyin və görünürlüyün məkanıdır. Şair bu iki qütb arasında qalan "keçid insanı"dır. Mətn göstərir ki, şöhrət insanı ucaltsa da, köklərdən uzaqlaşdırır; köklər isə insanı qorusa da, onu görünməz edir. Şairin dilemması məhz bu paradoksun içində yaşamasıdır.

***Şeir yazdım burda aydın səhərdən,***
***Nəğmə qoşdum burda adi yarpağa.***
***Köçsəm də, heç baş açmaram şəhərdən,***
***Amma kənddə lap yaxınam torpağa.***

Bu şeir şəhər-kənd qarşıdurmasını müxalif qütblər kimi göstərmir, eyni taleyin iki fərqli mədəni məkanı kimi təqdim etməsi ilə diqqət çəkir və məhz bu yanaşma onun poetik-estetik dəyərini yüksəldir. Mətnin əsas ideyası yaradıcılığın məkanla münasibəti yox, yaradıcılığın məkanı necə yenidən yaratmasıdır. Şair "kənddə yaşayıram" deməklə poeziyanın mövcudluq şərtini müəyyənləşdirir: harada şeir yazılırsa, mərkəz də oradır.

***Tapanacan axtardığım yolu mən***
***Cığırlarla aza - aza getmişəm.***
***Nə işim var şəhərlərdə solum mən,***
***Hazır kənddə çiçək kimi bitmişəm.***

Bu bənd isə poetik yol metaforası üzərində qurulub. "Cığırlarla aza-aza getmək" ifadəsi həm fiziki, həm də mənəvi axtarışı bildirir. Şairin "şəhərlərdə solmaq" istəməməsi məkan nifrəti yox, yaradıcı uyğunluq prinsipinin ifadəsidir. "Hazır kənddə çiçək kimi bitmişəm" misrası isə kəndin şairi formalaşdıran, onu yetişdirən mədəni torpaq olduğunu göstərir. İdeya baxımından şeirdən belə nəticə çıxır: şair məkanı seçmir, məkan şairlə mənalanır. Kənd burada periferik yox, mərkəzi dəyərdir; şəhər isə alternativ deyil, sadəcə başqa ritmdir. Şeir oxucuya kənddə qalmağı yox, öz yaradıcılıq torpağını tanımağı təklif edir.

Qoca Xalidin şeirlərində kənd və şəhər anlayışları insanın daxili varlığında müxtəlif psixoloji və mənəvi durumları təmsil edən həyat təbəqələri kimi təqdim olunur. Şair üçün kənd yalnız coğrafi məkan kimi başa düşülmür; o, torpaqla bağlılıq, ilkin təbiilik və mənəvi köklərin daşıyıcısıdır. Şəhər isə modern həyatın dinamikası fonunda formalaşan sınaq, hərəkət, daxili gərginlik və tərəddüd məkanı kimi poetik məna qazanır. Beləliklə, bu iki məkan şairin poetik sistemində qarşı-qarşıya qoyulmur, bir-birini semantik baxımdan tamamlayan anlayışlardır.

Qoca Xalidin poeziyasında əsas problematik xətt "harada yaşamaq" sualından çox, "harada və necə özün olaraq qalmaq" məsələsi üzərində qurulur. Kənd və şəhər burada dəyərlər iyerarxiyasında biri digərindən üstün tutulan məkanlar deyil; onlar insan taleyinin, həyat təcrübəsinin və mənəvi inkişafın müxtəlif mərhələlərini ifadə edən simvolik müstəvilərdir. Şair nə kəndi romantik ideal səviyyəsinə yüksəldərək şəhəri inkar edir, nə də şəhər həyatını modern üstünlük kimi təqdim edib kəndi arxaik məkan kimi kölgədə qoyur. Əksinə, onun poeziyasında kənd yaddaşı ilə şəhər təcrübəsi dialektik vəhdətdə təqdim olunur və bu vəhdət insanın daxili bütövlüyünün formalaşmasında əsas rol oynayır.

Bu kontekstdə Qoca Xalidin şeirləri kənd-şəhər qarşıdurması üzərində qurulan ənənəvi diskursdan kənara çıxır. Buradakı əsas qarşıdurma məkanlar arasında yox, təbii ilə süni, səmimi ilə saxta, daxili mənəvi sədaqətlə zahiri parıltı və sosial maskalar arasındadır. Şairin poetik mövqeyi daha çox insanın mənəvi duruşuna və daxili etik seçiminə əsaslanır. Məhz bu yanaşma Qoca Xalid poeziyasını həm kənd mühitindən gələn, həm də şəhər təcrübəsi yaşayan oxucu üçün eyni dərəcədə anlaşılan, qəbul edilən və estetik baxımdan yaxın edən əsas amillərdən biri kimi çıxış edir.

Qoca Xalidin poeziyası müasir Azərbaycan ədəbiyyatında kənd yaddaşının estetik müdafiəsi, təbiətə söykənən mənəvi fəlsəfə və şəxsi dürüstlüyün poetik ifadəsi kimi dəyərləndirilə bilər. Onun şeirlərində torpaq, kövşən, yağış, külək və xatirə - obraz olmaqla yanaşı, həm də mənəvi yaddaş, milli kimlikdir. Şairin kənd yaddaşında qorunan bu poetika nostalji bir geri dönüş yox, itirilmək təhlükəsi ilə üz-üzə qalan milli varlığın səssiz müdafiəsidir. Torpaq burada sadəcə fiziki məkan kimi diqqəti cəlb etmir, insanın taleyi ilə yoğrulmuş bir mənəvi məkan kimi çıxış edir; kövşən - zəhmətin izi, yağış - təmizlənmə və ümid, külək - zamanın nəfəsi, xatirə isə yaddaşın sönməyən işığıdır. Beləliklə, şairin poetik yaddaşı yalnız keçmişi xatırlatmır, eyni zamanda oxucunu sual qarşısında qoyur: müasir insan öz kökləri ilə hansı məsafədə dayanır? Qoca Xalidin şeirlərinin mənəvi gücü də elə bundadır. Onun poeziyasında milli kimliyə qayıdış şüar xarakteri daşımır, süni pafosla deyil, daxildən gələn mənəvi ehtiyac kimi təqdim olunur. Şair üçün milli kimlik, mənəvi dəyərlər torpağın qoxusunda, kənd yaddaşında, sadə insan talelərində yaşayan canlı bir gerçəklikdir. Nəticə olaraq deyə bilərik ki, Qoca Xalid oxucunu nə keçmişə qapadır, nə də onu müasirlikdən ayırır - əksinə, zamanlar arasında körpü quraraq milli varlığın davamlılığını şeirlərində bədii şəkildə mükəmməl əsaslandırır.



*Vaqif Yusifli*
*Filologiya elmləri doktoru*

# Qubada bir şair yaşayır

## (Zakir Məmmədin 70 yaşı tamamdır)

**Qubada öncə Ramiz Qusarçaylını tanıdım. İlk şeirlərindən möhtəşən "Vətən" poeması qədər mükəmməl ŞAİR obrazı ilə qarşılaşdım. Müasir Azərbaycan poeziyasında Ramizin yeri əvəzsizdir. Bu haqda yazmışam da...**

**Amma Qubada bir şairimizdə yaşayır - Zakir Məmməd. O Zakir Məmməd ki, onun adının qarşısında heç bir tərəddüd eləmədən böyük hərifllərlə ŞAİR kəlməsini yaza bilərik. Amma gecikmişik bu ŞAİR kəlməsini yazmağa, çünki 43 il bundan öncə böyük şairimiz Hüseyn Arif Zakiri - Qubadan onun**



**xeyir-duasını almaq istəyən bir kənd müəllimini ŞAİR adlandırmışdı: "Qarşımdakı əsil şairdir. Misralar duru, fikirlər aydın, məzmunlu idi. Onu dinlədikcə düşünürdüm:Zakirin şeirləri ona görə səmimi və təbiidir ki, o, həyatı uzaqdan seyr etmir, ona fəal münasibət bəsləyir, hər cür əllaməçilikdən, saxtakarlıqdan, mücərrəd uydurmalardan uzaqdır"!**

*Bu yolu gəl gedək, izn ilə gedək,*
*Bir az ağır-ağır, hüzn ilə gedək.*
*Beş ilə on ilə, yüz ilə gedək;*
*Gedib çıxa biləк mənzil başına.*

*Getdikcə bu yol da qurtaran deyil.*
*Yol gedən - yol kəsib artıran deyil.*
*Bu yol gedənləri qaytaran deyil,*
*Aparıb çatdırar mənzil başına.*

**O yol şeirə, sənətə ömrünü həsr edəcək bir kənd müəlliminin sona qədər addımlaya biləcək poeziya yolu idi. Geri qayıtmaq mümkün deyildi. Çünki:**

***Ömür nədir, yaş nədir?***
***Bu can nədir, eşq nədir?***
***Könlüm sözə təşnədir***
***Bir susuz dəvə kimi.***

**Zakir Məmməd o YOLun hər cür əzabına dözdü. Kimsə onun şeirləri haqqında naqolay tərzdə düşünmədi də. Doğrudur, onun bir şair və əsl ədəbiyyat adamı kimi xarakterini, obrazını yaratmağa o qədər də meyilli olmadılar. Amma nə dəxli? Sabir demişkən: "Şeir bir gövhəri yekdaneyi ziqiymətdir".Şeirlər yazılır, sonra oxunur, olsun ki, vaxtında qiymətini almır, amma illər keçir, yazılan şeirlərin yaşarılığını təyin edən ZAMAN gəlir.**

**Zakir Məmməd 70 yaşına qədəm qoyub. Amma o YOL hələ bitməyib. Çünki Zakir Məmməd şeir yazmağı və şair olmağı qabaqcadan düşünmür, şeir onun taleyidir.**

***Mən odla oynamışam***
***Yanıb kül olmamışam,***
***Mən suyla oynamışam.***

***Əlim, ayağım quru.***
***Mən sözlə oynamışam,***
***Bu, ayrı bir əhvalat***
***Bu ayrı bir əhvalat.***

**Sözlə oyun oynamaq sözə tapınmaq, onu ram etmək ya ona məğlub olmaq... Zakir Məmmədin sözlə oyunu elə əsl şairlərin sözü ehya eləmək, onun gücü ilə ürəyinin odunu sözlərin yaratdığı mənalarda yaşatmaq deyilmi?**

**Zakir Məmmədin bütün şeirlərini 2012-ci ildə onun "Bağışla"şeirlər, poemalar kitabına nəzər saldıq. Nə yazıb yox, nədən yazmayıb sualını veririk. Baxın:**

***Su kəssə də aranı,***
***Dağ tutsa da oranı,***
***Göy yağdırsa boranı***
***Qalxsa qar dizə, gedək,***
***Çıxıb Təbrizə gedək.***

***

***Alıb biz də söz döndərək,***
***Aöz alıb gedənə sarı.***
***Bu dinləyən könlümüzü***
***Çevirək Vətənə sarı.***

***

***Nə vaxtdır boynu əyri yox,***
***Bənövşələr düz bitir.***
***Boyun əyir boynu düzlər,***
***Boynu yoğun kişilər.***
***Bənövşəli çəməndə***
***nə vaxtdır***
***ot yox, öküz bitir.***

***

***Bu dağlarda***
***İgidi igid eyləyən atı idi.***
***At həm ona arxa idi,***
***Həm də onun adı idi.***
***Gün-güzəran, dolanacaq,***
***Yanan lampa, yanan ocaq.***

***Sadə idi, adi idi***
***Halallığa boyun əymək,***
***Qanun idi, qayda idi,***
***Əmin-səmin kəslər vardı,***
***Hər biri***
***bir Sabir idi, Hadi...***
***Bu dağlarda nələr yoxdu!***
***Hanı idi?***

***

***Yurd-yuva tiksəm özümə,***
***İmarəti sən olarsan.***
***Yeddi iqlimdən adlasaq,***

**Mən bu şeir parçalarına münasibət bildirmədim. Onlar öz-özünü təhlil edir.**

**Zakir Məmməd ədəbi tənqidlədə məşğuldur. Hiss olunur ki, o, ədəbiyyat haqqında fikir və mülahizələrini elmi-publisistik formada ifadə etməyə can atır və çox zaman buna nail olur. Həm də heç kimin təsirinə qapılmır, yalnız öz düşündüklərini qələmə alır.Onun Xalq şairi Rəsul Rzaya həsr etdiyi iki məqaləsi ("Rəsul Rzanın doğum tarixi", "Ömürün rəngləri", "Rənglərin ömrü") sərbəst düşüncə tərzini əks etdirir. Yazır: "R.Rzanın poeziyasını bir "sərgi salonu"na bənzətsək, orda diqqəti cəlb edən bir şəkil görürsən - adı "insanlığın ömür yolu". Rəsul Rzanın "Rənglər" silsiləsinə həsr etdiyi məqalə də orjinallığı ilə seçilir".**

**Zakir Məmməd və onun yaradıcılığı haqqında çox şey danışardım. Və danışacağam da...**

**Allah ona uzun ömür bəxş eləsin.**



*Elmir Həsən,*
*Ədəbiyyatşünas*

# Alpay Azərin "Taxma kirpiklər" hekayəsində maddi və ruhani dəyərlər arasındakı ziddiyyət

**Sovet ədəbiyyatı nəzəriyyəçisi və tənqidçisi Viktor Şklovski qeyd edirdi ki, yazıçı həyatda dəyərlər arasında baş verən ziddiyyətləri sadə və diqqətçəkən dildə çatdırmağı bacarmalıdır. Müasir ədəbiyyatımızda bu xüsusiyyətləri öz yaradıcılığında birləşdirən və müxtəlif mövzulu hekayələri ilə tanınan yazıçı Alpay Azərdir. Onun "Taxma kirpiklər" hekayəsi həyatın acı reallıqları: itki, xəyal qırıqlığı, məsuliyyət və vicdan kimi dərin emosional mövzulara toxunur.**

"Taxma kirpiklər" hekayəsi, ilk baxışda məişət zəminində bir dram kimi görünsə də, əslində identiklik (özünüdərk), yadlaşma və həqiqətin süni qatları barəsində fəlsəfi mövzulu hekayədir.

Hekayənin üslubu Raymond Karver və ya Ernest Heminquey yaradıcılığına xas olan "Aysberq nəzəriyyəsi"ni xatırladır. Müəllif hadisələri çox sadə, bəzən hətta soyuq bir dillə təsvir edir, lakin bu sadəliyin altında böyük bir emosional təzyiq gizlidir. Taxma kirpiklər sadə bir metafora hesab olunmamalıdır. Bu detal əsərdə mərkəzi simvoldur. Bu, sadəcə bir kosmetik vasitə deyil, insanın öz gerçəkliyini gizlətmək üçün istifadə etdiyi "maska"dır. Dünya ədəbiyyatında Luici Pirandellonun(İtalyan yazıçısı və dramaturqu) "Maska və üzlər" fəlsəfəsi ilə səsləşir. Qəhrəman taxma kirpiklər sayəsində dünyaya başqa bir pəncərədən baxmağa və ya dünyanın ona başqa cür baxmasına çalışır.

Hekayə görüş səhnəsiylə başlayır və fərqli xarakterlər qarşılaşdırılır: Uşaqlıq dostu olan iki bacı - Lamiyə və Jalə - digər bacıları Nisə ilə birlikdə böyük villada görüşürlər. Onlar emosional-ruhsal gərginlik və ağrı içindədirlər: uzun zamandır özlərini toplaya bilmirlər, çünki bir müddət öncə ailəyə ağır itki üz verib.

Əsərin əsas dramatik süjeti - Lamiyənin qardaşı Nadirin xaricdə - Stokholmda - ağır maşın qəzasında dünyasını dəyişməsi, ölümündən sonra onun nəşinin Bakıya gətirilməsi və dəfn məsələlərinin bacısı Lamiyənin üzərinə düşməsi ilə bağlıdır. Lamiyə uzun müddət stress, bürokratik çətinliklər, notarius, sənədləşmə, pul xərcləri (otuz min avrodan çox) və emosional sarsıntılarla üzləşir.

Hekayədə həmçinin Lamiyənin həyat tərzi göstərilir: o, Bakıda iki gözəllik salonu və bir estetik klinika işlədirdi, tez-tez Dubaya, Berlinə, Parisə uçur, bahalı həyat sürürdü. Verilən detallardan görünür ki, o asan həyatın içində idi - amma bu itki və məsuliyyət onu həyati çətinliklərlə üzbəüz qoydu.

Eyni zamanda, Lamiyə və Jalə arasındakı dostluq, sosial status, qısqanclıq, qadınlar arasındakı münasibət, cəmiyyətin gözləntiləri - bütün bunlar hekayədə yer alır. Jalə Lamiyənin bahalı həyat tərzinə, "taxma kirpiklər" kimi makiyaj elementlərinə, bəzən makiyaj və zahiri görünüşə verdiyi önəmə baxmayaraq, daxili duyğular, vicdan və real həyatın çətinlikləri qarşısında belə itkinin yaratdığı boşluğu görür. Lamiyənin bahalı salonları, estetik mərkəzi, tez-tez səyahətləri, "farfor" fincanlar, bahalı şokolad-şirniyyat, taxma kirpiklər - bunlar xarici görünüşün, rahatlığın və cəmiyyətin gözləntilərinin anlamıdır. Hekayə göstərir ki, bu rahatlıq və imtiyazlar insanı xarici görüntü ilə bəzəsə də, həqiqət - insan itkisi, ölüm qarşısında insan zəif düşür. Lamiyənin estetik görüntülü salonu və bahalı yaşayışı, geniş sosial dairəsi ola bilər, amma maddi zənginlik real itkini unutdururmu? Hekayə bu suala təkcə "yox" cavabını verir.

Bu konflikt (zahiri rifah və daxili sarsıntı) oxucunu sual qarşısında qoyur: Bahalı fincanlar, taxma kirpiklər, "sosial status" nə qədər insanın daxili həyatını, vicdanını qoruyur? Hekayənin adı daxili deqredasiyanın, mənəvi böhranın qaysağıdır. Əsərdə baş rollarda qadınlardır, amma onlar öz faciələrinin bataqlığındadırlar. Onların hər biri sünidir, heç bir əlamətdar rollara sahib deyillər. Qadın isə gözəlliklə təbiiliyin simvoludur. Gözəllik süniliklə ziddiyyət təşkil edir. Fransız mütəfəkkir Jan Jak Russo yazırdı ki, qadınların "süniliyi" təbiətdən gəlmir, sosial təzyiqlərlə bağlı olaraq onlar uşaq vaxtından məcburedilən tərəfdir.

Əsəri bu xüsusda həm də Simone de Bovuarın fəlsəfəsi ilə əlaqələndirmək olar. Qadının öz xarici görünüşünə bu qədər diqqət yetirməsi və "taxma" vasitələrə ehtiyac duyması, cəmiyyətin qadın üzərində qurduğu "gözəllik standartı" təzyiqinin nəticəsidir. Bu, fərdi azadlığın itirilməsi və insanın obyektləşməsi prosesidir.

Hekayədə göstərilir ki, əvvəlki bütün şübhələr, xəyallar, qısqanclıqlar və "şeytan piçıltısı" adlandırılan təsəvvürlər gerçəklikdə özünü doğrulda bilmir. Firuz və Lamiyənin boşanma həddində olduğu düşünülsə də, reallıqda onlar sən demə, bircə işarəyə bənd imişlər və ilk imkanda barışırlar. Bu da reallığın əsas dinamikası - ailəni hər vəchlə qorumaqdır, hətta bu qoruma yalan, teatrallıq və sosial performans hesabına baş versə, belə.

Lamiyənin həyat tərzi, bahalı süfrələr, nümayişkaranə barışma səhnələri - bunlar ailənin gerçək emosional vəziyyətini deyil, onun cəmiyyət qarşısındakı yerini göstərir.

Faiq və Jalənin də nəticədə eyni qənaətə gəlməsi ("bunlar boşanmamalıdır") onların öz münasibətləri üçün də psixoloji güzgüdür: başqasının ailəsini qorumaqla, əslində, özlərinin məhv olmaq qorxularını kompensasiya edirlər.

Əsərin sonundakı hədiyyə və Jalənin gülüşünü boğması isə göstərir ki, əslində hər kəs öz rolunu oynayır, maskalar üzlərə taxılır, hər şey "normala dönür", lakin bu normallıq səmimiyyətdən daha çox gözdən asılan pərdədir.

"Taxma kirpiklər" gündəlik dialoqlar, sosial hadisələr və münasibətlər üzərində yazılmış realist hekayədir. Ancaq struktur ölçüsündə diqqətçəkən məsələ onun parçalanmış səhnələr toplusu kimi qurulmasıdır - yəni hekayə ardıcıl bir süjet xətti olmadan, müxtəlif epizodlar (çay süfrəsi, qısqanclıq dialoqları, yuxu səhnəsi, təyyarə xəyalları) üzərində yaradılıb. Bu, müasir nəsrin xarakterik xüsusiyyətidir. Bu ölçü xətti XX əsr modernizmi və postmodernizmi dövründə formalaşıb və estetik strategiya kim adlandıra bilərik. Bu mənada rus tədqiqatçısı Viktor Şklovski qeyd edirdi ki, "İncəsənətin məqsədi əşyanı tanımaq yox, onu görmək hissini bərpa etməkdir. Buna görə də incəsənət qavrayışı çətinləşdirir və formaları mürəkkəbləşdirir". Lakin Georq Lukaç "Roman nəzəriyyəsi" (1916) kitabında bu məsələyə tənqidi mövqedən yanaşaraq qeyd edirdi ki, "Formanın dağılması dünyanı bütöv qavrama imkanının itirilməsindən xəbər verir" O, modernist və postmodern fraqmentasiyanı ictimai məsuliyyətdən yayınma kimi görürdü. Lakin ədəbiyyat incəsənətin bir növüdür. İncəsənət isə insanı hərəkətə çağırmalıdır. Eynən abstrakt ekspressionizmin nümayəndəsi Cekson Pollokun - Number 1A, 1948, "Convergence" əsərlərini misal göstərə bilərik. Ki, rəsmi struktur yoxdur, sadəcə sual var - Sualı isə əsərin önündə dayanan şəxs tapmalıdır. Ümumilikdə, əsərdə hadisələr "hərəkət" xətrinə deyil, personajların daxili dünyalarını, qorxularını və qarşılıqlı təsirlərini göstərmək üçün verilir.

Hekayənin mövzusundan yola çıxsaq, əslində, insanı darıxdıran yalnız sıxıcı vəziyyət və yaxud məhəbbət deyil. Darıxmaq, həm də bağlanmağın(vərdiş) sinonimi kimidir. Bu daxili hiss eyni zamanda öyrənməklə əlaqəlidir. Öyrənmək və öyrətmək - hər iki anlayış savabi əhəmiyyətlidir. Yazıçı bu mənada öyrətməyi və özünə bağlamağı bacarmalıdır. Hər hansı bir əsəri oxuyarkən hadisələrin isti münasibəti ilə qarşılaşmaq vacibdir. Ki, daha sonra həmin hadisələrin bir üzvünə çevrilmək və bağlanmaq ehtiyacı hiss edilsin.

Alpay Azərin məhz "Taxma kirpiklər" hekayəsi oxucunu özünə çəkən (hekayədən çox) hadisədir. Reallıq isə hadisə ilə bağlı olduğu üçün oxucu özünü reallığın içərisində tapır və obrazlarla, ziddiyyətlərlə qarşılaşdıqca baş verən proseslərin bir növ sakini olur

Alpay Azər Azərbaycanın müasir nəsrində məxsusi yol və müşahidələrə sahib müəllif kimi diqqət çəkir. Onun hekayələrindəki mövzu fərqliliyi nəsrimizi zənginləşdirən əsas cəhətlərdəndir.

**İstifadə olunmuş ədəbiyyat**

**1. Alpay, A. Taxma kirpiklər ("Hisslər və macəralar" silsiləsindən) // Ədəbiyyat qəzeti, 17 avqust 2024.**

**2. Lukaç, G. Roman nəzəriyyəsi (The Theory of the Novel). 1916.**

**3. Russo, Jan-Jak. Emil və ya tərbiyə haqqında (?mile, ou De l'?ducation). V kitab. 1762.**

**4. Şklovski, V. İncəsənət üsul kimi (İskusstvo kak pri m). 1917.**

**5. Şklovski, V. Nəsrin nəzəriyyəsi (Teorіə prozı). 1925.**

**6. Pirandello, L - şəxsiyyət və maskalar mövzusu haqqında analitik məqalə.**

**Elektron resurs: Polyglottist Language Academy.**



# BAYAT



№ 71 (931)



Fərid Hüseyn

## Çağırış

Müqəddəs İsa,
bəzən kürək söykənməyə
bircə yer qalır insana -
o da çarmıxda.
Çəkil, çəkil o yana -
"yer ver mənə yanında".

Əllərim alnımdan əcəl tərini silmir -
yorğun ömrün izlərini
itirməyə qıymır əllərim,
bir körpə ağacın
çarmıxa çevrilməsidir ömrüm...

İtirdim, sındırdım, atdım,
götürmədim özümlə,
insanlardan yadigar saxlamadım,
yığdım gözümü hamıdan,
mən daha sənin əllərinə vurulan
mismar səsindən özgə
heç nə aparmaq istəmirəm dünyadan...

***

Demişdi, bir səs demişdi bizə:
"...xəzinəniz harda olacaqsa,
ürəyiniz orda olacaq "
hər şeyi itirdim -
amma ürəyim ağrımır ölüm ayağında.

Qulağımızdan sırğa eləmədik:
"İki ayağa qulluq eləmək olmaz,
birini sevəcəksinizsə,
o birinə nifrət edəcəksiniz" ,
İndi bütün ömrüm keçir gözümün
önündən
və xatırlayıram ki,
nifrət elədiyim ayağımla getmişəmmiş
arzuların dalınca.

## Aharon Appelfeldin müsahibəsi

"41-ci ilin yayı idi.
güllələdilər
anamı da,
nənəmi də.
9 yaşım var idi onda...
Anamsa 31 yaşında idi.
O həmişə elə cavan qaldı,
...mən isə qocaldım.
Atam səbirli idi
və anam öləndən sonra
sükut idi dini...
Həmişə bu sualı düşünmüşəm:
Zəngin atam niyə
müharibə vaxtı olan-qalanını
satıb qaçmadı?
Sonrasa öyrəndim ki,
onun bütün var-dövləti
vətənin
təpəlikləri,
meşələriymiş,
onlarısa satıb
qaçmaq olmur..."
Və bir gün bir siyahı tutdum,
əvvəl anamın,
sonra atamın adını yazdım ora
və anladım ki, mən tək deyiləm...

## Birinin gündəliyində mən barədə qeydlər

Yazardı şeirlərini dərman qutularına,
vurulardı rentgen gözlü qadınlara,
ümidlərin edam günü yağlayardı ürəyini,
söykəyərdi gecələr təkliyinə kürəyini,
ömrü qəlbiylə dili arasındakı yolda keçərdi,
sözü nəvəyə meyvə axtaran babatək seçərdi,
xatirələri əsir düşmüşdü şəkillərin əlinə,
ağrı-acıları güzgülənərdi şeirlərində,
düşmən gülləsitək yayınardı yalanlardan,
necə oldusa yoxa çıxdı aynalardan
Mələklərin haqqımda "yazdıqları"

Sol çiynimdəki mələyin "yazdıqları:"

Nəfs dağlarında keçdi ömrü -
alma uzadılanda Adəm oldu.
Cənnət uşaqlığından
cəhənnəm gəncliyinə qovuldu.
Verilmişdi ona dost yolunda
şəhidlik mərtəbəsi,
o isə içindəki şamı söndürüb
edama tamaşa elədi.
Biganə qaldı insan talelərinə,
sağ əlinin verdiyini sol əli gördü,
sağ əlisə şahidi boğaraq öldürdü.
Bir gün əcəl elçi düşəndə,
ömründə çox şey yarım idi,
içindəki pişik ürəyinin döşəməsindəki
qurumuş süd ləkəsini yalayırdı.

Sağ çiynimdəki mələyin "yazdıqları:"

Sözlərin təmizliyin qorumaqçün susardı,
anasının əllərindən cənnəti qoxlardı,
sevdiyi qadına son ümidini bağışlardı,
nə ülfət dağının mehindən xoşallanar,
nə riya kölgələrində sərinlərdi ürəyi,
ancaq zəhmət şallağından əzilərdi canı,
xeyir meyvələri dərmək vaxtı yetişəndə
o saatca yerdən üzülərdi dabanları.

## Açarlar

Qulaqlarınız tutulub öz səsinizdən,
gözləriniz kor olub cibimin qaranlığından,
dişləriniz əyilib sərxoş gecələrdə
qürbət dəlikləri çeynəməkdən...
Sizsiz idim - Allah açan qapılarda,
çarəsiz idiniz - şansızlıq kilidi qarşısında,
qorxurdunuz - işdən çıxanda,
ağlayırdınız - evə gəlməyəndə...
Biz doğulandan "kəmərimizə"
bir topa gözəgörünməz açar asılır,
bir qapı bağlanır üzümüzə həmişə,
bir qapı açılır...

## Məndən deməkdi

Qılman İmanlıya

Çox da bəxtində küsmə.
Onsuz səndən küsəcəklər.
Bir gün sən lap neyləsən də
Özgəsini seçəcəklər.
çox sevdiyim adamlar.

Gözlərinə qan damacaq.
Çatmayacaq havan da.
Təklik dənizinə atıb
əl edəcəklər limanda,
çox sevdiyin adamlar.

Sonra da uşaq kimi
Arxanca düşəcəklər.
Əllərində boşqab, qaşıq,
kədər yedirdəcəklər.
çox sevdiyin adamlar.
Yıxılanda sıxılacaq
Dizin divar döşünə
Səni dizi bükülü qoyub
Gedəcək iş-gücünə
çox sevdiyin adamlar.

Onda biləcəksən ki,
Aqil başın avammış
Bircə səni sevən elə
əksin olan adammış.

Bəs hara "buxarlandılar",
çox sevdiyin adamlar?!

## Qoca aktrisanı seyr edərkən

Əllərini belinə qoymaqla deyil,
qocalığı ovucda gizlətmək olmur.
Ömür də kadrmış, ey rentgen gözlü,
başlayır, bitir...
Gülürsən, gözəlliyin görünüb itir...

İndi sən qocalara cavanlığını,
cavanlara uşaqlığını xatırladan,
uzaq keçmişsən, həminki vaxtsan.
Mərhum rejissorun anım günündə
dönə-dönə göstərilən eyni kadrsan.

Daha şöhrətin nankor uşaqlarına,
ərkin çatmır, keçmir sözün.
İndi zalda səni sevənləri yox,
xatırlayanları axtarır gözün.

## Qızıl balıq

Sevgi - hər dəfə Qızıl balıqdan
eyni adamı istəməkdi.
Sevgi - balığa "ancaq Onu..." deyib,
adını gizləməkdi.
Eh hardan bilsin bunları,
öz ürəyinin səsindən ürkənlər,
eşqin qanı sıçrayan güzgülərdə
qalstuklarını düzəldənlər..

## Gəl qaçıb gedək dünyadan

Gözümə işığın düşür.
Yarın-yaraşığın düşür.
Gəl qaçıb gedək dünyadan,
Pasportun var, yaşın düşür,

Qapıya elçi gələndə.
Təriflərlə öyüləndə.
Yaxşı oğlan deyiləndə.
Yada ev və maşın düşür.

Davam edir dava-dalaş.
Bu nə taleh, bu nə savaş.
Tələsmə sən, yavaş-yavaş
Hər gün ölüm aşın bişir.

## Fikir yorğununun dedikləri

Kilsələrin üstündəki xaçlar
bənzəyir dinə sancılmış qılınca.
Qürbətdə yada düşən dərdlərim
könlümü incidir, bağrımı sökür -
Bakı vaxtıyla - öz saatımızla...

Bu döyüş meydanı dünyada
"İbadət edən silahlar"ın səsindən
tutulub, kardır qulaqlarımız.
Burda kilsə zəngiylə döyülür yerə,
əcələ tələsən "əsgər ayaqları"mız...

İnsafdırmı, görəsən,
faniliyinin haqqını əbədiyyətlə ödəyirik -
cənnətlə, cəhənnəmlə,
əbədi zülmlə, əbədi xoşbəxtliklə.
Ayaq üstə yaşamaqdır sonuncu qələbəmiz -
bizi torpağa çəkən dünyada - çəliklə.

***

Ata,
Vaxtın zəncirindən asılıb yoxluğun,
o zəncirdən asılıb yüyrüyüm...
Yüyrükdən enəndə,
ayağım yer tutanda
görməyəcəyəm səni?

Ata,
təklədilər məni,
söykəyib kürəyimi
anamın təsəllisinə
vuruşdum:
"Allah da təkdi, oğlum".

Ata,
Qorudum özümü,
Ailəmizin ümid yeri
olduğumu bilən gündən.
Bayramlarda
sənin ağzınla öpürəm
anamın üzündən...

***

Ölüm deyil bir qadının yoxluğu.
Ən uzağı soyuq yemək deməkdi.
Ən ötəsi həvəssizcə əyninə,
Təzə, amma qırış köynək geyməkdi.

Nə var onsuz yaşamağa, asandı.
Cüt yataqda tək yatmaqdı "rahatca".
Eh-vay onla dil tapmaq da çətindi,
neyləyirsən, danışammır həyatca.

Ondan, onsuz, nə qalacaq? Ötəsi...
bir cütlənmiş çəkməsi var burada.
Onu da ki, gizləyərəm uzağı.
O əldəyməz, kimsəsiz yan odada.

Kitabları dağıdaram özümçün,
yaddan çıxıb yanar xörək sobada.
Unudaram qalın paltar geyməyi:
Rahat-rahat üşüyərəm havada.

Deməz: "Evdə çəkmə bu zəhrimarı,
Siqaretim qabındaca öskürməz.
"Sevgi" sözü hər davada min dəfə,
çiliklənib, yerə-yurda tökülməz.

Gedən getsin, qapım Novruz qapısı -
gedənə də, gələnə də açıqdı.
Bir cüt gözdü onu burda gözləyən.
Onsuz axı yatmaq olar? - Ayıbdı.

## Yaddaş ilanı

Dustaqlara "görüş yoxdu" xəbəridir getməyin,
məhbəsdə siqaret paylanan gündü sən gələndə,
baxışların meşə yanğını kimi yayılır gözlərimə.

İpək saçlarına ilişir gözəl sözlər, -
keçmir kəlmə kəndirbazlığı.
Birgəlik günlərdə zülmümüz bol olur,
dodaqlarımız ruzisini daşdan çıxarır, -
yeməklərində əriyir güzəran narazılığı.

Bu sevgi də ömrün ağ bayraqlı yalandı,
unutmağa qorxuram - yaddaşım piton ilanıdı.

## Bəlkə

Allah bizi yıxa-yıxa,
Bəlkə də döyüb öldürür.
Allah bəzi qocaların
qəddini əyib öldürür.

Xoş halına ölənlərin,
Vay halına qalanların
Allah bəzən sevənlərin
Xətrinə dəyib öldürür.

№ 5 (2477) 6 fevral 2026-cı il



# ONLAR HEÇ VAXT ÖLÜMDƏN QORXMADILAR

**Kim nə deyir-desin Azərbaycan xalqı tarixən çox müdrik, mübariz və döyüşkən bir millət olub. Bunu biz demirik, bunu tarix təsdiq edir. Tarix təsdiq edir ki, bu millətin torpağını, yurdunu, elini-obasını əlindən almaq elə də asan bir məsələ deyil. Yəni hər bir azərbaycanlı öz torpağı uğrunda, öz Vətəni uğrunda döyüşməyə, şəhid olmağa, qalib olmağa hazırdır. Əlbəttə, bütün bunlar ona dəlalət edir ki, bizim millət nə qədər humanist, nə qədər mərhəmətli və nə qədər ürəyi yumuşaq olsa da bir qarış torpağını belə yağı düşmənə verməz.**



Heç kimə sirr deyil ki, uzun müddət, daha doğrusu, otuz ildən çox ərazimizin iyirmi faizi işğal altında olub. Yəni işğalçı ermənilər öz havadarlarının köməyi ilə bu çirkin niyyətlərini zaman-zaman həyata keçiriblər. Tarixən ermənilər bizim üzümüzə gülüb, çörəyimizi yeyib, suyumuzu içib, Vətənimizin havasını udub. Hətta tülkü sifətinə girərək, bizə "kirvə" deyərək kürəyimizə bıçaq saplayıblar. Təbii ki, onların iç üzünü biz yaxşı tanımamışıq. Biz bilməmişik ki, onlar hansı yuvanın quşudur.

Sovet dönəmində isə aparılan ideoloji təbliğatlar ermənilərlə bizim qardaş olduğumuzu bildirirdi. Bu təbliğat maşını onların da havadarlarının köməyi ilə 70 ildən çox dünyaya erməni sevgisini təbliğ elədi. Daha bilmədilər ki, onlar dar gündə, çətin anlarda çörək yediyi qaba tüpürəcək və 20 faizdən artıq torpağımızı işğal edəcəklər. Onlar tək torpaqlarımızı işğal etmədilər, həm də bizim milli-mənəvi dəyərlərimizi, mədəniyyətimizi və tariximizi işğal etdilər. Çünki zəbt etdikləri ərazilərdə yalandan bir qondarma abidələr düzəldir, adları dəyişir, guya bu yerlər iki yüz il bundan qabaq onlara məxsus imiş. Bax, bu ermənilərin iç üzü idi. Bütün bunlarla bahəm Azərbaycan heç vaxt işğal altında olan torpaqlarının erməni əsarətində olması ilə barışmırdı. Çünki beynəlxalq təşkilatlardan tutmuş ermənilərin havadarlarına qədər hamısı onların sözünü deyir və bu problemi, yəni Qarabağ problemini dondurmaq istəyirdilər. Daha doğrusu, elə 30 il elə dondurmuşdular. Amma Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə və eləcə də prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində erməni yalanı dünyada ifşa olunurdu. Bununla paralel Azərbaycan öz hərbi və iqtisadi gücünü daha da artırırdı. Heç şübhəsiz ki, bu addımların gerçəkləşməsi işğal altında olan ərazilərimizin geri qaytarılmasına böyük ümid yaradırdı.

Artıq bu ümid 2020-ci ilin sentyabrın 27-də günəş kimi parladı. Yəni ermənilərin nazı ilə düz 30 il oynadıq və 30 ildən sonra onlara qarşı Azərbaycan ordusu, Ali Baş Komandan İlham Əliyevin əmri ilə əks hücuma keçdi. Bu o demək idi ki, qüdrətli Azərbaycan ordusu və möhtəşəm Azərbaycan xalqı öz sözünü artıq döyüş meydanında silahla deyirdi. O silahla ki ordumuz ən müasir texnika, döyüş maşınları və yeni qurğularla təchiz edilmişdi. Üstəlik də Azərbaycan ordusunda elə bir ruh yüksəkliyi yaranmışdı ki, onun qarşısını nə ermənilərin havadarları, nə də təpədən dırnağadək silahlanmış erməni ordusu ala bilərdi.

Döyüşün ilk günlərində ermənilər özlərinə çox arxayın idilər. Ən azından ona görə ki, strateji cəhətdən bütün yüksəkliklər onların əlində idi.

Üstəlik də keçilməz müdafiə səddi yaratmışdılar. Bu sədd ən azı 7-8 hissədən ibarət idi və onu da nahaq yerə "Ohanyan səddi" adlandırmırdılar. Çünki Qarabağın bütün yerlərində ermənilər 30 ildə çox güclü müdafiə sistemləri, istehkamlar qurmuşdular və buna da çox arxayın idilər. Çünki bu müdafiə səddini yarmağa ən azı 2-3 ay vaxt lazım idi. Amma qüdrətli Azərbaycan ordusu bu səddi bir neçə günün içərisində darmadağın elədi. Füzulinin və Cəbrayılın ona yaxın yaşayış məntəqəsinin bir neçə günün içində azad edilməsi Azərbaycan ordusunu daha da ruhlandırdı. Əsas məsələ o idi ki, ermənilərin dediyi kimi, keçilməz sədd o qədər də möhkəm olmadı. Sadəcə olaraq, Azərbaycan ordusu, o sədd nə qədər möhkəm olsa da, əsgərlərimiz, bayaq dediyim kimi, onu yarıb keçməyi bacardı.

Ali Baş Komandan, prezident İlham Əliyevin işğal altında olan torpaqlarımızın, rayonlarımızın, yaşayış məntəqələrimizin azad olunması ilə bağlı xalqa çatdırdığı xəbərlər millətimizin böyük sevincinə səbəb olur, xalq, ordu prezident ətrafında daha da sıx birləşirdi. Yüz minə yaxın əsgərimiz vardı, amma daha 200 min də könüllü insanlar döyüşə getməyə hazır idi. Bunlar hamısı prezident İlham Əliyevin 44 günlük İkinci Qarabağ savaşında apardığı möhtəşəm və uğurlu siyasət idi.

Dəfələrlə Cənab Prezident öz çıxışlarında qeyd edib ki, bizim nə qədər müasir döyüş texnikamız, silahımız olsa belə əsas Azərbaycan əsgəri idi. Çünki onlar heç nədən qorxmur, döyüşür və erməniləri strateji mövqelərdən iti qovan kimi qovurdu. Bu, bir daha Azərbaycan əsgərinin mübarizliyini, döyüşkənliyini və igidliyini göstərirdi.

Çox nadir müharibələrdə qısa zaman kəsiyində işğal altında olan əraziləri azad etmək mümkündür. Azərbaycanın da 44 günlük İkinci Qarabağ savaşında keçirdiyi möhtəşəm əməliyyat bax, belə unikal əməliyyatlardan biri idi. Çünki belə bir əməliyyatın həyata keçirilməsi üçün ən inkişaf etmiş dövlətlər belə bu addımı ata bilməyiblər. Hələ də dünyanın hərb tarixində qeyri-adi əməliyyat kimi tarixə qızıl hərflərlə həkk olunmuş 44 günlük savaş dünyanın çox böyük ölkələrini təəccübləndirib. Başqa sözlə demiş olsaq, bu gün dünyada Azərbaycanın 44 günlük savaşında hərbi təcrübəsi, qeyri-adi əməliyyatları digər ölkələrin hərbçiləri tərəfindən bir məktəb olaraq öyrənilir, araşdırılır.

**Tarix göstərir ki, Azərbaycan dünyəvi, demokratik və hüquqi dövlət olmaqla yanaşı, həm də hərbi cəhətdən ən güclü ölkələrdən biridir. Əhalimizin və ərazimizin az olmasına baxmayaraq, Azərbaycan ordusu əksər Avropa dövlətlərindən bu gün hərbi cəhətdən daha güclüdür. Ona görə də heç bir ölkə, eləcə də qonşu dövlətlər bizimlə hədə-qorxu, hərbi yolla danışa bilməzlər. Və danışsalar çox ağır cavablarını alacaqlar!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# "Qurd"a çevrilən Cəbrayıl



*Əntiqə KƏRİMZADƏ*

**Xalq yazıçısı Elçin Əfəndiyevin ”Ox kimi bıçaq” əsəri əsasında ekranlaşdırılan ”Arxadan vurulan zərbə” filminin əsas personajlarından biri də ” Qurd Cəbrayıl” obrazıdır. Film təqaüddə olan keçmiş milis işçisi Əhməd Qəmərlinin müəmmalı şəkildə öldürülməsi ilə başlasa da hadisələr məhz həmin ”Qurd Cəbrayıl”ın üzərində cərəyan edir.**

İnanıram ki, əsəri oxuyan hər kəsdə, filmə baxan hamıda bir sual yaranır. Kimdir bu Qurd Cəbrayıl? Yəni onun Azərbaycan ədəbiyyatına, Azərbaycan kinosuna qədər gəldiyi yol inanıram ki, bir çox insanı düşündürüb.

Əsl adı Cəbrayıl Əlibaxış oğlu Baxşıyev olsa da hər kəs onu ”Qurd Cəbrayıl” və ya ”Paxan Cəbrayıl” kimi tanıyır. O, 1900-cu ildə Bakının Maştağa kəndində anadan olub. Hələ 6 aylıq körpə olarkən anasını, 9 yaşında isə atasını itirib. Ona babası Sonqulu kişi himayəlik edib. Cəbrayılın babası Sonqulu kişi indiki Bakı Dövlət Sirkinin yerində olan evdə yaşayırmış. ”O olmasın, bu olsun” filmində dovğa satan bir kişi ”Kəblə Sonqulu dovğası, Kəblə Sonqulu dovğası” deyərək, müştəri haraylayır. Əslində bu, Cəbrayılın babası Sonquludur.

Sonqulu kişi Cəbrayılı dovğa bişirib satmaqla saxlayırdı. Çox zəhmətkeş insan imiş. Cəbrayıl da babasına bu işdə kömək edirmiş. O, kömək etməklə yanaşı özünə pul qazanmaq məqsədilə dovğaya su qatarmış. Bundan babası xəbər tutan Cəbrayıl evə gəlməyə qorxur. Elə həmin gecə evə getməmək qərarına gəlir.

O, ”bir-iki günlüyə xalamgilə gedim, babamın hirsi soyuyandan sonra geri qayıdaram” düşüncəsi ilə gəmiyə minir. Yolboyu xalasıgilə çatacağı anı səbirsizliklə gözləyən Cəbrayıl yalnız bir neçə saat keçəndən sonra gəmiyə səhv mindiyini anlayır.

Sərnişinlərdən gəminin uzaq diyara - Həştərxana gedəcəyini bilincə isə ağlamağa başlayır. Yalnız böyüklərin sözləri onu ovudur. Elə həmin gəmi ilə

Bakıya qayıtmağı düşünürmüş. Taleyin qismətindəndir ki, hava həddindən artıq küləkli olur və gəminin Bakıya dönməyi təxirə düşür.

Limanın yaxınlığında gəzən Cəbrayıl bir nəfərin faytonunun təkərinin çıxdığını görüncə ona yaxınlaşır. 9 yaşlı bu oğlan faytonun təkərini yerinə bərkidir. Bu isə faytonçunun - milliyyətcə tatar olan Ravilin xoşuna gəlir. Cəbrayılın nə üçün tək gəzməsi ilə maraqlanan Ravil ata-anasının olmadığını bilib, ona elə oradaca övladlıq təklif edir: ”Mənim böyük bir qənnadı sexim var, yəni yaşayışım yaxşıdır. Amma övladım olmur. Gəl sən mənə oğul ol”.

Evin xanımı ona doğma övlad gözü ilə baxmasa da, o, Ravil kişinin sevgisini qazanır. Beləliklə, Cəbrayıl təxminən 9 il Ravilin evində qalır.

Bir gün Cəbrayıl qəbiristanlıqdan keçəndə iki nəfər atlını görüb, qəbirlərdən birinin arxasında gizlənir. Həmin adamlar qəbiristanlıqda yer qazaraq özləri ilə gətirdikləri böyük bükülünü orada basdırıb, çıxıb gedirlər. Cəbrayıl adamların xəzinə basdırması ehtimalı ilə həmin yeri qazmağa başlayır. Qazıb qurtarandan sonra çıxardığı kisənin ağzını açır və... gözlərinə inanmır: orada boynu bıçaqla yaralanmış bir qız görür. Bıçaq boynunda saplanmış qalmışdı. Bıçağı dartıb çıxarınca üzünə qan fışqırır və Cəbrayıl özündən gedir. Gözlərini açanda isə özünü xəstəxanada görür. Xəstəxanada hamı qızı Cəbrayılın vurduğunu zənn edirmiş. Lakin sağ qalan qız onu Cəbrayılın vurmadığını deyib, xilaskarını həbsdən qurtarır...

Özünə gələndən sonra Yasəmən adlı bu qız başına gələnləri nəql etməyə başlayır: ”Atam çox varlı idi. Onun iki qızı vardı - mən və bacım. Atam ölməzdən əvvəl var-dövlətini iki bacı arasında bölmüşdü. Məni bıçaqlayıb qəbiristanlıqda basdıranlar isə bacımın əri ilə qaynı olub”.

Sağaldıqdan sonra Yasəmən Cəbrayıla öz evinə köçməyi təklif edir. Cəbrayıl Ravil kişiylə sağollaşıb, qızın evinə köçür.

Üstündən çox keçməmiş Yasəmən ona qəsd etmiş bacısının həyat yoldaşı və qaynını öldürüb, doğrayır. Doğranmış meyitləri isə Cəbrayılın köməkliyi ilə basdırır. O, ev də daxil olmaqla hər şeyi satıb, bütün pulları Cəbrayıla verir. Beləliklə, Cəbrayılla Yasəmən Bakıya yollanırlar. Cəbrayıl Həştərxan yaxınlığındakı stansiyaların birində düşərkən Yasəmən qatarda qalır. O, Yasəmənin olduğu vaqona minməyərək Bakıya başqa qatarla qayıdır...

Sonralar Yasəməni axtarıb tapan Cəbrayıl onun vaxtilə verdiyi pul kisəsini özünə qaytarır və onunla birgə Bakıya dönür. Onlar artıq ər-arvad münasibətlərində yaşasalar da, bu, rəsmiləşməmiş qalır.

Cəbrayıl göbəkkəsdisi edilmiş xalası qızı Minəxanımla evlənir. Yasəmən də onlarla birgə yaşayırmış, lakin övladı olmadığına görə çıxıb gedir. Yasəməndən fərqli olaraq, Minəxanım düz 7 övlad dünyaya gətirir. Onlardan 2-si uşaq vaxtı dünyasını dəyişir.

Ümumilikdə isə Cəbrayıla 70 il yaxın iş kəsilib. Lakin o, aldığı işin yalnız yarısını - 36 ilini həbsxanada keçirib.

O daha çox tək işləməyə üstünlük verdiyinə görə Qurd ləqəbini qazanıbmış. Ancaq kriminal aləmdə daha çox ”Paxan Cəbrayıl” kimi tanınırmış.

Qurd Cəbrayılın oğlu Xoşqədəm müsahibələrinin birində ”Arxadan vurulan zərbə” filmində ”Qurd Cəbrayıl” obrazını ifa edən Yusif Vəliyevlə eyni küçədə yaşadıqlarını söyləyir. Aktyor həmin obrazı oynamamışdan əvvəl Cəbrayılla gəzib, dolanıb. Onun hərəkətlərini, davranışını, danışığını, jestlərini öyrənib. Hətta Cəbrayılın necə nərd oynadığını da mənimsəyib.

Oğlu deyirdi ki, Yusif atamın obrazın mükəmməl canlandırıb. Yalnız fərq ondadır ki, atam, tapançadan sərrast atəş açırdı, filmdə isə ”Qurd” ustalıqla bıçaq atır.

**”Arxadan vurulan zərbə” filmi efirə çıxanda o, artıq dünyasını dəyişmişdi. Cəbrayıl 1976-cı ilin 9 mayında vəfat edib. Filmin çəkilişlərisə 1977-ci ildə başa çatıb.**

# Həyatı kinoya çevrilən aktrisa

**Bu dünyada həyatı kino kimi olan insanlar da az deyil. Həyat onları hansı mərhələdə güldürəcək, hansı məqamda ağladacaq bu da bəlli deyil. Tək görünən odur ki, insan ancaq ümidlərdən aslı yaşayır. Peşəsi aktyorluq olmasa da, tale onu kino sahəsinə gətirir. Kino ona təkcə məşhurluq yox, həm də həyatında yeni bir səhifə açır. Taleyin gözlənilməz oyunu onun da həyatını kinoya çevirir.**



Bu gün həyatı drama çevrilən aktrisa Töhfə Əzimovanın anım günüdür.

Əsl adı Tofilə olsa da, hər kəs ona Töhfə deyə müraciət edirdi.

Töhfə Əzimova (Ələsgərova) 6 fevral 1938-ci ildə Bakı şəhərində anadan olub. Əsl peşəsi fortepiano müəllimliyi olub.

O, aktrisa kimi cəmi iki filmdə çəkilib və hər iki ekran əsərində də yaddaqalan obrazlar yaradıb. Töhfə xanımın kino sənətinə ilk gəlişi 1957-ci ilə təsadüf edir. O zaman onun 19 yaşı var idi. Görkəmli rejissor Lətif Səfərov ”Qızmar günəş altında” filmi üçün gənc xanım ifaçılar seçərkən, o zaman ali musiqi təhsil alan tələbə Töhfə Ələsgərova da onun diqqətini cəlb edir. Rejissor onu ekran əsərinin çəkilişlərinə çağırır.

Filmə çəkilmək Töhfə Əzimovanın həyatını büsbütün dəyişir. Gözlənilməz xoşbəxtlik aktrisanın tale qapısını döyür. Belə ki, çəkilişlər zamanı ”Qızmar günəş altında” filminin rəssamı Cəbrayıl Əzimovla tanış olan gənc aktrisa həyatını onunla birləşdirməyə qərar verir. Onlar bir ildən sonra ailə qururlar. Bu nigahdan onların Elman adlı bir oğlu dünyaya gəlir.

Töhfə Əzimovanın aktrisa kimi ikinci dəfə ekran qarşısına çıxmağı 1963-cü ildə çəkilən ”Əhməd haradadır?” filmində gerçəkləşir.

Hər iki filmdən kifayət qədər məşhurluq qazanan aktrisanın həyatında gözlənilməz hadisə baş verir. Belə ki, Əzimovlar ailəsinin xoşbəxtliyi uzun müddət davam etmir.

1969-cu ildə 43 yaşlı Cəbrayıl Əzimov yeganə oğlu Elman və onun dostlarını Şıxov çimərliyinə apararkən avtomobil qəzasına düşür. Təəssüf ki, Cəbrayıl Əzimovun həyatını bu qəzada xilas etmək olmur.

Bu dəhşətli hadisədən sonra aktrisa özünə qapanır. Ərinin vaxtsız ölümündən sarsılan Töhfə Əzimova daha sonra heç bir filmdə çəkilmir. Oğlunu tək böyüdür və ömrünün sonunadək Bakıdakı 1 nömrəli musiqi məktəbində fortepianodan dərs deyir.

**Taleyi bir faciəyə çevrilən aktrisa Töhfə Əzimova 4 fevral 2003-cü ildə 64 yaşında vəfat edir. O, Yasamal qəbiristanlığında dəfn edilib.**

**Əntiqə KƏRİMZADƏ**

## TƏBRİK



**Prezident təqaüdçüsü, yazıçı-publisist, 50 ildən çox pedaqoji sahədə çalışmış gözəl ziyalı, dostumuz və qardaşımız Səməndər Məmmədovun 72 yaşı tamam olur. Onun mayası qoşma, təcnis, dodaqdəyməz, dildönməzlə yoğrulub. Xalq şairi Zəlimxan Yaqub onun haqqında çox gözəl deyib:**

**”Səməndər Zəlimxan Yaqubun səyyar kitabxanasıdır, məni oxumaq istəyirsinizsə, onu axtarın”. O, Zəlimxan Yaqub kimi klassik və müasir şairlərimizin şeirlərini əzbər bilir. Allah onu qorusun!**

**Ad günü münasibətilə Səməndər qardaşımızı təbrik edir, ona cansağlığı arzulayırıq!**

**Hörmətlə: 35 illik dostun**
**Faiq QİSMƏTOĞLU!**

## *Mənzurə Musayeva: “Bircə o hissin dadını bilmirəm”*



**Mənzurə Musayeva şəxsi həyatında yaşadığı uğurlardan danışıb.**

Adalet.az bildirir ki, müğənni daha çox övlad sahibi ola bilmədiyi üçün üzüldüyünü etiraf edib:

”Bütün qadınlar kimi övlad sahibi olmaq istəmişəm. Kim istəməz ki, övladı olsun? Həmişə deyirəm ki, bu mövzu mənim yaralı yerimdir. Övladım olsaydı, həyatım əlbəttə, bir başqa cür olardı. Düzdür, qardaşımın qızın böyütmüşəm. O mənim mənəvi qızımdır. Hətta onu gəlin köçürmüşəm, 4 yaşında nəvəm də var. Amma qəlbinin dərinliyində bilirsən axı, hiss edirsən ki, bu sənin övladın deyil. Çünki o uşağın atası- anası var. Ona öz övladın kimi qışqıra bilmirsən, ərk edə bilmirsən. Ehtiyat edirsən ki, birdən xətrinə dəyər. Həmişə deyirəm ki, tale mənə hər şey verdi. Mülk, var- dövlət, şan-şöhrət, ancaq bircə balanın dadını bilmədim (ağlayır). Ancaq bütün hallarda Allaha şükür edirəm. Demək mənim qismətim belə imiş”.

## *Qumral: “Mən o sözü elə “cütləşmək” bilirdim”*



**Qumral Musayeva ona qoyulan qadağalara baxmayaraq, Niyaməddin Musayevin ”Dünya sənin, dünya mənim, dünya heç kimin” mahnısını yenidən ifa edib.**

Adalet.az bildirir ki, müğənni sözügedən mahnını Niyaməddin Musayevdən sonra ən yaxşı özü ifa etdiyini söyləyib:

”Mənə heç bir qadağa qoyulmayıb. Razıyam, bu mahnının möhürü Xalq artisti Niyaməddin Musayev vurub. Ancaq mən də bir gənc ifaçı kimi heç də pis oxumamışam. Ondan sonra bu mahnını ən gözəl özüm ifa etmişəm. Mən səhv söylədiyim sözə görə üzr istədim. Amma mən elə o sözü ”cütləşmək” bilirdim. Özüm də o sözü istifadə edirəm. Məsələn ”ayaqqabını cütlə”. İndi kimin ağlı işləyir elə danşır. Mən onu pis yerə yozmamışam. Mən orta məktəbdə rus bölməsini bitirmişəm. Ona görə də hansısa sözü bilməyə bilərəm. Səhv ifadəmə görə üzr istəyirəm”.

**Əntiqə**

**Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatı tərəfindən 2 aprel 2007-ci ildə Göyçay rayon sakini Bəşirov Qoşqar Cavid oğlunun adına verilmiş Yeni Azərbaycan Partiyasının 415496 N-li üzvlük bileti itdiyi üçün etibarsız sayılır.**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 265
Çapa imzalanmışdır: 05.02.2026